

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 51 (7306) / Şənbə, 16 mart 2019-cu il


# Qlobal Bakı Forumu mühüm beynəlxalq tədbirə çevrilib



⇨ Bax: səh. 2

*Gimnastika Federasiyasının baş katibi:*

## Azərbaycanda gimnastikanın inkişafı Mehriban Əliyevanın adı ilə bağlıdır



⇨ Bax: səh. 3




⇧ Bax: səh. 4

## Fransa Milli Assambleyasının saytındakı məlumatda Azərbaycanın Birinci vitse-prezidenti ilə görüşdən bəhs edilir

## Mənzillər təqdim olunub



⇨ Bax: səh. 4

⇧ Bax: səh. 5



*Novruz Məmmədov:*

## Azərbaycanın inkişafı, vətəndaşların rifahının yüksək səviyyəyə qaldırılması əsas məqsədimiz olmalıdır

⇧ Bax: səh. 9



Cəmil Çiçək:

## Qlobal Bakı Forumunda müzakirə olunan məsələlər dünya ictimaiyyəti üçün çox faydalıdır

⇧ Bax: səh. 3

*Prezident Milo Cukanoviç:*

## Qlobal Bakı Forumu mühüm əhəmiyyət kəsb edir



⇧ Bax: səh. 9

## Səbail rayonunda çoxmənzilli binanın sakinlərinə çıxarışlar təqdim olunub



⇧ Bax: səh. 3

*Baş nazir Boyko Borisov:*

## Qlobal Bakı Forumu ölkələr arasında əməkdaşlığın inkişafına mühüm töhfə verir




2 Bu ailələrdə hər uşağa görə verilən müavinət artacaq

17 ERMƏNİSTANIN DƏYİŞMƏYƏN MƏNZƏRƏSİ: Narazı cəmiyyət və Paşinyanın dəvəqusu pozası

24 Ağ çayın hansı faydaları var?

# İran Azərbaycana dost və qardaş ölkə kimi münasibət göstərir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, Azərbaycan-İran hökumətlərarası birgə komissiyasının həmsədri Fərhad Dejpəsəndin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, söhbət zamanı Bakıda Azərbaycan-İran hökumətlərarası komissiyasının toplantısının səmərəli keçəcəyinə və müzakirə olunan məsələlərin öz həllini tapacağına əminlik ifadə olundu.

Görüşdə nəqliyyat, energetika, sənaye, ticarət, sərmayə qoyuluşu, kənd təsərrüfatı, səhiyyə və digər sahələrlə bağlı müzakirə olunan məsələlərin gözəl nəticələr verdiyi vurğulandı, eyni zamanda, ticarət dövriyyəsinin artırılması istiqamətində atılacaq addımlar haqqında danışıldı, Neftçalada müasir avtomobil zavodunun işə düşməsindən məmnunluq ifadə olundu. Həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin fəaliyyətə başlaması mühüm hadisə kimi dəyərləndirildi. Prezident İlham Əliyev bu yaxınlarda Qəzvin-Rəşt dəmir yolunun açılışı münasibətilə təbriklərini çatdırdı.

Görüşdə elektroenergetika sahəsində də görülmüş işlər yüksək qiymətləndirildi və bu sahədə əməkdaşlığın həm ikitərəfli, həm çoxtərəfli formatda inkişaf etdirilməsinin əhəmiyyəti vurğulandı.

Qəbula görə minnətdarlığını bildirən Fərhad Dejpəsənd İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını və Novruz bayramı münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Həsən Ruhani və bütövlükdə İran Azərbaycana dost və qardaş ölkə kimi münasibət göstərir. Fərhad Dejpəsənd Prezident İlham Əliyevin ikitərəfli münasibətlər haqqında söylədiyi fikirlərin əhəmiyyətini vurğuladı.

Görüşdə qeyd olundu ki, Azərbaycan və İran prezidentlərinin iradəsi sayəsində iki ölkə arasında əməkdaşlıq bütün sahələrdə uğurla inkişaf edir.

Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına və Novruz bayramı münasibətilə təbriklərinə görə minnətdarlığını bildirdi, onun da salamlarını və bayram təbriklərini İran Prezidentinə çatdırmağı xahiş etdi.

## PREZİDENT İLHAM ƏLİYEV YENİ ZELANDİYANIN BAŞ NAZİRİNƏ BAŞSAĞLIĞI VERİB



Prezident İlham Əliyev Yeni Zelandiyanın Baş naziri Casinda Arderne başsağlığı verib. Başsağlığında deyilir:

"Hörmətli xanım Baş nazir, Kraystçerç şəhərində məscidlərə silahlı hücum nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi.

Biz bu amansız terror əməlindən son dərəcə hiddətlənir, terrorizmin bütün forma və təzahürlərinə qarşı beynəlxalq birliyin səylərini qətiyyətlə dəstəkləyirik.

Bu dəhşətli hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Yeni Zelandiya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram".

## BU AİLƏLƏRDƏ HƏR UŞAĞA GÖRƏ VERİLƏN MÜAVİNƏT ARTACAQ

Prezident İlham Əliyevin 2013-cü il 27 dekabr tarixli Fərmanı ölkəmizdə çoxuşaqlı anaların sosial müdafiəsinin gücləndirilməsində mühüm rola malikdir. Fərmanla beşdən çox uşağı olan qadınların hər bir uşağına görə aylıq sosial müavinət ödənilir.

Dövlət başçısının 2019-cu il 25 fevral tarixli Sərəncamı digər müavinət növləri kimi, beşdən çox uşağı olan qadınların 18 yaşına çatmamış hər bir uşağına görə aylıq sosial müavinətin də əhəmiyyətli dərəcədə artmasına imkan verib.

Aprelin 1-dən həmin müavinətin məbləği 55 manata çatdırılacaq. Misal üçün, ailədə 6 uşaq varsa həmin ailəyə qeyd olunan müavinət kimi aylıq 330 manat (hazırkı məbləğlə müqayisədə 132 manat çox) vəsait ödəniləcək. Onu da bildirək ki, hazırda ölkəmizdə beşdən çox uşağı olan qadınların 9 min uşağına həmin müavinət verilir.

2019-cu il 25 fevral tarixli Sərəncam müddətli həqiqi hərbi xidmət qulluqçularının 16 yaşa (ümumtəhsil məktəblərində əyani təhsil alanlar 18 yaşa) çatmamış uşaqlarının hər biri üçün ödənilən aylıq müavinətin də məbləğinin artmasını nəzərdə tutur. Aprelin 1-dən həmin müavinət 68 manatdan 100 manata qaldırılacaq. Hazırda həmin müavinət növü 120 uşağa ödənilir.

# Ölkələrimiz beynəlxalq təşkilatlarda bir-birinə dəstək verir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Səudiyyə Ərəbistanı Krallığının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Faysalı qəbul edib.**



"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Faysal qəbula görə minnətdarlığını bildirdi. O, Bakıda keçirilən VII Qlobal Forumun əhəmiyyətinə toxunaraq, həmin tədbirdə çıxış etdiyini məmnunluqla qeyd etdi və eyni zamanda, bu tədbirin beynəlxalq əməkdaşlıq sahəsində özünəməxsus yer tutduğunu dedi. Qonaq Forumun Bakı şəhərində təşkil olunmasını düzgün bir seçim kimi dəyərləndirdi və eyni zamanda, bildirdi ki, Bakı qədim və müasir arxitekturanı özündə birləşdirən çox gözəl bir məkandır.

Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunun əhəmiyyətini qeyd edərək, bu Forumun fəaliyyətinin genişlənməsinin və mühüm beynəlxalq tədbirə çevrilməsinin önəmini vurğuladı. Dövlətimizin başçısı Turki Al Faysal ilə keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq, həmin görüşlər zamanı səmərəli müzakirələrin aparıldığını bildirdi.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinə dəstək verməsinin əhəmiyyəti qeyd olundu.

# Qlobal Bakı Forumu mühüm beynəlxalq tədbirə çevrilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də ABŞ-ın Kolumbiya Universitetinin Yer İnstitutunun direktoru, BMT baş katibinin Dayanıqlı İnkişaf Məqsədləri üzrə xüsusi müşaviri Cefri Saksı qəbul edib.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, dövlətimizin başçısı Cefri Saksa VII Qlobal Bakı Forumunda iştirakına görə təşəkkürünü bildirdi.

Cefri Saks VII Qlobal Bakı Forumunun təşkilinə görə minnətdarlığını ifadə etdi və Forumda məmnunluqla iştirak etdiyini vurğuladı. O, Forumun əhəmiyyətinə toxunaraq orada regional və digər məsələlərlə bağlı səmərəli müzakirələr aparılmasının önəmini qeyd etdi.

Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunda təmsil olunan ölkələrin və iştirakçıların sayının artdığını və bu Forumun mühüm beynəlxalq tədbirə çevrildiyini vurğuladı.

Görüşdə ölkəmizdə gedən iqtisadi inkişaf prosesləri, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı qlobal layihələr, o cümlədən Şərq-Qərb nəqliyyat dəhlizi, enerji siyasəti barədə danışıldı.

*ISESCO-nun baş direktoru:*

# Azərbaycanın təkcə regionda deyil, dünyada mövqeləri gündən-günə möhkəmlənir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycrini qəbul edib.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri Azərbaycana gəlməsindən və VII Qlobal Bakı Forumunda iştirak etməsindən məmnunluq hissi keçirdiyini bildirdi. O, bu tədbirin beynəlxalq əməkdaşlığa dəyərli töhfə verdiyini dedi. Əbdüləziz Osman əl-Tuveycri qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi və müdrik siyasəti ilə Azərbaycan uğurla inkişaf edir, çiçəklənir və ölkəmizin təkcə regionda deyil, bütün dünyada mövqeləri gündən-günə möhkəmlənir.

Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını ifadə edərək, Əbdüləziz Osman əl-Tuveycriyə VII Qlobal Bakı Forumunda iştirakına görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı VII Qlobal Bakı Forumunun qlobal məsələlərin səmərəli müzakirəsi üçün mühüm tədbirə çevrildiyini dedi. ISESCO ilə əməkdaşlığa toxunan Prezident İlham Əliyev bildirdi ki, bu təşkilatın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsi dövlətimiz və xalqımız tərəfindən yüksək dəyərləndirilir.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

*Prezident Milo Cukanoviç:*

## Qlobal Bakı Forumu mühüm əhəmiyyət kəsb edir




Qlobal Bakı Forumu mühüm əhəmiyyət kəsb edir. Dünyanın hazırkı və keçmiş dövlət və hökumət başçıları Forumda iştirak edir və mühüm məsələlər barədə müzakirələr aparırlar.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında VII Qlobal Bakı Forumunda iştirak edən Monteneqronun Prezidenti Milo Cukanoviç deyib.

Dövlət başçısı Azərbaycan-Monteneqro münasibətlərindən danışaraq bildirib ki, ölkələrimiz arasında yüksək səviyyəli əlaqələr mövcuddur. "Biz əlaqələrin daha da inkişaf etdirilməsi üçün imkanların olduğunu düşünürük", - deyə o əlavə edib. Prezident vurğulayıb ki, xüsusilə də turizm və enerji sektorunda əməkdaşlığın genişləndirilməsi diqqət mərkəzindədir.

*Baş nazir Boyko Borisov:*

## Qlobal Bakı Forumu ölkələr arasında əməkdaşlığın inkişafına mühüm töhfə verir




Qlobal Bakı Forumu burada müzakirə edilən mövzuların aktuallıq kəsb etməsi baxımından önəmli olması ilə yanaşı, həm də ölkələr arasında əməkdaşlığın inkişafına mühüm töhfə verir.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Bolqarıstanın Baş naziri Boyko Borisov deyib.

Baş nazir Azərbaycan-Bolqarıstan münasibətlərinə toxunaraq ölkələrimiz arasında səmərəli əməkdaşlığın mövcud olduğunu söyləyib. O qeyd edib ki, Azərbaycanla Bolqarıstan bir çox sahələrdə, o cümlədən turizm, mədəniyyət və digər sahələrdə uğurlu əməkdaşlıq edir. "Hesab edirəm ki, bu əməkdaşlıq daha da inkişaf etdiriləcək", - deyə Baş nazir əlavə edib.

*Gimnastika Federasiyasının baş katibi:*

# Azərbaycanda gimnastikanın inkişafı Mehriban Əliyevanın adı ilə bağlıdır





**Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsi ilə ölkədə bu idman növü inkişaf etməyə başladı. Bunu Azərbaycan Gimnastika Federasiyasının baş katibi Nurlana Məmmədzadə deyib.**

N.Məmmədzadə qeyd edib: "Birinci vitse-prezident Mehriban Əliyeva 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçildi. Bu dövrdən etibarən ölkədə gimnastika inkişaf etməyə başladı. Bu gün federasiyamız Beynəlxalq Gimnastika Federasiyasının tanıdığı 6 gimnastika növünü uğurla inkişaf etdirir".

O bildirib ki, 2016-cı ildən başlayaraq Azərbaycan hər il gimnastikanın üç Olimpiya növü üzrə Dünya kubokları təşkil edir: "Hazırda Bakıda kişi və qadın idman gimnastikası üzrə Dünya Kuboku keçirilir. Turnir Tokio-2020 Yay Olimpiya Oyunlarına təsnifat xarakterli olması ilə fərqlənir. Bu yarışın əhəmiyyəti həm məşqçi və idmançılar, həm də təşkilatçılar üçün çox böyükdür".

Cari turnirin digər Dünya kuboklarından fərqindən danışan federasiyanın baş katibi deyib ki, adi Dünya kuboklarında Beynəlxalq Gimnastika Federasiyasından yalnız bir texniki nümayəndə dəvət olunur. Bu il texniki nümayəndələrdən başqa, alətlər üzrə supervayzer funksiyasını yerinə yetirən hakimlər, eləcə də hakim-referentlər dəvət edilib".

N.Məmmədzadənin sözlərinə görə, yarışlar təsnifat xarakterli olduğu üçün iştirakçıların sayı çoxdur: "Ötənilki Dünya Kuboku ilə müqayisə etsək görərik ki, iştirakçı ölkələrin sayı iki dəfə artıb. Belə ki, bu il yarışda 41 ölkənin idmançıları iştirak edir".

Federasiyanın baş katibi, həmçinin gələcək yarışlar barədə danışıb. O qeyd edib ki, aprel ayında bədii gimnastika üzrə Dünya Kubokunun final mərhələsi keçiriləcək. Ondan əvvəl isə "AGF Junior Trophy" beynəlxalq turniri baş tutacaq: "May ayında Bakıda bədii gimnastika və aerobika gimnastikası üzrə Avropa çempionatları keçiriləcək. İyul ayında Bakıda Avropa Gənclər Olimpiya Festivalı keçiriləcək. Bu tədbirdə gimnastikanın iki növü - kişi və qadın idman gimnastikası yer alıb. Bundan başqa, sentyabrda bizi bədii gimnastika üzrə dünya çempionatı gözləyir. Burada 55-dən çox ölkənin iştirakı planlaşdırılır. Bu çempionat da Olimpiya Oyunları üçün təsnifat xarakteri daşıyacaq".

Qeyd edək ki, Bakıda Milli Gimnastika Arenasında kişi və qadın idman gimnastikası üzrə FIG Dünya Kuboku çərçivəsində yarışların ikinci günü keçirilir.

Martın 17-nə qədər davam edəcək yarışların ilk günündə təmsilçilərimizdən Murad Ağarzayev (sərbəst hərəkətlər), Nikita Simonov (halqalar) və Marina Nekrasova (dayaqlı tullanma, gimnastika tiri) final mərhələsinə vəsiqə qazanıblar.

Dördgünlük turnir Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaq istəyən gimnastlar üçün mühüm keçid rolunu oynayacaq. Belə ki, olimpiadaya təsnifat xarakterli bu yarışda iştirak etmək üçün 41 ölkə qeydiyyatdan keçib. Medallar və lisenziya xalları uğrunda isə 121 kişi və 49 qadın gimnast mübarizə aparır.

# Mənzillər təqdim olunub







Martın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 3 sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə yeni mənzillər təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək deyib: Bu gün dövlətimiz tərəfindən sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçılarına və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında sağlamlıq imkanları məhdudlaşmış şəxsə yeni mənzillər təqdim edilir. Bu, dövlətimiz tərəfindən vətən qarşısında öz vəzifələrini və vətənpərvərlik borclarını layiqincə yerinə yetirmiş insanlara göstərilən qayğının daha bir ifadəsidir. Çünki mənzil təminatı hər bir insanın rahat yaşayışı və əsas qayğılarının həll olunması deməkdir.

Ali Məclisin Sədri vəzifələrini layiqincə yerinə yetirdiklərinə görə mənzillə təmin olunanlara təşəkkürünü bildirib, onları qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib və yeni mənzillərində firavan həyat arzulayıb.

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev çıxış edərək deyib ki, muxtar respublikada müvafiq kateqoriyadan olan insanların rifah halının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Azərbaycan Vətən Müharibəsi iştirakçıları və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlara minik avtomobillərinin verilməsi, tibbi və sosial bərpası diqqət mərkəzində saxlanılır. 2019-cu ilin ötən dövründə müvafiq kateqoriyalı 4 ailəyə mənzillər, 1 nəfərə isə minik avtomobili təqdim olunub. Həyata keçirilən tədbirlərin davamı olaraq bu gün müvafiq kateqoriyalı 4 şəxsə yeni mənzillər təqdim olunur. Nicat Babayev sağlamlıq imkanları məhdud şəxslərə göstərilən yüksək diqqətə və qayğıya görə minnətdarlıq edib, əhalinin sosial müdafiəsi sahəsində qarşıya qoyulan vəzifə və tapşırıqların icrasında səylə çalışacaqlarını bildirib.

Ali Məclisin Sədri mənzillərin orderlərini təqdim edib, müharibə iştirakçıları və onların ailə üzvləri ilə xatirə şəkli çəkdirib.

Azərbaycan Vətən Müharibəsi iştirakçısı Samir Sadıxovun valideyni Əmanət Musayeva çıxış edərək deyib: "Dövlətimiz tərəfindən müharibə iştirakçılarına, şəhid ailələrinə hərtərəfli qayğı göstərilir. Mənim övladım Samir Sadıxov da vətənimizin müdafiəsində sağlamlığını itirib. Valideyn kimi fəxr edirəm ki, övladım Vətən yolunda şərəflə xidmət edib. Bir neçə il bundan əvvəl övladıma avtomobil təqdim edildi. Bu gün - Novruz bayramı ərəfəsində isə yeni mənzil verilir. Göstərilən bu qayğı bizə ikiqat bayram sevinci yaşadır. Qürur duyuram ki, mən bu ölkənin vətəndaşıyam. Ailəmiz bundan sonra da vətənimizin inkişafına öz töhfəsini verəcəkdir".

Əmanət Musayeva göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq edib, Novruz bayramı münasibətilə təbriklərini çatdırıb.

Naxçıvan şəhərində yerləşən iki və üçotaqlı mənzillər təmir olunaraq lazımi şərait yaradılıb. Mənzillə təmin olunanlara xalça hədiyyə edilib.

*Əli Hüseynli:*

## Milli qəhrəmanlar evlə təmin olunmalıdır

Milli qəhrəmanlar evlə təmin olunmalıdır. Belə bir təkliflə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli parlamentdə hökumətin hesabatının müzakirəsi zamanı çıxış edib.

Komitə sədri bildirib ki, bu gün ölkədə Milli Qəhrəmanların İctimai Birliyi fəaliyyət göstərir və onlar ölkə başçısına Milli qəhrəmanlarla bağlı ayrıca qanunun hazırlanması təklifi ilə müraciət ediblər: "Hökumət bunu nəzərə almalıdır. Digər bir məsələ də ondan ibarətdir ki, bu gün Azərbaycanda sağ olan və yaşayan çox az sayda Milli qəhrəman var ki, onlar evlə təmin olunmayıb. Nazirlər Kabineti və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bunu nəzərə alıb. Yaxın gələcəkdə onlar evlə təmin edilsə, yaxşı olardı".

# Fransa Milli Assambleyasının saytındakı məlumatda Azərbaycanın Birinci vitse-prezidenti ilə görüşdən bəhs edilir

**Fransa Milli Assambleyasının rəsmi saytında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu qurumun sədri Rişar Ferranla görüşü barədə məlumat yerləşdirilib.**




"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Azərbaycanın Fransa ilə əlaqələrinin inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyan bu səfər zamanı Birinci vitse-prezident Mehriban Əliyevanın Milli Assambleyanın sədri Rişar Ferran ilə görüşündə Azərbaycan-Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə edilib. Milli Assambleyanın sədri parlamentlərarası əlaqələrin inkişafında maraqlı olduqlarını bildirib. İkitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin önəmindən danışılıb, qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb.

Qeyd edək ki, səfər zamanı Fransa rəsmiləri ilə keçirilən görüşlər, aparılan danışıqlar ikitərəfli siyasi, iqtisadi, mədəni və elmi sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi, əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi və konkret layihələrin həyata keçirilməsi ilə bağlı geniş perspektivlər açıb.

Birinci vitse-prezident Mehriban Əliyevanın bu səfəri Fransanın Azərbaycanla münasibətlərə böyük önəm verdiyini, ölkəmizlə əməkdaşlıqda maraqlı olduğunu bir daha təsdiqləyir.

Dmitri Savelyev:

## Ermənistan rəhbərliyi Dağlıq Qarabağla bağlı danışıqlar prosesini dalana dirəməyə cəhd göstərir



Dağlıq Qarabağ münaqişəsi zamanında qəbul olunmuş qərarlar əsasında həll olunmalıdır. Bunu VII Qlobal Bakı Forumunda iştirak edən Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev jurnalistlərə deyib.

Deputat xatırladıb ki, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş rayonlarının mərhələli şəkildə qaytarılmasını, daha sonra qaçqınların Qarabağa qayıtmasını və Dağlıq Qarabağın taleyinin müəyyən olunması ilə bağlı referendumun keçirilməsini nəzərdə tutan Madrid prinsipləri, "Kazan formulu", 5+2 prinsipi mövcuddur.

Onun sözlərinə görə, Ermənistan rəhbərliyi danışıqları uzatmağa, bu prosesə üçüncü tərəfi, qondarma rejimin nümayəndələrini cəlb etməyə və bununla da danışıqlar prosesini dalana dirəməyə cəhd göstərir: "Hesab edirəm ki, Rusiya öz növbəsində ATƏT-in Minsk qrupunun həmsədri qismində Qarabağ münaqişəsinin nizamlanması istiqamətində daha fəal işləməlidir".

# Rabatda Xocalı qətliamı və Ermənistanın Azərbaycana təcavüzünə dair qətnamə layihələri qəbul edilib

Martın 14-də Mərakeş Krallığının paytaxtı Rabatda İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqı (İƏT Pİ) Konfransının 14-cü iclası keçirilib.

Tədbirdə Azərbaycanı Milli Məclisin İƏT Pİ-dəki nümayəndə heyətinin rəhbəri Gövhər Baxşəliyeva, parlamentin əməkdaşı Emin Məmmədov təmsil ediblər.

Konfrans çərçivəsində "Xocalı qırğını qurbanlarının xatirəsinin yad edilməsinə dair" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüz etməsinə dair" qətnamə layihələri qəbul edilib.

Milli Məclisin deputatı Gövhər Baxşəliyeva sessiyada məruzə ilə çıxış edib, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun bu günədək həllini



tapmaması haqqında ətraflı məlumat verib. O, üzv ölkələrin nümayəndə heyətlərinə Azərbaycanın haqlı mövqeyini dəstəklədiklərinə və qətnamə layihələrinin qəbul olunmasına səs verdiklərinə görə minnətdarlığını bildirib.

*Novruz Məmmədov:*

# Azərbaycanın inkişafı, vətəndaşların rifahının yüksək səviyyəyə qaldırılması əsas məqsədimiz olmalıdır

## BAŞ NAZİR NOVRUZ MƏMMƏDOV MİLLİ MƏCLİSDƏ HESABAT VERDİ

**Dünən Milli Məclisdə növbəti plenar iclas keçirilib. "İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, iclasda Konstitusiyaya uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci ildə fəaliyyətinə dair illik hesabatı dinlənilib.**





Milli Məclisin sədri Oqtay Əsədov bildirib ki, bu gün Konstitusiyaya uyğun olaraq Nazirlər Kabineti ötən ildəki fəaliyyəti barədə hesabat verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatında həyata keçirilən dinamik dəyişikliklər bu gün Milli Məclisə təqdim edilən hesabatda dəqiq və dolğun ifadəsini tapıb.

Sonra Baş nazir Novruz Məmmədov Nazirlər Kabinetinin 2018-ci ildəki fəaliyyətinə dair hesabatla çıxış edib. Bildirib ki, 2018-ci il Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatında böyük nailiyyətlərlə, əlamətdar tarixi hadisələrlə zəngin olmuşdur: "Ötən il Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi təntənə ilə qeyd edilmişdir. Aprel ayında keçirilən növbəti prezident seçkilərində müdrik xalqımız ən düzgün seçimini edərək, İlham Əliyevi yenidən dövlət başçısı seçmişdir. Bu seçimi ilə Azərbaycan Respublikasının vətəndaşları milli maraqlara uyğun aparılan siyasət nəticəsində ölkədə bərqərar olmuş ictimai-siyasi sabitliyi, dayanıqlı və dinamik inkişafı, xalq-iqtidar birliyini dəstəklədiyini növbəti dəfə nümayiş etdirmişlər. Prezident seçkilərindən sonra dövlət başçısı hökumətin yeni tərkibini müəyyənləşdirmiş, qarşıda duran strateji vəzifələri və hədəfləri bəyan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin rəhbərliyi ilə aparılan və yeni dövrün çağırışlarına cavab verən praqmatik xarici siyasət, beynəlxalq münasibətlər sistemindəki mövcud gərginliklərə baxmayaraq, dövlətimizin nüfuzunun daha da yüksəlməsinə və Azərbaycanı dəstəkləyən ölkələrin sayının artmasına zəmin yaratmışdır.

Hesabat ilində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətimizin başlıca prioriteti olaraq qalmış və münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilə biləcəyi bir daha ictimaiyyətin və beynəlxalq təşkilatların diqqətinə çatdırılmışdır.

İkitərəfli və çoxtərəfli formatlarda qəbul edilən sənədlərdə dövlətimizin suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstək ifadə edilmişdir. Bu baxımdan Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" adlı sənəd düşünülmüş sistemli fəaliyyətin əsas tərkib hissələrindən biri kimi çox əhəmiyyətlidir.

Ötən ilin may ayında Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə reallaşan Cənub Qaz Dəhlizinin açılışı Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin vacib rolunu bir daha nümayiş etdirdi. Bunun ardınca Türkiyədə dövlət başçılarının iştirakı ilə nəhəng TANAP layihəsinin rəsmi açılış mərasimi özünün geosiyasi və geoiqtisadi əhəmiyyəti ilə bərabər, Azərbaycan-Türkiyə qardaşlığının və tərəfdaşlığının növbəti parlaq nümayişi oldu.

Azərbaycan Respublikası Prezidentinin bilavasitə rəhbərliyi altında Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi ilə bağlı aparılan uzunmüddətli və gərgin danışıqlar 2018-ci ilin avqustunda uğurla yekunlaşdı və dövlətimizin maraqlarını özündə əks etdirən Konvensiya imzalandı.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin keçən ilin yekunlarına dair iclasındakı nitqində hökumətin fəaliyyətini dərindən və hərtərəfli təhlil edərək, əldə olunan nəticələri yüksək qiymətləndirmiş, 2018-ci ilin dərin iqtisadi islahatlar ili olduğunu bildirmişdir. Belə ki, ölkədə makroiqtisadi sabitlik təmin olunmuş və iqtisadi artım 1,4 faiz təşkil etmişdir. Qeyri-neft sektorunda artım 1,8 faiz olmuş, qeyri-neft sənaye məhsulu isə 9,1 faiz artmışdır. Əsas kapitala yönəldilmiş 17,2 milyard manat vəsaitin 11 milyard manatdan çoxu və ya 65,5 faizi qeyri-neft sektorunun payına düşmüşdür və sevindirici haldır ki, bu vəsaitin 69,7 faizini daxili sərmayələr təşkil etmişdir.

2018-ci ildə inflyasiya cəmi 2,3 faiz olduğu halda, əhalinin gəlirləri nominal ifadədə 9,2 faiz artmışdır. Bunu müsbət hal kimi dəyərləndirmək lazımdır. Ölkənin valyuta ehtiyatları 3 milyard ABŞ dolları artaraq, 45 milyard dollar olmuşdur. Xarici borcun 3 faizə yaxın azaldılaraq 19 faizə endirilməsi isə ölkə iqtisadiyyatının dayanıqlılığını nümayiş etdirir.

Ötən il icmal büdcənin gəlirləri 31,4 milyard manat, xərcləri isə 26,3 milyard manat olmuş və ümumi daxili məhsula nisbətdə 6,4 faiz büdcə artıqlığı (profisit) əldə edilmişdir.

Dövlət büdcəsinin gəlirləri 22,5 milyard manat təşkil edərək, təsdiq olunmuş proqnozu 360 milyon manat üstələmişdir.

Dövlət büdcəsinin və icmal büdcənin gəlirləri bütün sosial öhdəliklərin, əsas dövlət proqramlarının və prioritet layihələrin tam maliyyələşdirilməsinə imkan yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı sosial-iqtisadi siyasətin mahiyyətində əhalinin aztəminatlı təbəqəsinin rifahının davamlı olaraq yüksəldilməsinin dayandığı hamıya məlumdur. Bu məsələyə hesabat ilində də xüsusi önəm verilmişdir. Dövlət büdcəsinin xərclərinin 31,7 faizi və ya 7,2 milyard manatı sosialyönümlü xərclərin payına düşmüşdür ki, bu da 2017-ci illə müqayisədə 7,6 faiz çoxdur. Əmək pensiyalarının artırılması 1,2 milyon pensiyaçını və ya onların 94 faizini əhatə etmişdir. Pensiyaların orta aylıq məbləği ötən illə müqayisədə 6,2 faiz, yaşa görə pensiyanın orta aylıq məbləği isə 6,7 faiz artmışdır.

Özünüməşğulluq proqramının əhatə dairəsinin il ərzində 6,5 dəfə genişləndirilməsi 5 mindən çox ailənin və ya 25 min nəfərə yaxın insanın maddi vəziyyətinin yüksəldilməsinə imkan vermişdir.

Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərinə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına əsasən, 11 min manat birdəfəlik ödənişin hesabat ilində verilməsinə başlanılmış və ilin sonuna 34 milyon manat vəsait ödənilmişdir. Əlillərə və şəhid ailələrinə 626 mənzil verilmiş, 265 nəfər imtiyazlı şəxs pulsuz minik avtomobili ilə təmin olunmuşdur.

Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən Yasamal yaşayış kompleksində 29 binanın, 1 məktəbin, 1 uşaq bağçasının tikintisi yekunlaşdırılaraq, sosial mənzillərin satışına başlanılmışdır.

Bundan əlavə, respublikanın regionlarında 1530 yerlik 18 uşaq bağçasının və körpələr evinin, valideyn himayəsindən məhrum olmuş kimsəsiz məzunlar üçün Abşeron rayonunun Masazır qəsəbəsində yaşayış kompleksinin inşası tamamlanmışdır.

Əvvəlki illərdə olduğu kimi, əhalinin həssas təbəqəsi olan məcburi köçkünlərin sosial problemlərinin həllinə xüsusi diqqət yetirilmiş, bu məqsədlərə ayrılmış maliyyə vəsaiti hesabına salınmış və bütün lazımi infrastruktur yaradılmış qəsəbələrdə 5900 ailə yeni mənzillərlə təmin edilmişdir.

Hörmətli deputatlar, ölkə iqtisadiyyatının əsas sahəsi olaraq qalmaqda davam edən neft-qaz sektorunda çox mühüm işlər görülmüşdür. 2018-ci ildə 38,7 milyon ton neft, 19,2 milyard kubmetr qaz hasil edilmişdir. Heydər Əliyev adına neft emalı zavodunda yenidənqurma və müasirləşdirmə tədbirləri davam etdirilmiş, maye qazdoldurma məntəqəsi və illik istehsal həcmini 62 faizdən çox artırmağa imkan verəcək yeni bitum qurğusu istismara verilmişdir.

2018-ci ilin iyul ayında Sumqayıt Kimya Sənaye Parkında polipropilen zavodu işə salınmış və ilin sonunadək burada 14 min ton məhsul istehsal edilmişdir. Sənayenin inkişafına və əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət proqramlarının icrası çərçivəsində, Sumqayıt Kimya Sənaye Parkında karbamid zavodunun inşası başa çatdırılmışdır. Ümumi dəyəri təxminən 800 milyon avro təşkil edən həmin müəssisədə ildə 600-650 min ton azot gübrəsi istehsal ediləcəkdir. Ölkənin daxili tələbatını ödəməklə yanaşı, zavodun məhsullarının həm də dünya bazarlarına ixrac edilməsindən respublikaya hər il 160 milyon ABŞ dolları məbləğində vəsaitin daxil olması gözlənilir.

Ötən il qardaş Türkiyədə istismara verilmiş və illik istehsal gücü 10 milyon ton olan "Star" neft emalı zavodu ilk beş il müddətində Azərbaycan iqtisadiyyatına ildə 850 milyon ABŞ dolları, sonrakı dövrlərdə isə hər il 600 milyon ABŞ dollarından çox gəlir gətirəcəkdir.

Bütün dünyada enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyinin tərkib hissəsi kimi qəbul olunur. Bu prizmadan yanaşdıqda, Prezident İlham Əliyevin Nazirlər Kabinetinin ilin yekunlarına həsr olunan iclasında vurğuladığı kimi, 2018-ci ildə Azərbaycan İstilik Elektrik Stansiyasında baş vermiş qəza bu sahədə ciddi problemlərin və çatışmazlıqların olduğunu göstərdi. Dövlət başçısının tapşırığı ilə məsələ qısa bir vaxtda araşdırıldı və enerji sisteminin reabilitasiya planının həyata keçirilməsinə başlanıldı. İlkin mərhələdə daxili imkanlar və dövlət büdcəsindən ayrılmış 140 milyon manat məbləğində maliyyə vəsaiti hesabına 230 meqavat güc bərpa edildi.

Mövcud tədbirlər planına uyğun olaraq, 2018-ci ildə əsaslı yenidənqurmadan sonra Mingəçevir Su Elektrik Stansiyası, Lerik rayonunda elektrik stansiyası və "Yeni Yaşma" Külək Elektrik Parkı istismara verilmişdir.

Enerji sisteminin şəbəkə təsərrüfatının inkişafı ilə əlaqədar görülmüş işlər də təqdirəlayiqdir. Bu dövrdə 110 kilovoltluq 11, 35 kilovoltluq 27 yarımstansiyada tikinti və yenidənqurma işləri aparılmış, 123 kilometr kabel, 7500 kilometrə yaxın hava xətləri çəkilmiş və ya təmir olunmuş, 970-dən çox müxtəlif transformator əsaslı təmir edilmiş, 390 komplekt transformator məntəqəsi quraşdırılmış və digər tədbirlər həyata keçirilmişdir.

Sahənin ümumi inkişafının daha da sürətləndirilməsi məqsədilə hüquqi prosedurların sadələşdirilməsini və şəffaflığın təmin edilməsini nəzərdə tutan normativ hüquqi aktlar qəbul edilərək, qanunvericilik bazası təkmilləşdirilmişdir.

⇨ **Davamı 6-cı səhifədə**

*Novruz Məmmədov:*

# Azərbaycanın inkişafı, vətəndaşların rifahının yüksək səviyyəyə qaldırılması əsas məqsədimiz olmalıdır

## BAŞ NAZİR NOVRUZ MƏMMƏDOV MİLLİ MƏCLİSDƏ HESABAT VERDİ

⇨ Əvvəli 5-ci səhifədə




Dövlət başçısının uğurlu sənayeləşmə siyasətinə uyğun olaraq, sənayenin inkişafına dair 2015-2020-ci illər üzrə Dövlət Proqramının icrası artıq öz real bəhrəsini verməkdədir. Müasir texnologiyalara və geniş ixrac imkanlarına malik sənaye parklarının və sənaye məhəllələrinin yaradılması siyasətinə xüsusi önəm verilməsini həm ölkənin sənaye potensialının gücləndirilməsi, həm də Dördüncü Sənaye İnqilabı istiqamətində atılmış düşünülmüş addımlar kimi səciyyələndirmək lazımdır. Belə ki, 2018-ci ildə ölkədə yaradılmış və ümumilikdə 55 müasir müəssisəni özündə birləşdirən 5 sənaye parkında və 4 sənaye məhəlləsində 41 rezident qeydiyyata alınmışdır və onlardan 21-i artıq fəaliyyət göstərir. Mingəçevir Sənaye Parkına 85 milyon ABŞ dolları məbləğində investisiya qoyulmuşdur. İllik istehsal gücü 20 min ton olan iki müəssisədə pambıq mahlıcdan iplik istehsal ediləcəkdir.

Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatının ənənəvi sənaye sahələri ilə yanaşı, yeni yaradılan kosmik, müdafiə, gəmiqayırma və digər sahələrdə də dinamik inkişaf müşahidə olunur. Belə ki, 2018-ci ilin sentyabr ayında orbitə buraxılmış ikinci telekommunikasiya peyki - "Azərspeys-2" bu sahədə xidmətlərin və yayımın əhatə dairəsinin genişləndirilməsini, xidmətlərin çeşidinin və satış həcminin artırılmasını təmin edəcəkdir. Nazirlər Kabineti orbitə çıxarılmış peyklərin fəaliyyətindən ölkəyə milyonlarla dollar valyuta daxil olacağını nəzərə alaraq, "Azərbaycan Respublikasında 2019-2022-ci illərdə Yerin peyk vasitəsilə məsafədən müşahidesi xidmətlərinin inkişafına dair Dövlət Proqramı"nın layihəsini hazırlayaraq, dövlət başçısına təqdim etmiş və sənəd ölkə Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq olunmuşdur.

İl ərzində Bakı Gəmiqayırma Zavodunda Xəzər Dəniz Gəmiçiliyinin sifarişi əsasında iki bərə gəmisinin və iki neft tankerinin tikintisi davam etdirilmişdir.

Ölkə rəhbərinin tapşırığı ilə xalçaçılıq sənətinin yenidən təşəkkül tapması və Azərbaycan xalçasının əvvəlki şöhrətinin bərpa olunması istiqamətində əhəmiyyətli işlər görülmüşdür. Ölkənin 11 rayonunda fəaliyyət göstərən xalçaçılıq müəssisələrində il ərzində 5,5 min kvadratmetrdən artıq milli ornamentlərlə zəngin olan xalça toxunmuşdur. Bu müəssisələrin yun iplik üzrə idxaldan asılılığının aradan qaldırılması üçün Sumqayıt Kimya Sənaye Parkında yunəyirici-boyaq fabrikinin inşasına başlanılmışdır.

Hamıya məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əhalinin əsas qida məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə və bu yolla ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə necə böyük əhəmiyyət verir. Buna nail olmaq məqsədilə aqrar sahədə ardıcıl olaraq dövlət dəstəyi tədbirləri davam etdirilmiş, mütərəqqi irriqasiya sistemləri və suvarma şəbəkəsi qurulmuş, 189 min hektardan artıq otlaq sahəsi əkin dövriyyəsinə cəlb olunmuşdur. Eyni zamanda, respublikanın 33 rayonunda 51 aqroparkın yaradılması üzrə intensiv işlər aparılır. Əkin sahələrinin becərilməsində istifadə olunan yanacaq və motor yağlarına, habelə buğda və çəltik səpininə, mineral gübrələrin və pestisidlərin güzəştli şərtlərlə satışına, kənd təsərrüfatı texnikasının eyni qaydada lizinqə verilməsinə və digər tədbirlərin maliyyələşdirilməsinə dövlət büdcəsindən 296 milyon manatdan çox vəsait ayrılmışdır.

Ölkədə baramaçılığın və ipəkçiliyin, çəltikçiliyin, çayçılığın, sitrus meyvəçiliyinin və şərabçılığın inkişafına dair Dövlət proqramları qəbul olunmuş, arıçılıq sahəsində subsidiya müəyyən edilmiş, gübrələrin satış qiymətinə tətbiq edilən güzəştlər artırılmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalçıları güzəştli qiymətlərlə, ümumilikdə 105,6 milyon manat dəyərində müxtəlif təyinatlı mineral gübrələrlə və 3,6 milyon manat dəyərində pestisidlərlə təmin edilmişdir.

Bunlarla yanaşı, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, yeni suvarılacaq torpaqların istifadəyə verilməsi, nasos stansiyalarının, magistral su kanallarının və digər obyektlərin tikintisinin maliyyələşdirilməsi üçün müxtəlif mənbələrdən ümumilikdə 451,5 milyon manat məbləğində vəsait cəlb edilmişdir. Bu vəsait hesabına 568 kilometrdən artıq suvarma kanallarının, kollektor-drenaj şəbəkəsinin tikintisi, yenidən qurulması və bərpası işləri aparılmış, 52 min hektardan artıq sahədə torpaqların su təminatı yaxşılaşdırılmış, 40 min hektardan artıq yeni torpaq sahələrinə suvarma suyunun verilməsi təmin edilmişdir. Əkin və həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 314 subartezian quyusu qazılmışdır.

Yuxarıda qeyd etdiyim irimiqyaslı işlər və icra olunan digər tədbirlər nəticəsində ölkədə əvvəlki illə müqayisədə 4,6 faiz artımla 7 milyard manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir. Burada ixracın həcminin 35,0 faiz artaraq, 590 milyon dollara çatmasını xüsusilə vurğulamaq istərdim.

Nəticə etibarilə bütün bunlar ölkə əhalisinin əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin müsbət dinamikasında öz əksini tapmışdır.

Ölkənin nəqliyyat infrastrukturunun genişləndirilməsi və müasirləşdirilməsi dövlət başçısının apardığı strateji iqtisadi siyasətin prioritet istiqamətlərindən hesab olunur. Bu səbəbdən görülmüş işlərin, həyata keçirilmiş nəhəng layihələrin respublikanın ümumi inkişafındakı rolunu qeyd etmək istərdim. 2018-ci ildə ölkənin avtomobil yollarının tikintisinə və saxlanılmasına 1,7 milyard manat vəsait yönəldilmişdir. İl ərzində ümumi uzunluğu 2 min kilometrdən çox avtomobil yolları tikilmiş və ya təmir olunmuş, 25 yolötürücüsü, 32 körpü və 4 tunel inşa edilmişdir. Diqqətçəkən məqamlardan biri də odur ki, bu yolların 1260 kilometrə yaxını 800 mindən artıq əhalinin yaşadığı kəndlərarası avtomobil yollarıdır. Əhalinin rahatlığı ilə bərabər, bu yollar bölgələrdə sosial infrastrukturun, sahibkarlığın və turizmin inkişafına da öz töhfəsini verərək, iqtisadi canlanmaya zəmin yaratmışdır.

Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin bir hissəsi olan Ələt-Astara-İran İslam Respublikası avtomobil yolunun Astaraya qədər olan hissəsinin tikintisinin tamamlanması da əhəmiyyətli hadisədir.

Hesabat ilində Azərbaycanın dəmir yollarının ümumilikdə 220 kilometrlik hissəsində əsaslı təmir işləri aparılmışdır. O cümlədən Bakı-Böyük-Kəsik dəmir yolu xəttində 82,6 kilometr baş yol əsaslı təmir edilmiş, xaricdən 56 müxtəliftəyinatlı lokomotiv alınaraq ölkəyə gətirilmişdir.

Dövlət başçısının müvafiq tapşırığına uyğun olaraq, regionlarda turizmin inkişafına xidmət edəcək "Ləki-Qəbələ" dəmir yolu layihəsinin birinci mərhələsində artıq 14 kilometr yol çəkilmişdir və hazırda işlər davam etdirilir. Ən yüksək dünya standartlarına cavab verən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Azərbaycanın tranzit ölkə kimi dünyadakı və regiondakı mövqeyinin möhkəmlənməsində əhəmiyyəti böyükdür. Ötən il burada 1,8 milyon ton yük qəbul etmək imkanına malik terminal istismara verilmiş, 2 yedək gəmisi və 6 portal kranı alınaraq, Limanın maddi-texniki bazası daha da gücləndirilmişdir.

Bu gün Xəzər Dəniz Gəmiçiliyinin balansında ümumi yük tutumu 550 min tondan artıq olan 260 gəmi və 11 üzən vasitə vardır. Hesabat ilində 2 təchizat-yedək gəmisi alınmış, 100 sərnişin, 56 vaqon və ya 50 yük maşını tutumlu iki bərə tipli gəminin və iki tankerin tikintisi davam etdirilmişdir.

Respublikanın mülki hava nəqliyyatında sərnişin və yük daşımaları müvafiq olaraq 1,7 və 17,4 faiz artmış, "Embraer-190" tipli 2 yeni hava gəmisi alınaraq, mövcud təyyarə parkı genişləndirilmişdir.

Dövlət büdcəsinin vəsaiti hesabına Bakı Metropoliteninin vaqon parkı genişləndirilmiş, "Sahil" stansiyasının əsaslı təmiri başa çatdırılmış, yeni metro stansiyalarının tikintisi aparılmışdır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və artıq dünyada Azərbaycan brendi kimi tanınan "ASAN xidmət" mərkəzlərinin uğurlu fəaliyyəti bir daha göstərir ki, aparılan sosial siyasətin mərkəzində ölkə vətəndaşının maraqlarının təmin edilməsi və onun problemlərinin həlli dayanır. Bu vəzifələrin yerinə yetirilməsi məqsədilə 2018-ci ildə Mingəçevir, İmişli və Şəki şəhərlərində regional "ASAN xidmət" mərkəzləri tikilərək fəaliyyətə başlamışdır. Bununla da, belə mərkəzlərin sayı ümumilikdə 17-yə, əhaliyə göstərilən xidmətlərin sayı isə 315-ə çatdırılmışdır.

Hörmətli deputatlar, ölkə iqtisadiyyatının inkişafında və əhalinin həyat səviyyəsinin yüksəldilməsində əhəmiyyətli yer tutan regionların sosial-iqtisadi inkişafı üzrə üçüncü Dövlət Proqramının icrası hesabat ilində uğurla tamamlanmışdır. Proqramda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi sayəsində yeni istehsal və emal müəssisələri, sosial obyektlər tikilərək istifadəyə verilmiş, çoxsaylı infrastruktur layihələri reallaşdırılmış, genişmiqyaslı quruculuq və abadlıq işləri aparılmışdır.

Belə ki, 2014-2018-ci illər ərzində regionlarda 1600 kilometrdən artıq respublika, 3100 kilometrdən artıq yerli əhəmiyyətli avtomobil yolları tikilmiş və ya təmir olunmuş, 157 körpü, keçid, tunel və yol qovşağı inşa edilmiş və ya yenidən qurulmuşdur.

Dövlət başçısının şəxsi təşəbbüsü ilə hələ bir neçə il bundan əvvəl əhalinin keyfiyyətli içməli su təminatının yaxşılaşdırılması və kanalizasiya sistemlərinin yenidən qurulması proqramı çərçivəsində ölkənin 61 rayon mərkəzində beynəlxalq maliyyə qurumlarından cəlb edilmiş kreditlər və dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına genişmiqyaslı işlərə başlanılmışdır. Nəticədə 38 şəhərin su təminatı məsələsi öz həllini tapmışdır və hazırda 12 şəhərdə işlər davam etdirilir.

İl ərzində 10 min 590 kilometr elektrik verilişi xətti, 4000 kilometrə qədər müxtəlif gərginlikli kabel xətti, 152 yarımstansiya, 1600-dən artıq transformator məntəqəsi tikilmiş və əsaslı təmir edilmişdir. Eyni zamanda, 27 min kilometrdən artıq qaz xətti çəkilmiş və ya yenidən qurulmuş, 903 yaşayış məntəqəsi qazla təchiz edilmişdir. Bütün bunlar ölkədə qazlaşdırılmanın səviyyəsinin hesabat ilinin sonuna 95,7 faizə çatdırılmasına imkan vermişdir.

Proqram çərçivəsində regionlarda 800-dən artıq məktəb və uşaq bağçası, 130-a yaxın tibb müəssisəsi tikilmiş və yenidən qurulmuş, 300-dən çox yeni telefon stansiyası quraşdırılaraq və rekonstruksiya edilərək istismara verilmiş, 61 poçt binası tikilmişdir.

Təhsil, səhiyyə, turizm, idman və digər sahələrdə əldə edilən nailiyyətləri aparılan uğurlu humanitar siyasətin məntiqi nəticəsi kimi dəyərləndirə bilərik. Təkcə bir faktı qeyd edim ki, dövlət büdcəsindən təhsilin inkişafına yönəldilən xərclər son 15 ildə 8 dəfədən çox artaraq, 2,1 milyard manat təşkil etmişdir.

Dövlət başçısının tapşırığı ilə ucqar kəndlərdə mövcud qəzalı məktəblərin yeni binalarla əvəz edilməsi məqsədilə 8120 yerlik 137 modul tipli məktəb istifadəyə verilmişdir. Ölkə üzrə 5 yaşlı uşaqların 75 faizi məktəbəqədər hazırlığa cəlb olunmuşdur. Humanitar sahədə əvəzsiz xidmətləri olan Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakı şəhərində ali məktəb tələbələri üçün 800 yerlik yataqxana kompleksi inşa edilmişdir. Nazirlər Kabinetinin müvafiq qərarları ilə iri sənaye mərkəzlərində və regionlarda yerləşən peşə təhsili müəssisələrinin bazasında 24 Peşə Təhsil Mərkəzi yaradılaraq, sistemin təkmilləşdirilməsi və səmərəli fəaliyyəti təmin edilmişdir.

Səhiyyənin inkişafında əsas diqqət tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, yeni texnologiyaların, müayinə və müalicə üsullarının geniş tətbiqinə yönəldilmişdir. İl ərzində ən yüksək səviyyədə inşa olunmuş və müasir avadanlıqlarla təchiz edilmiş Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu, Quba rayon və Naftalan şəhər mərkəzi xəstəxanaları istifadəyə verilmiş, 47 tibb müəssisəsində təmir-tikinti işləri aparılmışdır.

Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi, turizmin daha da inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən Dövlət Turizm Agentliyi yaradılmışdır. Görülən tədbirlər və atılan addımlar ölkəyə gələn xarici turistlərin sayının 6 faiz artaraq, 2,8 milyon nəfərə çatmasına əhəmiyyətli təsir göstərmişdir.

2018-ci il gənclərimiz və idmançılarımız üçün də uğurlu il olmuş və sanballı qələbələrlə yadda qalmışdır. Ölkədə 225 yerli, 58 beynəlxalq yarış keçirilmiş, idmanın müxtəlif növləri üzrə yığma komandalarımız 236 beynəlxalq yarışda iştirak etmişdir. Azərbaycan idmançıları dünya, Avropa çempionatlarında, kubok yarışlarında və beynəlxalq turnirlərdə 263-ü qızıl olmaqla, ümumilikdə 753 medal qazanmışlar.

Hesabat ilində ekoloji tarazlığın və bioloji müxtəlifliyin qorunması, təbii sərvətlərdən səmərəli istifadə edilməsi istiqamətində görülən işlər də xüsusi əhəmiyyət kəsb edir. Belə ki, ekoloji durumun yaxşılaşdırılması və mövcud yaşıllıqların qorunub saxlanılması məqsədilə yaşayış məntəqələrinin müfəssəl planı hazırlanarkən, yaşıllıq salınması üçün nəzərdə tutulan sahənin ölçüləri, adambaşına düşən yaşıllıq sahəsi və yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsinin normaları təsdiq edilmiş, yaşıllıqların uçotunun, kadastrının və monitorinqinin aparılması üçün şəffaf mexanizm yaradılmışdır.

⇨ Davamı 11-ci səhifədə

# "Dünyanın yeni xarici siyasəti" Bakıda müzakirə olunur

## VII Qlobal Bakı Forumu yenidən dünya ictimaiyyətinin diqqətini Azərbaycana yönəldib



**55 ölkədən 500-dən çox nümayəndənin iştirak etdiyi, "Dünyanın yeni xarici siyasəti" mövzusuna həsr olunan Forum ölkəmizi növbəti dəfə beynəlxalq humanitar platformaya çevirdi. "Qlobal siyasətin dəyişməsində böyük güclərin rolu", "Davamlı inkişaf çağırışları", "Təhlükəsizlik naminə orta Şərq əməkdaşlığı", "Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu" kimi mühüm məsələlərin müzakirəsinə həsr olunan panellərdə dünyada baş verən hadisələr geniş təhlil olundu. Ölkələr arasında münasibətlərin sülhün təminatına yönəldilməsi üçün vacib şərt olan siyasi və enerji təhlükəsizliyinin təminatına diqqətin artırılması Forumun gündəliyində duran əsas məsələ kimi diqqətdə saxlanıldı.**

İllərin təcrübəsi də göstərir ki, iştirakçıların tərkibinə, tanınmış dövlət başçılarının iştirakına və intellektual potensialına görə Qlobal Bakı forumlarının hər biri beynəlxalq münasibətlərin, dünyanın gələcəyi ilə bağlı narahatlıqların tənzimlənməsi baxımından dəyərlidir.

Qlobal Bakı Forumunun və digər beynəlxalq simpozium və konfransların Bakıda keçirilməsi Cənubi Qafqazın lider dövləti olan, təşəbbüsləri ilə seçilən Azərbaycanın xarici siyasətinin, iqtisadi inkişafının, dünyada sülhün qorunmasında, terrora qarşı mübarizədə göstərdiyi səylərin dəstəklənməsidir.

Ötən ay Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında qarşılıqlı əməkdaşlığın faydasını "Bu gün biz təkcə geriyə baxmaq istəmirik, biz gələcəyə baxmalıyıq. Cənub Qaz Dəhlizi təkcə Avropanın enerji şaxələndirilməsi üçün xüsusi əhəmiyyət kəsb etmir. O, həm də dəhliz boyunca yerləşən ölkələrdə və onların hüdudlarından kənarda dinamik proseslərə start verib. Söhbət təkcə qazdan deyil, daha çox məsələlərdən- qonşuluq və tərəfdaşlıqdan gedir" sözləri ilə bildirən cənab İlham Əliyev Forumda bir daha münasibətlərin sağlam təmələ əsaslanmasının müasir dövrümüz üçün daha vacib olduğunu, bütünlükdə dünyada sülhün təminatına yönəldiyini diqqətə çatdırdı: "Tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə regionumuzda və daha geniş coğrafiyada təhlükəsizlik, sabitlik istiqamətində ölkələrlə yaxın əlaqələrin qurulması Azərbaycanın prioritetlərindən biridir. Ona görə də Azərbaycan sonuncu Forumdan bəri xarici siyasət istiqamətləri ilə bağlı təşəbbüslərini davam etdirib. Düşünürəm ki, biz ənənəvi tərəfdaşlarımızla əlaqələrimizi gücləndirməyə, yeni dostlar qazanmağa, yeni körpülər tikməyə müvəffəq olmuşuq."

Cənab İlham Əliyev Bakı Forumundakı çıxışında vurğuladı ki, dünyada sülhün qorunması qonşularla səmimi, qarşılıqlı əməkdaşlıq münasibətlərindən birbaşa asılıdır. Regional təhlükəsizlikdən , ərazi münaqişələrindən söz açan dövlət başçımız Ermənistanın işğalçılıq siyasətini bölgə üçün təhlükə mənbəyi adlandırdı.

Vurğulandı ki, BMT Təhlükəsizlik Şurası, BMT Baş Assambleyası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Qoşulmama Hərəkatı və digər təşkilatlar tərəfindən qəbul olunan, beynəlxalq hüquqa, ədalətə əsaslanan və münaqişənin sülh yolu ilə həlli üçün hüquqi baza olan qətnamə və qərarları yerinə yetirməyən Ermənistan hələ də status-kvonun saxlanılmasına çalışır. Halbuki ATƏT-in Minsk qrupuna daxil olan ölkə başçılarının dəfələrlə vurğuladıqları kimi status-kvo dəyişməlidir və bunu etmək üçün Ermənistan öz qoşunlarını işğal altında saxladığı Azərbaycan ərazilərindən çıxarmalıdır.

Danışıqların formatını dəyişmək üçün səy göstərən Ermənistan hökumətinin bu istəyinin beynəlxalq hüquqa zidd olduğunu bəyanatla bildirən ATƏT-in Minsk qrupuna daxil olan dövlətlərin başçıları, həmsədrlər, Avropa İttifaqının rəsmiləri işğalçıya açıq mesajla çatdırdılar ki, bu cəhdlər qəbuledilməzdir.

İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan az sayda ölkələrdən sayılan Azərbaycan İslam aləminin ayrılmaz parçası olmaqla Avropa İttifaqının 9 üzv ölkəsi ilə strateji tərəfdaşlıqla bağlı bəyannamələr və razılaşmalar imzalanmışdır. "Biz ötən il Avropa İttifaqı ilə əməkdaşlığımızın bütün əsas sahələrini əhatə edən, tərəfdaşlıq prioritetləri adlanan çox mühüm bir sənədi parafladıq. Bu sənəddə, xüsusilə, Ermənistanla Azərbaycan arasındakı münaqişənin həlli ilə bağlı məqam aydın əksini tapıb. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına tam dəstək ifadə olunur" söyləyən cənab İlham Əliyev Forum iştirakçılarının diqqətinə çatdırdı ki, münaqişənin həllinin yeganə yolu Azərbaycanın dəyişilməz mövqeyini ifadə edən, sadiq qaldığı ərazi bütövlüyümüzün bərpasıdır.

Artıq on ili tamam olan "Bakı Prosesi"nin, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, Dünya Dini Liderlərinin Zirvə Toplantısının, BMT Sivilizasiyalar Alyansının VII Forumunun təşəbbüskarı olan Azərbaycanın mültikulturalizm təcrübəsinin nümunə göstərilməsi ölkəmizin beynəlxalq münasibətlər sistemindəki rolunu daha da möhkəmləndirir.

Prezident İlham Əliyevin "Multikulturalizm Azərbaycanın dövlət siyasətidir. Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Bunun tarixi kökləri var. Əsrlər boyunca Azərbaycan müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub" sözlərini Azərbaycanda bütün dinlərə məxsus xalqların bir ailə kimi yaşaması da təsdiqləyir. Qlobal təhlükəsizlik sahəsində rolu artan, münaqişə bölgələrində sülhyaratma proseslərində əsgər və zabitləri ilə iştirak edən Azərbaycanın təşəbbüsləri ilə reallaşan enerji və nəqliyyat layihələri, bölgədə, bütünlükdə dünyada sülhün qorunmasına xidmət edir.

Müasir dövrümüzün ən başlıca çağırışlarından olan "Hər bir ölkənin iqtisadi müstəqilliyinin əsasını enerji ilə təminat təşkil edir" sözləri qlobal təhlükəsizlik üçün də mühüm əhəmiyyət kəsb edir.

Ölkəmizin təşəbbüsü ilə reallaşan Cənub Qaz Dəhlizinin çəkilişi ilə Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliyanı birləşdirən formatın özü regionun ən böyük infrastruktur layihələrindən olmaqla qlobal təhlükəsizliyə önəmli töhfədir. "Bizim planlarımız bugünkü formatın hüdudlarından kənara çıxır. Biz artıq Bosniya və Herseqovina, Xorvatiya, Monteneqro kimi Balkan ölkələri ilə Anlaşma Memorandumu imzalamışıq" söyləyən cənab İlham Əliyev bildirir ki, Azərbaycan enerji və nəqliyyat sektorlarında Asiya, Qafqaz, Avropa ölkələrini və Avropa İttifaqına üzv ölkələri əhatə edən beynəlxalq əməkdaşlığın aparıcı üzvüdür.

Planetimizin Şərq bölgəsi bu gün də münaqişə ocağı kimi narahatlıq doğurur. Bu cür qlobal forumların keçirilməsi münaqişə ocaqlarında əmin-amanlığın bərpası, miqrant problemlərinin həlli baxımından daha çox əhəmiyyətlidir. Miqrant böhranı demək olar ki, dünyada sülhün təminatına ən böyük təhlükədir. Şəhərləri dağılan yüz minlərlə insanı, canlarını qurtarmaq üçün başqa ölkələrə pənah aparan miqrantları tikanlı məftil, söyüş, təhqirlə qarşılamaq sivilizasiyalararası münasibətlərə, mədəniyyətlərarası dialoqlara böyük zərbə vurur.

Müxtəlif dinlərə, konfessiyalara məxsus xalqların birgəyaşayış formulu, düsturu olan tolerantlığın, multikulturalizmin təbliği ilə dini radikalizmə, terrora qarşı birgə mübarizə qlobal təhlükəsizlik üçün ən kəskin silah, yeganə vasitədir. Təcrübə göstərir ki, dünyanın siyasi xəritəsini dəyişmək istəyində olan qüvvələrin maliyyələşdirdiyi radikal silahlı qüvvələrin törətdikləri terrorlara qarşı birgə mübarizəni gücləndirmədən qlobal təhlükəsizliklə bağlı deyilənlər yalnız tezis olaraq qalacaqdır.

İllərdən bəridir ki, işğaldan, terrordan, separatizmdən əziyyət çəkən, müxtəlif beynəlxalq təşkilatlarda söz sahibi olan, diplomatiyası dəstəklənən, böyük rəğbət qazanan Azərbaycan iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə terrora qarşı mübarizənin vacibliyini aktuallaşdırmaqla, bu sahədə fəal iştiraka, dəstək göstərməyə hazır olduğunu da əməli fəaliyyəti ilə təsdiqləyir. Əfqanıstanda siyasi sabitliyi pozanlara qarşı mübarizə üçün hava məkanından istifadəyə icazə verən Azərbaycan miqrantlara yardım kampaniyalarında da fəal iştirak edir, təbii fəlakətlərdən zərər çəkən ölkələrə maddi-mənəvi dəstək göstərir. Dərin böhran içərisində olan Avropa məkanında həyat üçün təhlükə yaradan problemlərlə üzləşən miqrantların problemlərini dünya ictimaiyyətinə çatdıraraq dəstəyini əsirgəmir, ikili standartlardan yaranan ədalətsizliklərə qarşı barışmaz mövqeyini ən yüksək tribunalardan səsləndirir. Xeyirxah və humanitar layihələrdə iştirak etməklə beynəlxalq aləmdə tolerantlığın təbliği üçün səyini əsirgəmir.

Ötən Forumda "Beləliklə, regiondakı və dünyadakı rolumuzun nədən ibarət olduğunu və həmin nəcib məqsədlərə nail olmaq yolundakı nailiyyətlərimizi qısaca olaraq diqqətinizə çatdırdım. Bir daha qeyd edirəm ki, bizim siyasətimiz əməkdaşlığa, dostluğa və tərəfdaşlığa nail olunmasına yönəlib. Dediyim kimi, müasir Azərbaycanın nailiyyətləri sübut edir ki, biz düzgün yoldayıq" söyləyən dövlət başçımız Azərbaycanın dəstəyi ilə həyata keçirilən enerji, nəqliyyat layihələrini dövlətlərarası münasibətlərin möhkəmlənməsini təmin edən faydalı təşəbbüs kimi qiymətləndirir. Qeyd olunduğu kimi, bizim üstünlüyümüz ondan ibarətdir ki, həmişə öz yolumuzla gedirik, öz siyasətimizi aparırıq, heç kimin sözü ilə oturub-durmuruq. Ona görə bu gün Azərbaycanda inkişaf və sabitlik var.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

## *Vüqar Rəhimzadə:* VII Qlobal Bakı Forumu Azərbaycanın multikulturalizm ənənələrinin uğurlu təqdimatıdır



"Azərbaycan bu gün iqtisadi, siyasi, humanitar mərkəzə çevrilib. Ölkəmizin yerləşdiyi coğrafi məkan xalqlar, dövlətlər arasında birlik, həmrəylik körpüsünün formalaşmasında və möhkəmlənməsində stimulverici amil rolunu şərtləndirir. Bu günün reallıqlarına diqqət yetirdikdə bu mühüm məqam da özünü qabarıq şəkildə büruzə verir ki, bütün səylər təhlükəsizliyin, sabitliyin və proqnozlaşdırmanın, eləcə də xalqlar arasında sülh şəraitində birgə yaşamanın və anlaşmanın möhkəmləndirilməsinə yönəlib". Bu fikirləri YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə VII Qlobal Bakı Forumu ilə bağlı KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, ölkəmizin ənənəvi olaraq Qlobal Bakı Forumuna ev sahibliyi müxtəlif sivilizasiyaları, dinləri bir araya gətirməsindən qaynaqlanır. Forumlar üçün dövrün, zamanın tələbinə uyğun mövzuların seçilməsi, iştirakçıların say tərkibinin ildən-ilə artması və sair kimi mühüm məqamlar Azərbaycan təcrübəsinin önəmini, həmçinin ölkəmizə artan diqqət və marağı ortaya qoyur: "Belə ki, tədbirə 55 ölkədən 500-dən artıq nümayəndə qatılıb. Azərbaycanın beynəlxalq əməkdaşlığa verdiyi töhfələrin çoxşaxəliliyi Forum üçün seçilən "Dünyanın yeni xarici siyasəti" mövzusunda daha geniş müzakirələrin aparılmasına, bu günümüzün əsas tələbi olan beynəlxalq hüququn norma və prinsiplərinə hörmətlə yanaşılıb, bütün dövlətlərə eyni şəkildə tətbiq olunması tələbinə daha geniş aspektdən baxmağa geniş imkanlar açır. Uğurlu daxili və xarici siyasəti sayəsində beynəlxalq münasibətlər sistemində yerini və rolunu möhkəmləndirən, yeni-yeni dostlar qazanan Azərbaycanın istər iki, istərsə də çoxtərəfli çərçivədə əlaqələrinin inkişaf səviyyəsi məmnunluq doğurur. Ən əsası dövlətimizin xarici siyasətinin əsas prinsipi dəyişməzdir- böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı maraq və hörmət əsasında əməkdaşlıq əlaqələri qurulur".

"VII Qlobal Bakı Forumu Azərbaycanın multikulturalizm ənənələrinin uğurlu təqdimatıdır" deyən V.Rəhimzadə diqqəti dövlətimizin başçısı İlham Əliyevin Forumdakı çıxışına yönəldib: "Multikulturalizm Azərbaycanın dövlət siyasətidir" söyləyən cənab Prezidentimiz İlham Əliyev əsaslı şəkildə qeyd edib ki, Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Bunun tarixi kökləri var. Əsrlər boyunca Azərbaycan müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub." Dövlətimizin başçısı Azərbaycanın nümunəsində bu mühüm məqamı da qeyd edib ki, multikulturalizm dünyanı inkişaf etdirməyin, gərginlikləri azaltmağın, əməkdaşlığı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur".

Baş redaktor bildirib ki, 27 ildən artıq müstəqillik tarixinə malik olan Azərbaycana beynəlxalq dəstəyin yüksək səviyyədə olduğu göz önündədir: "Bunun bariz nümunəsi kimi 2011-ci ildə Azərbaycanın 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsini qeyd edə bilərik. VI Qlobal Bakı Forumundan ötən bir ildə Azərbaycanın istər iqtisadi, istərsə də xarici siyasət sahəsində qazandığı uğurlara diqqət yetirsək, bu reallıq təsdiqlənir ki, düşünülmüş, məqsədyönlü və gələcəyə hesablanmış siyasətin uğurları davamlıdır. Azərbaycan sabitləşdirici faktor kimi beynəlxalq aləmdə mövqelərini möhkəmləndirir. Azərbaycanın multikultural dəyərlərin inkişafına töhfələrinin davamlılığı dövlətimizin başçısı cənab İlham Əliyevin Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsindən də aydın şəkildə nəzərə çarpır. 2015-ci ildə ölkəmiz ilk Avropa Oyunlarına, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi. Cənab İlham Əliyevin vurğuladığı kimi, bütün bu addımlar əməkdaşlığa xidmət edir, körpülər salır, müxtəlif ölkələrin və dinlərin təmsilçiləri, fərqli fikirli insanlar arasında daha böyük anlaşmanı təmin edir. Sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir".

V.Rəhimzadə onu da əlavə edib ki, VII Qlobal Bakı Forumunun mövzusu, həmçinin panel iclaslarda müzakirə olunacaq məsələlər bir daha bu ümumiləşdirməni aparmağa əsas verir ki, qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olmaq üçün səylərin birləşdirilməsi əsas amildir: "Əsas olan budur ki, maraqlar ədalət prinsipini üstələməsin. Maraqlar öndə olanda ikili yanaşmalar daha çox nəzərə çarpır ki, bu da qarşıya qoyulan məqsədlərə çatmağa mənfi təsirini göstərir. Dövlətimizin siyasəti əməkdaşlığa, dostluğa və tərəfdaşlığa nail olunmasına yönəlib. Atılan hər bir addımın mərkəzində təbii ki, insan amili dayanır. Gələcək nəsillərə əmin-amanlıq, yüksək rifah bəxş etmək üçün təhlükəsizliyin təminatı, sülhün, əmin-amanlığın qorunması əsas şərtdir. Bu isə öz növbəsində beynəlxalq hüququn norma və prinsiplərinin qorunmasını və vahid tətbiqi mexanizminin müəyyənləşdirilməsini günün əsas tələbinə çevirir. Dövlətimizin başçısı cənab İlham Əliyev Forumdakı çıxışında bu əminliyi ifadə etmişdir ki, məhsuldar müzakirələr və tövsiyələr tərəfdaşlığın güclənməsinə və gərginliklərin azalmasına yol açacaq".

## *Siyavuş Novruzov:* Həm xaricdə, həm də daxildə olan bəzi qüvvələr Azərbaycanda görülən işlərə mane olmağa çalışırlar



2018-ci il Azərbaycan xalqının taleyində əlamətdar il olub. Bu gün bizə təqdim olunan Nazirlər Kabinetinin 2018-ci il üzrə hesabatında müəyyən məsələlərə toxunuldu. 2018-ci ilin hesabatını ilk növbədə Azərbaycan xalqı özü verib. Xalqımızın 2018-ci ildə prezident seçkilərində ulu öndər Heydər Əliyev yoluna səs verərək Prezident İlham Əliyevi dəstəkləməsi artıq 2018-ci ilin hesabatına verilən qiymət idi. Bunu Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov parlamentin ötən gün keçirilən iclasında Nazirlər Kabinetinin 2018-ci ilin hesabatının müzakirəsi zamanı deyib.

O bildirib ki, ötən il prezident seçkilərindən sonra ölkədə həyata keçirilən islahatlara nəzər yetirsək, iqtisadiyyatımızın daha da inkişaf etdiyini, bir sıra sosial problemlərin həll olunduğunu və yeni infrastrukturun yaradıldığını görərik: "Ötən il Nazirlər Kabinetində də böyük islahatlar keçirildi, Nazirlər Kabinetinin tərkibində dəyişiklik edildi. Həmçinin iqtisadiyyatımızın inkişafına, sosial məsələlərin həlli istiqamətində aparılan işə uyğun gəlməyən strukturlar ləğv edildi, zəruri, tələbat olan yeni strukturlar formalaşdı və bu gün də formalaşmaqdadır".

S.Novruzov qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən son aylarda imzalanan sərəncamlar, verilən qərarlar 2019-cu ilin dövlət büdcəsində əvvəlcədən öz əksini tapmışdı: "Həm sosial, həm iqtisadi sahədə, həm də problemli kreditlər məsələləri ilə bağlı atılan addımlar dünyanın heç bir yerində müşahidə edilmir. Azərbaycanda həyata keçirilən bütün işlər əhalinin sosial rifah halının yaxşılaşması üçündür. İnsanlar da bunu başa düşür və öz Prezidentlərini dəstəkləyir, iqtidar-xalq birliyi nümayiş olunur".

Azərbaycanda həyata keçirilən islahatları gözü götürməyənlərin bu islahatlara kölgə salmaq istəməsindən təəssüfləndiyini deyən deputat bildirib ki, həm xaricdə, həm də daxildə olan bəzi qüvvələr görülən işlərə mane olmağa cəhd edirlər: "Bir daha qeyd edirəm ki, həyata keçirilən işlər, atılan addımlar ötən il prezident seçkilərindən sonra aparılan islahatların davamıdır. Bəzi ölkələr Azərbaycanın daxili işlərinə qarışmağa cəhd edirlər. Onların cəhdləri heç bir nəticə verməyəcək".

## Sumqayıtda bayram konserti

Sumqayıtın ictimai və mədəni həyatında yaxından iştirak edən SOCAR-ın "Azərikimya" İstehsalat Birliyinin (İB) təşəbbüsü ilə xalqımızın ən əziz və ən sevimli bayramlarından olan Novruz ərəfəsində çoxsaylı neftçilər ailəsinin - ""Azərikimya"nın, "SOCAR-Polymer" MMC-nin, SOCAR Karbamid zavodunun, "Azəriqaz" İB-nin Sumqayıt Qaz İdarəsinin və Sumqayıtda yaşayan digər əməkdaşlarının, eyni zamanda, şəhər sakinlərinin asudə vaxtlarının və istirahətlərinin səmərəli təşkili məqsədi ilə "Kimyaçı" Mədəniyyət sarayında geniş konsert proqramı təşkil edilib.



Tədbirdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, "Azərikimya" İB-nin baş direktoru İmran Arzumanzadə, eləcə də şəhər ictimaiyyətinin nümayəndələri iştirak edib.

Tədbirdə çıxış edən Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov tədbir iştirakçılarını bayram münasibətilə təbrik edib, şəhərdə həyata keçirilən və bu il həyata keçirilməsi planlaşdırılan layihələrlə bağlı ətraflı məlumat verib.

Vurğulanıb ki, bu bayram konsertini ölkə başçısının böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinin təntənəli şəkildə qeyd olunması, 2019-cu ilin respublikamızda "Nəsimi İli" elan edilməsi, eyni zamanda, Sumqayıt şəhərinin 70 illik yubileyinin qeyd edilməsi haqqındakı Sərəncamına kimyaçıların ən gözəl töhfəsi adlandırmaq olar.

Azərbaycan Dövlət Akademik Filarmoniyasının Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının kollektivinin iştirakı ilə ansamblın solistlərinin ifasında xalq və bəstəkar mahnıları, həmçinin milli rəqslər tamaşaçılar tərəfindən alqışlar və gül-çiçək dəstələri ilə qarşılanıb. Azərbaycanın böyük mütəfəkkir şairi İmadəddin Nəsiminin qəzəllərinin bədii qiraəti və bu qəzəllər üstündə ifa olunan muğamlar da dinləyicilərdə xoş ovqat yaradıb.

Tədbir boyu ölkə Prezidenti cənab İlham Əliyevin Sumqayıta səfərləri, şəhərə göstərdiyi diqqət və qayğı, aparılan abadlıq və quruculuq işləri, yeni sənaye müəssisələrinin yaradılması, nəticə etibarilə Sumqayıtın gözəl bir şəhərə və regionun ən böyük sənaye mərkəzlərindən birinə çevrilməsi diqqətə çatdırılıb.

Sonda ansamblın kollektivi dəvətə görə Sumqayıt Şəhər İcra Hakimiyyətinə və "Azərikimya" İstehsalat Birliyinə, isti və səmimi münasibətə, yüksək dinləmə mədəniyyətinə və alqışlara görə isə tamaşaçılara təşəkkür edib.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

## Vüqar Rəhimzadə:

# Birinci vitse-prezident Mehriban Əliyevanın Fransa səfəri əlaqələrin inkişafına böyük töhfədir

**Xarici siyasətində Avropaya inteqrasiyaya xüsusi önəm verən Azərbaycanın ikitərəfli əməkdaşlıqların inkişafı istiqamətində atdığı addımlara diqqət yetirmək kifayətdir. Qarşılıqlı səfərlər hər bir ölkənin malik olduğu imkanların təqdimatında əhəmiyyətli rol oynayır.**

Təkcə ötən il dövlətimizin başçısı İlham Əliyevin xarici ölkələrə, eyni zamanda, bu və ya digər ölkənin dövlət başçılarının Azərbaycana səfərlərinin say tərkibinə, səfərlər çərçivəsində keçirilən görüşlərə və imzalanan sənədlərə diqqət yetirsək, bu gün Azərbaycanın beynəlxalq münasibətlər sistemində yerini və rolunu aydın görmək mümkündür. Möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsi ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb. Bu, Azərbaycanın Avropa üçün strateji əhəmiyyət daşıyan ölkə olduğunun təsdiqidir.

Bu fikirləri YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə AZƏRTAC-a açıqlamasında bildirib. Avropa İttifaqının aparıcı dövlətlərindən biri kimi Fransa ilə Azərbaycanın münasibətlərinin bugünkü inkişaf səviyyəsinə diqqət yönəldən V.Rəhimzadə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Fransaya səfərini iki ölkə arasında əlaqələrin inkişafında yeni mərhələ kimi dəyərləndirib. Bildirib ki, hər bir səfər ölkə reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasına böyük töhfədir.

V.Rəhimzadə qeyd edib ki, Azərbaycanın iqtisadi əlaqələrinin inkişafı, Fransanın Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində fəallığını artırması və Fransa ilə əlaqələrin inkişafının Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin möhkəmləndirilməsində rolu kimi bir-birindən əhəmiyyətli məsələlər Mehriban xanım Əliyevanın səfər çərçivəsində keçirdiyi görüşlərdə də əsas müzakirə mövzusu olub: "Belə ki, Mehriban xanım Əliyevanın Fransanın birinci xanımı Brijit Makron, Fransa Senatının sədri Jerar Larşe, Fransanın sabiq prezidenti Nikola Sarkozi, Fransa Milli Assambleyasının sədri Rişar Ferran, Fransanın mədəniyyət naziri Frank Riyester, iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə görüşlərinin hər biri özlüyündə Azərbaycan-Fransa münasibətlərinin bu və ya digər sahələrinə işıq salır. Mehriban xanım Əliyevanın səfərinə göstərilən diqqət Azərbaycanın Birinci vitse-prezidentinin simasında ölkəmizə yüksək etimadın bariz nümunəsi kimi qiymətləndirilməlidir".

Baş redaktor bildirib ki, bu gün Azərbaycan-Fransa iqtisadi əlaqələrinin inkişaf səviyyəsi göz önündədir. Fransanın aparıcı şirkətləri ölkəmizdə fəaliyyətlərini daha da genişləndirməkdə maraqlıdır. Ölkəmiz üçün ənənəvi sayılan neft və qaz sektorunda çox güclü əlaqələrimiz var. İcra olunan və icrası davam etdirilən layihələr qarşılıqlı faydalara gətirib çıxarır. Mehriban xanım Əliyevanın Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə görüşündə də bu mühüm məqamlara xüsusi diqqət yönəldilib. Belə ki, Brüno Lömer Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində mühüm rolu olduğunu önə çəkərək, birlikdə işləməyə hazır olduqlarını qeyd edib. Vurğulamışdır ki,



Fransa yeni texnologiyalar sahəsində ölkəmizə töhfələr verə bilər. "Total"ın Azərbaycanda fəal rol oynadığını bildirən fransalı nazir nəqliyyat, kənd təsərrüfatı sahələrində də təcrübələrini bölüşə biləcəklərini qeyd edib. Fransalı nazir Mehriban xanım Əliyevanın səfərinin ikitərəfli əməkdaşlığa böyük töhfə verəcəyinə ümidvar olduğunu diqqətə çatdırıb.

"Təbii ki, hər bir səfərin əhəmiyyətindən bəhs edərkən həqiqətlərimizin təqdimatında nə kimi rola malik olduğu daha çox təhlil edilir. Nəzərə alsaq ki, Fransa BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən, ən əsası ATƏT-in Minsk qrupunun həmsədrlərindən biridir, bu halda Azərbaycanın Birinci vitse-prezidentinin Fransa səfərinin əhəmiyyəti daha aydın görünür",- deyən V.Rəhimzadə bildirib ki, Fransanın yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi ölkəmiz üçün önəmlidir. Mehriban xanım Əliyevanın səfər çərçivəsində keçirdiyi görüşlərdə də Dağlıq Qarabağ probleminə xüsusi diqqət yönəldilib: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə, sülh yolu ilə beynəlxalq hüququn normaları və ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğulayan Mehriban xanım Əliyeva bildirib ki, münaqişənin mövcudluğu bütün regionun inkişafına və təhlükəsizliyinə ciddi təhdiddir".

Baş redaktor vurğulayıb ki, son illər Fransa-Azərbaycan münasibətlərinin inkişaf səviyyəsinə diqqət yetirsək böyük yaxınlaşmanın şahidi olarıq. Dövlətimizin başçısı İlham Əliyevin ötən il reallaşdırdığı Fransa səfəri də bu kimi mühüm məqamların açıqlanmasında və təqdimatında mühüm rol oynayıb. Fransa Prezidenti Emmanuel Makronun Azərbaycana münasibəti ikitərəfli əlaqələrin inkişafı fonunda yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində həllində önəmli faktor kimi dəyərləndirilir.

# Səbail rayonunda çoxmənzilli binanın sakinlərinə çıxarışlar təqdim olunub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" 2019-cu il 19 fevral tarixli Fərmanı ilə istismara qəbul olunmamış, lakin tikintisi başa çatdırılmış 400-ə yaxın binanın sakinlərinin problemlərinin həlli istiqamətində konkret addımlar atılır.**



Fərman istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərinin mənafelərini və Azərbaycan Respublikasının sosialyönümlü dövlət siyasətinin əsasını təşkil edən humanizm prinsiplərini əsas götürərək, həmin binaların istismarına icazə prosedurunu və müddətini optimallaşdırmaq, bu sahədə şəffaflığı və vətəndaş məmnunluğunu təmin etmək məqsədini daşıyır. Bu məsələ 2019-cu il yanvarın 1-dək tikilən, tam təhvil verilən, istismara qəbul edilməyən və faktiki olaraq sakinlərin yaşadıqları binalara şamil olunur.



"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, martın 15-də Bakının Səbail rayonunun Abbasquluzadə küçəsi, 17 ünvanında "İdeal" MTK tərəfindən inşa edilən hündürmərtəbəli, çoxmənzilli binanın sakinlərinə çıxarışların təqdim olunması Prezident İlham Əliyevin məlum Fərmanının icrası istiqamətində atılan növbəti addımdır. Binanın sakinlərinə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən verilən çıxarışlar onların, sözün əsl mənasında, böyük sevincinə səbəb olub.

Mərasimdə iştirak edən Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisinin xidmətinin baş məsləhətçisi Feyruz Mustafayev jurnalistlərə müsahibəsində qeyd edib ki, Prezident İlham Əliyev vətəndaşları narahat edən bütün problemlərin aradan qaldırılması üçün mütəmadi olaraq addımlar atır. Həmin addımlar müxtəlif fərman və sərəncamlarda öz təsdiqini tapır. Bu istiqamətdə görülən işlərdən biri də cari il fevralın 19-da dövlətimizin başçısı tərəfindən imzalanmış Fərmandır. Bu Fərman həm də istismara qəbul olunmayan binaların rəsmi olaraq istismara qəbulunu nəzərdə tutur. Bu gün həmin binalardan beşi artıq rəsmi olaraq istismara verilib. Bu, həmin binaların sakinləri üçün çox yaxşı xəbərdir.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, bu gün çıxarış verilən binada təqribən 561 mənzil var. Bu mənzillərin 50 faizindən çoxu istismar olunur. Fərmanın da əsas məqsədi uzun müddət istismar edilən binalarda vətəndaşlar tərəfindən sənədləşmə prosesinin tamamlanması və rəsmi olaraq dövlət tərəfindən tanınmasıdır.

F.Mustafayev vurğulayıb ki, Əmlak Məsələləri Dövlət Komitəsi həmin Fərmanın icrası əsasən səyyar çıxarış xidməti təşkil edib. Burada vətəndaşların ərizələri qəbul edilir.

Qeyd olunub ki, Fərmanda iki ay ərzində Fövqəladə Hallar Nazirliyi, "Azərişıq" ASC, "Azəriqaz" İB və "Azərsu" ASC tərəfindən yoxlamaların aparılması nəzərdə tutulub. Bu müddət ərzində FHN binaların dayanıqlılığını, lift təsərrüfatının olub-olmamasını və yanğından mühafizə məsələlərini yoxlayır və onlar haqqında rəy tərtib edir. Həmin rəy iki gün ərzində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə və eyni zamanda, yerli icra hakimiyyətlərinə göndərilir. Nəticədə binalar istismara qəbul olunur.

"Ümumilikdə hazırlanan siyahıdakı binalarda 70 minə yaxın istismar edilməyən mənzil var. Həmin mənzillərin 70 faizi artıq məskunlaşıb. Prezident İlham Əliyev tərəfindən həyət evləri ilə bağlı da tapşırıq verilib. Biz hazırda bu məsələləri araşdırırıq", - deyən Prezident Administrasiyasının rəsmisi diqqətə çatdırıb ki, dövlətimizin başçısı vətəndaşları narahat edən problemləri aradan qaldırır. Biz bu məsələlərlə bağlı işçi qrupu yaradaraq yaxın zamanda Prezidentə öz təkliflərimizi verəcəyik.

Tədbirdə iştirak edən Əmlak Məsələləri Dövlət Komitəsinin sədr müavini Rafiq Cəlilov bildirib ki, komitə vətəndaşlardan sənədlərini mobil ofisləri vasitəsilə qəbul edir. Ən qısa zamanda həmin mənzillərin vətəndaşların adına qeydiyyatını keçirib hazır çıxarışları da qısa müddətdə elə bu ünvanda onlara təqdim edəcəyik. Vətəndaşların arzusundan asılı olaraq, çıxarışları elektron şəkildə də hazırlaya bilərik. Biz mobil ofislərimiz vasitəsilə vətəndaşlara yaşadıqları ünvanlarda xidmət göstərəcək və çıxarışları hazırlayıb onlara təqdim edəcəyik.

Binanın sakinləri Əmlak Məsələləri Dövlət Komitəsinin səyyar xidmət avtobusuna daxil olur, qısa zamanda çıxarışlarını alıb dövlətimizin başçısına minnətdarlıqlarını ifadə edirdilər. Vurğulayırdılar ki, çıxarışsız mənzillərdə yaşamaq onlar üçün problemlər yaradırdı. Prezidentimizə minnətdarıq ki, bizim bu çətinliyimizə son qoydu.

*Cəmil Çiçək:*

## Qlobal Bakı Forumunda müzakirə olunan məsələlər dünya ictimaiyyəti üçün çox faydalıdır



Yeddinci Qlobal Bakı Forumunun yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinin rəhbərliyinə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinə və azərbaycanlı qardaşlarımıza dərin minnətdarlığımı bildirirəm. Düşünürəm ki, bu Forumda müzakirə olunan məsələlər dünya ictimaiyyəti üçün çox faydalıdır.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu sözləri VII Qlobal Bakı Forumunda iştirak edən Türkiyə parlamentinin sabiq sədri Cəmil Çiçək jurnalistlərə müsahibəsində deyib.

Cəmil Çiçək bildirib ki, Azərbaycanın beynəlxalq siyasi arenadakı mövqeyini göstərən bu Forum müzakirə olunan məsələlərin əhəmiyyəti baxımından Türkiyə ictimaiyyəti üçün də böyük maraq doğurur. Azərbaycan əvvəlki illərdə də çox mötəbər tədbirlərə ev sahibliyi edib. Bu Forum onlardan biridir və çox uğurla həyata keçirilir.

Azərbaycan və Türkiyənin qardaş dövlətlər olduğunu vurğulayan, ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladan C.Çiçək deyib: "Türkiyə hər zaman Azərbaycanın qazandığı nailiyyətlərə sevinir. Mən müxtəlif tədbirlərdə iştirak etmək üçün Azərbaycanda dəfələrə səfərdə olmuşam. Azərbaycan sürətlə inkişaf edir. Xaricdən gələn qonaqlar bu inkişafı əvvəlki səfərləri ilə müqayisə edərək daha tez görürlər. Mən də Azərbaycanın getdikcə daha da inkişaf etdiyini, gücləndiyini, beynəlxalq müstəvidə nüfuz sahibi olan ölkəyə çevrildiyini görürəm".

*Ekmələddin İhsanoğlu:*

## Azərbaycan mühüm məsələlərin müzakirə olunduğu önəmli məkana çevrilib



Azərbaycan mühüm məsələlərin müzakirə olunduğu önəmli məkana çevrilib. Yeddinci Qlobal Bakı Forumu bunu bir daha təsdiq etdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Forumda iştirak edən İslam Əməkdaşlıq Təşkilatının sabiq baş katibi Ekmələddin İhsanoğlu söyləyib.

E.İhsanoğlu qeyd edib ki, Qlobal Bakı Forumunda beynəlxalq ictimaiyyəti narahat edən məsələlər müzakirə olunur. Bu müzakirələrdə dünyanın müxtəlif ölkələrindən dövlət və hökumət başçıları, sabiq prezidentlər, ictimai-siyasi xadimlər, diplomatlar iştirak edirlər. Bir sözlə, Bakı Forumu qlobal məsələlərin səmərəli müzakirəsi üçün mühüm tədbirdir. Artıq yeddinci ildir keçirilən bu Forumun önəmi ildən-ilə daha da artır.

## Türkiyədə 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar məqalə müsabiqəsi elan olunub

Azərbaycanın Ankaradakı səfirliyi və Türkiyənin Avrasiya Araşdırmalar Mərkəzi (AVİM) 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar birgə elmi məqalə müsabiqəsi elan ediblər.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, müsabiqənin məqsədi ümummilli lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanından irəli gələn məsələlər barədə beynəlxalq elmi ictimaiyyətə daha geniş məlumat verməkdir. Martın 22-dək qəbul ediləcək məqalələr münsiflər heyəti tərəfindən dəyərləndiriləcək və qaliblər mükafatlandırılacaqlar.

*Mariya Zaxarova:*

## Danışıqlar prosesinin formatı tərəflərin razılığı əsasında dəyişdirilə bilər




Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqlar prosesinin formatı tərəflərin razılığı əsasında dəyişdirilə bilər. "İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bu fikri Moskvada keçirilən brifinqdə söyləyib.

O qeyd edib ki, Rusiya, ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi danışıqların formatı barədə öz fikrini dəfələrlə söyləyib: bu format tərəflərin razılığı əsasında dəyişdirilə bilər.

M.Zaxarova deyib: "Əgər tərəflər müəyyən mərhələdə Dağlıq Qarabağın danışıqlarda təmsil olunması barədə razılığa gəlsələr, bu məhz tərəflərin qərarı olacaq və biz həmin qərara hörmət edəcəyik. Bu, təkcə bizim mövqeyimiz deyil. "Üçlüyün" digər üzvlərinin mövqeyi də belədir və mən də tövsiyə etmək istərdim ki, həmsədrlərin 9 mart tarixli sonuncu bəyanatına diqqət yetirilsin, həmin bəyanatda Rusiya, ABŞ və Fransanın bu məsələyə yanaşmaları yetərincə dəqiq əks etdirilib".

# “Qlobal Bakı Forumu mühüm dialoq platformasıdır”



“Qlobal Bakı Forumu istər ölkəmizin, istərsə də sülh və sabitlik istəyən ölkələrin milli maraqları baxımından olduqca mühüm dialoq platformasıdır”. Bunu SİA-ya açıqlamasında “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən Qlobal Bakı Forumu artıq ənənə halını alıb və əgər Latviyanın sabiq Prezidenti, Vayra Vike-Freyberqin ifadəsilə desək, dünya liderlərinin bir növ illik görüş yeri platformasına çevrilib: “Mart ayının 14-də 7-ci Qlobal Bakı Forumu baş tutdu və hər şeydən öncə iştirakçılığın miqyası və iştirakçıların nüfuzu ilə yadda qaldı. Forumda 55 ölkədən 500-dən çox nümayəndə iştirak etdi ki, bu faktın özü özlüyündə bir qiymətləndirmə göstəricisidir. Nəzərə almaq lazımdır ki, onların içərisində 5 hazırkı prezident, 1 hazırkı baş nazir, 2 baş nazirin müavini və 42 sabiq dövlət və hökumət başçısı, görkəmli siyasətçilər, vətəndaş cəmiyyətinin təmsilçiləri, jurnalistlər, alimlər, gənc liderlər var ki, bunlar büynəlxalq və milli səviyyəli aktorlar olmaqla hazırda və keçmişdə dünya siyasətinin formalaşmasında söz sahibi olan insanlar olub. Bu fakt isə əslində forumun beynəlxalq nüfuzunun göstəricisi olmaqla, həm də Azərbaycana olan münasibətin əyani göstəricisidir.

Qlobal Bakı Forumunun builki gündəliyi olduqca aktual bir mövzuya - “Dünyanın yeni xarici siyasəti” mövsuzuna həsr olunmuşdu. Bununla yanaşı plenar iclasdan sonra 10 paneldə bu mövzudan doğan daha bir neçə aktual məsələ müzakirəyə təqdim olundu ki, bunlar da Ortaq Şərqdə təhlükəsizlik məsələlərindən başlamış multikulturalizmə qədər, dayanıqlı inkişaf problemindən başlamış gənc nəslin xarici siyasət perspektivlərinə qədər olduqca geniş beynəlxalq spektri əhatə edir. Göründüyü kimi, Qlobal Bakı Forumu bir növ beyin fırtınası metodu ilə siyasi intellektual müstəvidə dünyanın ən yeni çağırışlarının azad şəkildə müzakirə edildiyi bir platforma rolunu oynayır. Dəyişən qlobal şərtlər içərisində Azərbaycanın xarici siyasət kursunu şərh edən Azərbaycan Prezidenti İlham Əliyev bu siyasəti dünyada baş verən proseslərlə üzvi şəkildə bağlı olan, ancaq bununla belə həm də müstəqil və milli maraqlara əsaslanan xarici siyasət kimi xarakterizə edərək bildirdi ki, Biz Azərbaycanın yeni xarici siyasəti barədə danışa bilmərik. Lakin sözsüz ki, regionda, dünyada vəziyyət dəyişir və biz xarici siyasət təşəbbüslərimizi dəyişən dünyaya uyğunlaşdırırıq. Lakin bizim xarici siyasətimiz əsas etibarilə sabit, proqnozlaşdırıla bilən və müstəqildir. O, bizim milli maraqlarımıza əsaslanır. Tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə regionumuzda və daha geniş coğrafiyada təhlükəsizlik, sabitlik istiqamətində ölkələrlə yaxın əlaqələrin qurulması Azərbaycanın prioritetlərindən biridir. Bu fikirlər Azərbaycanın sülhpərvər siyasətinin bütün dünyaya bir daha bəyan edilməsi idi. Ancaq bu kontekstdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllinə toxunan Prezident İlham Əliyev Azərbaycanın qətiyyətli və əzmkar mövqeyini dilə gətirərək Ermənistanın işğalçılıq siyasətini forum iştirakçılarının diqqətinə təqdim edərək bildirdi ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğalı davam edir. Bu işğal nəticəsində Azərbaycanın tarixi hissəsi olan Dağlıq Qarabağ və ölkəmizin digər 7 rayonu işğal altındadır, bir milyondan çox qaçqın və məcburi köçkün işğaldan əziyyət çəkir. Xalqımız etnik təmizləməyə məruz qalıb. İşğal olunmuş ərazilərdəki bütün tarixi abidələrimiz Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb və bu, işğal olunmuş ərazilərə iki dəfə faktaraşdırıcı missiya göndərmiş ATƏT-in hesabatında öz əksini tapıb. Status-kvo qəbuledilməzdir.

Danışıqları təşkil etmək üçün mandata sahib olan ATƏT-in Minsk qrupu ölkələrinin prezidentləri dəfələrlə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir və biz bunu tam dəstəkləyirik. Status-kvo dəyişməlidir və bunu etmək üçün Ermənistan öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmağa başlamalı, qaçqın və məcburi köçkünlərə öz evlərinə qayıtmağa imkan yaratmalıdır. Bu fikirlər dünyada sülh və dialoq istəyən beynəlxalq mərkəzlər bir çağırış idi. Əgər doğrudan da dünya sülh və sabitlik içində yaşamaq istəyirsə, o zaman ikili standartlar siyasətinə son qoyulmalı, beynəlxalq hüququn tələbləri yerinə yetirməlidir. Məhz bu istiqamətdə Azərbaycan tərəfindən həyata keçirilən çoxsaylı qlobal iqtisadi və təhlükəsizlik layihələri, enerji və kommunikasiya layihələri regonda sabitliyi və əməkdaşlığı təmin etməyə hesablanıb ki, bu da həm Avropanın enerji təhlükəsizliyi, həm də bütövlükdə subregionun ümumi təhlükəsizliyi baxımından olduqca əhəmiyyətlidir. Çoxsaylı faydalı tərəfləri olan Qlobal Bakı Forumu istər ölkəmizin, istərsə də sülh və sabitlik istəyən ölkələrin milli maraqları baxımından mühüm bir dialoq platforması kimi olmaqla bundan sonra da cəlbedici dialoq platforması kimi aktual olaraq qalacaq”.

# Humanist kampaniyalar davam etdirilir

## SOCAR-IN “NEFTQAZELMİTƏDQİQATLAYİHƏ” İNSTİTUTUNUN ƏMƏKDAŞLARI QANVERMƏ AKSİYASINDA FƏAL İŞTİRAK ETDİLƏR

**SOCAR respublikada bir çox layihə və proqramların, humanist aksiyaların ən fəal iştirakçılarındandır. Ölkənin hərtərəfli inkişafında böyük əməyi olan SOCAR hər dəfə həyata keçirdiyi humanitar layihələrlə nəinki neftçilərin, peşəsindən asılı olmayaraq ehtiyacı olan hər bir kəsin qayğısına qaldığını nümayiş etdirir.**



Dövlət Neft Şirkətinin müəssisələrində talassemiyadan əziyyət çəkən uşaqlara humanitar yardımla bağlı Heydər Əliyev Fondunun təşəbbüsü ilə start götürən aksiyalar öz müsbət nəticəsini verməkdədir.



Ötən gün isə SOCAR-ın “Neftqazelmitədqiqatlayihə” İnstitutunda qanvermə aksiyası keçirildi. Səhər saatlarında başlayan aksiyaya bir çox insan qoşulmuşdu. İlk olaraq “Neftqazelmitədqiqatlayihə” İnstitutunun direktoru Fəxrəddin İsmayılov, baş mühəndis-direktorun birinci müavini Fazil Həsənov, ümumi məsələlər üzrə direktor müavini Arif Qədirov qan verdilər.

Aksiya barədə məlumat verən “Neftqazelmitədqiqatlayihə” İnstitutunun ümumi məsələlər üzrə direktor müavini Arif Qədirov qeyd etdi ki, SOCAR-ın bütün idarə və təşkilatları bu aksiyaya qoşulublar. Hər zaman SOCAR tərəfindən təşkil olunan qanvermə aksiyalarında neftçilərin fəallığını vurğulayan A.Qədirov qeyd etdi ki, talassemiyadan əziyyət çəkən uşaqlara humanitar yardımla bağlı Heydər Əliyev Fondunun təşəbbüsü ilə start götürən aksiyalar öz müsbət nəticəsini verməkdədir. A.Qədirov vurğuladı ki, “Neftqazelmitədqiqatlayihə” İnstitutunda keçirilən bu humanist aksiyada isə 150-dən çox neftçi qan verdi.

Tədbirdə Səhiyyə Nazirliyinin B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu Mərkəzi Qan Bankının həkim briqadası donorlara xidmət edirdi.

İnstitutun İqtisadiyyat və Uçot Departamentinin rəisi, baş mühasib Knyaz İbrahimov, İnsan resursları şöbəsinin rəisi Murad İsayev, Məxfi rejim və hərbi səfərbərlik şöbəsinin rəisi Ofelya Hüseynova, institut direktorunun köməkçisi Telman Əlirzayev, Smeta və enerji resursları normativlərinin işlənməsi şöbəsinin rəis müavini Elmira Əliyeva, böyük mühəndis Eldəniz Əmirov, mühəndislərdən Famil Bayramov, Kamilə Məmmədova və digərləri qanvermə aksiyasına fəal qoşularaq bu kimi kampaniyaların davamlı keçirilməsinin vacibliyini vurğuladılar.

**Orxan Vahidoğlu,**
**Vüsal Cahanov (foto),**
***“İki sahil”***

# “Milli mənəvi dəyərlərimiz: ənənə və müasirlik”







**Martın 15-də Bakı Slavyan Universitetində (BSU) Pedaqoji fakültənin və İbtidai təhsil kafedrasının təşkilatçılığı ilə Pedaqoji fakültədə təhsil alan tələbələr üçün “Mill mənəvi dəyərlərimiz: ənənə və müasirlik” mövzusunda Auditoriya + keçirilib.**

Seminarda Bakı Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsinin müəllimi Natəvan Dəmirçioğlu, AMEA-nın Folklor İnstitutunun əməkdaşı İlhamə Qəsabova, polis mayoru Aidə Şirinova, Pedaqoji fakültənin dekanı, professor Flora Naciyeva, dekan müavinləri Nailə Xəndan, Zoya Cəbrayılova, İbtidai təhsil kafedrasının müdiri, dosent Aytəkin Axundova və kafedranın müəllimləri iştirak ediblər.

Seminarın əvvəlində çıxış edən İbtidai təhsil kafedrasının dosenti Şükūfə Ağakişiyeva kafedra tərəfindən tələbələri maarifləndirmə istiqamətində keçirilən seminarlardan söz açıb.

Seminarda iştirak edən BDU-nun Jurnalistika fakültəsinin müəllimi Natəvan Dəmirçioğlu auditoriya qarşısında “Ənənə və tendensiya: milli mənəvi dəyərlərin alınması və ötürülməsi” mövzusunda məruzə oxuyub. N.Dəmirçioğlu gənclərin layiqli vətəndaş və şəxsiyyət kimi formalaşmasında, yüksək əxlaqi normaların ictimai şüura təsirində Azərbaycan xalqının zəngin adət-ənənələrinin, mental dəyərlərinin rolunu önə çəkib, bu ənənələrə müasir yanaşmaya ehtiyac duyulduğunu söyləyib.

AMEA-nın Folklor İnstitutunun əməkdaşı İlhamə Qəsabova “Tarixi-ənənəvi bayram mərasimləri” mövzusunda çıxış edərək zəngin tarixi bayramlarımızın, folklor nümunələrimizin məhz adət və ənənələrimiz hesabına itib-batmadığını, müasir dövrümüzə qədər gəlib çatdığını diqqətə çatdırıb, Novruz bayramı ilə bağlı ənənələrdən söhbət açıb.

BSU-nun İbtidai təhsil kafedrasının dosenti Çimnaz Məmmədova çıxışında “Müasir dövrdə gənclərimizə milli mənəvi dəyərlərimizin aşılanması” mövzusuna toxunub. Ç.Məmmədova qeyd edib ki, Azərbaycanın qədim mənəvi dəyərləri, mədəni irsi xalqımızın fəxr mənbəyi kimi dünya mədəniyyətində sevilib seçilir, bu sahəyə dövlət tərəfindən qayğı, diqqət ilbəil artır.

Çıxışçılar bildiriblər ki, Azərbaycan xalqının milli mənəvi dəyərlər sistemi kifayət qədər zəngindir və xalq onu yüksək tutaraq daim nəsildən-nəsilə ötürür.

Seminar diskussiya şəklində davam edib, tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Nərgiz Nəcəfli**

*Novruz Məmmədov:*

# Azərbaycanın inkişafı, vətəndaşların rifahının yüksək səviyyəyə qaldırılması əsas məqsədimiz olmalıdır

## BAŞ NAZİR NOVRUZ MƏMMƏDOV MİLLİ MƏCLİSDƏ HESABAT VERDİ

⇨ Əvvəli 6-cı səhifədə

İl ərzində ekoloji vəziyyətə və infrastruktura mənfi təsir edən qum-çınqıl yataqlarında qeyri-qanuni fəaliyyət göstərən 97 fiziki və hüquqi şəxs barəsində inzibati tədbirlər görülmüş, təbiətə dəymiş ziyana görə 12,3 milyon manat məbləğində cərimə ödənilmişdir.

Dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018-2022-ci illər üçün Milli Strategiya" təsdiq edilmişdir. İl ərzində Bakı şəhərində 500 min tondan artıq tullantı tədarük olunmuş, onun 494 min tonunun yandırılması nəticəsində 162,2 milyon kilovatsaat elektrik enerjisi istehsal edilmişdir.

Hörmətli deputatlar, son illər ərzində sahibkarlıq fəaliyyətini tənzimləyən normativ hüquqi baza daha da liberallaşdırılmış, sahibkarlara maliyyə dəstəyi mexanizmi təkmilləşdirilmiş, dövlət-sahibkar münasibətləri inkişaf etdirilərək əlverişli rəqabət mühiti yaradılmış, sahibkarlara göstərilən elektron xidmətlərin sayı xeyli çoxalmışdır. Nəticə etibarilə görülən bütün bu işlər özəl sektorun ümumi daxili məhsuldakı payının 84 faizədək yüksəldilməsinə zəmin yaratmışdır.

Ölkə iqtisadiyyatında biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində aparılan davamlı islahatlar sayəsində Dünya Bankı tərəfindən hazırlanan və 190 ölkəni əhatə edən "Doing Business-2019" hesabatında Azərbaycan 32 pillə irəliləmiş, Müstəqil Dövlətlər Birliyi ölkələri arasında isə liderlik mövqeyinə yüksəlmişdir. "Doing Business-2019" hesabatının əhatə etdiyi 10 indikatordan 8-i üzrə öz mövqelərini yaxşılaşdıran ölkəmiz dünyanın ən islahatçı 10 ölkəsi siyahısına daxil edilmişdir.

Hesabat ilində dövlət dəstəyi sisteminin tərkib hissəsi kimi sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə kreditləşdirilməsinə, kənd təsərrüfatı sahəsində çalışanlara subsidiyaların verilməsinə, aqroparkların, biznes-inkubatorların yaradılmasına, ixrac missiyalarının təşkilinə və digər tədbirlərə xüsusi önəm verilmişdir.

Nazirlər Kabinetinin müvafiq qərarları ilə "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları" təsdiq edilmiş, bu sahibkarlıq subyektlərinin qaz təchizatı şəbəkələrinə, su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulması ilə bağlı texniki şərtlərin ödənişsiz verilməsi müəyyənləşdirilmiş, prosedurlar əhəmiyyətli dərəcədə sadələşdirilmişdir.

2018-ci ildə Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına ümumi dəyəri 618 milyon manata yaxın olan layihələrin maliyyələşdirilməsi üçün sahibkarlara 160 milyon manatdan artıq güzəştli kreditlər verilmişdir.

Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədilə sahibkarlara dövlət büdcəsindən 15,0 milyon manat məbləğində ixrac təşviqi ödənilmişdir.

Hörmətli deputatlar, 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkənin hərbi-sənaye potensialının artırılması, ordu quruculuğunun təkmilləşdirilməsi, Silahlı Qüvvələrin müasir döyüş texnikası və silahsursatla təmin edilməsi, şəxsi heyətin döyüş əhval-ruhiyyəsinin yüksəldilməsi istiqamətində məqsədyönlü fəaliyyət aparılmışdır.

Silahlı Qüvvələrin ən yeni hərbi texnika, o cümlədən yüksək dəqiqliyə malik uzaqmənzilli "Polonez" və "Lora" raket sistemləri, ballistik raketlərə qarşı hava hücumundan müdafiə vasitələri, pilotsuz uçuş aparatları, radioelektron mübarizə qurğuları və digər hərbi texnika ilə təchiz edilməsi diqqət mərkəzində olmuşdur.

Ölkənin Silahlı Qüvvələrinin arsenalında olan hərbi texnikanın və döyüş vasitələrinin Bakı şəhərində keçirilmiş iki möhtəşəm hərbi paradda nümayiş etdirilməsi yuxarıda deyilənlərə əyani sübutdur.

Azərbaycan Ordusunun ötən ilin may ayında Naxçıvan Muxtar Respublikasının Şərur rayonundakı uğurlu hərbi əməliyyatı nəticəsində strateji əhəmiyyətli yüksəkliklər ələ keçirilmiş və 1992-ci ildən düşmənin nəzarətində olan Günnüt yaşayış məntəqəsi işğaldan azad edilmişdir.

2018-ci ildə ölkənin müdafiə sənayesi müəssisələrində 1200 adda ümumi məbləği 250 milyon manata yaxın olan məhsul istehsal edilərək, sifarişçilərə təhvil verilmiş, müəssisələrin ixrac imkanları artırılaraq, təxminən 120 milyon manat dəyərində hərbi təyinatlı məhsul ixrac olunmuşdur.

Ötən il Bakı şəhərində 29 ölkədən 250-dən çox rəsmi nümayəndə heyətinin və şirkətin iştirak etdiyi "ADEX-2018" 3-cü Beynəlxalq müdafiə sərgisində müdafiə sənayesinin artan imkanları bir daha nümayiş etdirilmişdir.

Hesabat ilində ümumilikdə müdafiə sahəsinə ayrılan vəsaitin məbləği 526,8 milyon manat artırılaraq, 3,3 milyard manat təşkil etmişdir. Eyni zamanda, Silahlı Qüvvələrə yardım Fonduna il ərzində cəmiyyətin müxtəlif təbəqələri tərəfindən 8,4 milyon manat məbləğində ianələr daxil olmuş və orada toplanan vəsaitin ümumi məbləği 96,8 milyon manata çatmışdır.

Hörmətli deputatlar, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı konseptual xarakterli çıxışında müəyyən etdiyi vəzifələri hökumət özünün fəaliyyət proqramı kimi qəbul edərək, bütün qüvvələrini və imkanlarını bu tapşırıqların icrasına səfərbər etmişdir.

Mərkəzi icra hakimiyyəti orqanlarının və dövlət strukturlarının rəhbərlərinin nəzərinə bir daha çatdırılmışdır ki, qarşıda duran əsas hədəflər Azərbaycan Respublikası Prezidentinin xalqın milli maraqlarına tam cavab verən siyasətinin onun yüksək tələbləri səviyyəsində həyata keçirilməsinə, aparılan çoxşaxəli və sistemli sosial-iqtisadi islahatların daha da dərinləşdirilməsinə nail olmaqdır. Eyni zamanda, ölkə rəhbərinin daim vurğuladığı kimi onun siyasətinin mərkəzində Azərbaycan vətəndaşının və onun sosial rifahının durmadan yüksəldilməsi kimi şərəfli vəzifələrin durduğunu hamı diqqətdə saxlamalıdır.

Təbii ki, Nazirlər Kabinetinin 2018-ci ildəki fəaliyyətini və görülən işləri bir çıxışda tam əhatə etmək mümkün deyildir və ona görə də yığcam şəkildə sizə çatdırmaq istədiyim bunlardan ibarət idi. Bu barədə geniş hesabat isə əvvəlcədən Milli Məclisə təqdim edilmişdir və ümidvaram ki, onunla tanış olmağa imkan tapmısınız və müzakirələrdə fəal iştirak edərək, dəyərli təkliflərinizlə ümumi işimizə öz töhfələrinizi verəcəksiniz.

İmkandan istifadə edib qarşıdan gələn gözəl Novruz bayramı münasibətilə hamınızı səmimi qəlbdən təbrik edir, cansağlığı və xoşbəxtlik arzulayıram. Qoy bu Bahar bayramı ölkəmizə yeni-yeni uğurlar, evlərimizə bol ruzi-bərəkət gətirsin.

Diqqətinizə görə sağ olun".

* * *

Sonra deputatlar hökumətin hesabatına münasibət bildiriblər. Milli Məclis sədrinin müavinləri Bahar Muradova, Valeh Ələsgərov, deputatlar Elçin Quliyev, Elmira Axundova, Fəzail Ağamalı, Arif Rəhimzadə, Siyavuş Novruzov, Fərəc Quliyev, Əli Hüseynli, Əli Məsimli, Tahir Mirkişili, Musa Qasımlı, Kamilə Əliyeva, Rəşad Mahmudov, Jalə Əliyeva, Ağalar Vəliyev, Tahir Kərimli, İsa Həbibbəyli, Şahin İsmayılov, Cavid Osmanov, Tahir Rzayev, Eldar Quliyev, Çingiz Qənizadə qeyd ediblər ki, hesabatda və Baş nazirin bununla bağlı çıxışında hökumətin fəaliyyəti hərtərəfli və əhatəli təqdim olunub. Hökumətin fəaliyyəti yüksək dəyərləndirib. Deputatlar, həmçinin qeyd və təkliflərini hökumət üzvlərinin diqqətinə çatdırıblar.

Daha sonra Baş nazir Novruz Məmmədov çıxış edərək deyib ki, bizim yolumuz Azərbaycan dövlətçiliyinin əbədi olmasıdır. Bu da bizim üçün ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Biz bu yolla getməliyik. Azərbaycanın inkişafı, vətəndaşların rifahının yüksək səviyyəyə qaldırılması əsas məqsədimiz olmalıdır. Düşünürəm ki, bizim hamımız, bütün təsisatlar buna nail olmaq üçün daha səylə çalışmalıdırlar.

Siz çox maraqlı, faydalı təkliflər verdiniz. Bu təkliflərin bir çoxu ilə bağlı artıq iş görülür. Siz görülən işlərlə bağlı vaxtaşırı məlumat alacaqsınız. Bilirsiniz ki, Prezident İlham Əliyev ilin əvvəlindən bəri vətəndaşları narahat edən bir sıra məsələlərin həlli ilə bağlı çox mühüm fərmanlar və sərəncamlar imzalayıb. Siz də çıxışlarınızda bu yöndə bir sıra təkliflər verdiniz. Əlbəttə sizin təklifləriniz də nəzərə alınacaq. Məlumdur ki, Azərbaycanın sürətli inkişaf yolu ilə irəliləməsində Milli Məclisin də böyük rolu vardır. Sizə uğurlar arzu edirəm.

Müzakirələrdən sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci ildə fəaliyyətinə dair illik hesabatı səsə qoyularaq məqbul hesab edilib.

*Ekspert:*

# Qlobal Bakı Forumu ölkəmizin beynəlxalq aləmə verdiyi böyük töhfə kimi qiymətləndirilir

**Azərbaycan paytaxtında növbəti - VII Qlobal Bakı Forumunun keçirilməsi ilk növbədə ölkəmizin beynəlxalq təhlükəsizliyə verdiyi töhfələrin göstəricisidir.**

Bunu Trend-ə açıqlamasında "Səs" Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev "Dünyanın yeni xarici siyasəti" mövzusunda VII Qlobal Bakı Forumunu şərh edərkən deyib.

Onun sözlərinə görə, artıq ənənə halını almış forumda 55 ölkədən 500-dən artıq nümayəndənin, nüfuzlu ictimai-siyasi xadimlərin iştirakı da bu reallığı kifayət qədər sübuta yetirir:

"Dünyanın xarici siyasətində yeniliklər baş verir və cərəyan edən hadisələrin müzakirəsi üçün Qlobal Bakı Forumunun müstəsna rolu var. Həqiqətən də bu gün belə irimiqyaslı tədbirlərin keçirilməsinə ehtiyac var. Əlbəttə, məhz Azərbaycanın dünyanın siyasi arenasındakı yeri və rolunu nəzərə alsaq, bu forum ölkəmizin beynəlxalq aləmə verdiyi böyük töhfə kimi qiymətləndirilir. Bu gün Azərbaycanda olan sabitlik və təhlükəsizlik dünya ölkələri tərəfindən qəbul edilir və dövlətimizin bu istiqamətdəki siyasi modeli nümunə kimi təqdim olunur. Dünyanın aparıcı intellektual şəxsləri bu gün Bakıdakı müzakirələrə qatılır, qarşıda dayanan vəzifələrin, görüləcək işlərin ətrafında zəngin təcrübələrini bölüşür, proqnozlarını irəli sürürlər. Bu gerçəklik isə eyni zamanda sübut edir ki, hər kəs Azərbaycanla əməkdaşlıq etməkdə maraqlıdır".

Siyasi ekspert xatırladıb ki, dövlətimizin başçısı daim öz nitqində Azərbaycanın xarici siyasətinin milli maraqlara xidmət etdiyini vurğulayır: "Bu o deməkdir ki, dövlətimiz bütün hallarda bu amili prioritet olaraq götürür. Bu, çox mühüm bir mesajdır və cənab İlham Əliyevin də qeyd etdiyi kimi, həmin faktor proqnozlaşdırıla bilən, müstəqil və milli maraqlara, tərəfdaşlığa, qarşılıqlı əməkdaşlığa əsaslanan, regionda sabitliyə yönələn siyasətdir. Müstəqil və milli maraqlara söykənən xarici siyasət çərçivəsində tərəfdaşlarla münasibətlərin möhkəmləndirilməsi, yeni münasibətlərin qurulması həm də o deməkdir ki, Azərbaycanla əməkdaşlıq, tərəfdaşlıq edən dövlətlər bizim bu siyasətimizi qəbul edir və dəstəkləyirlər. Belə ki, istər enerji təhlükəsizliyi, istər investisiyaların qoyuluşu, istər nəqliyyat, istərsə də ticarət və s. kimi sahələrdə ölkəmizin yürütdüyü siyasətə, maraqlarına hörmətlə yanaşılır".



B.Quliyev forumda Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və bu münaqişənin nəticələri ilə bağlı fikirlərinə də münasibət bildirərək deyib ki, Ermənistanın danışıqlar prosesindən yayınma cəhdləri işğalçılara heç bir səmərə vermir, əksinə, düşdükləri ağır və böhranlı vəziyyəti daha da ağırlaşdırır:

"Görünən budur ki, Ermənistanın təcavüzkar və işğalçılıq siyasəti bir sıra nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qınanılır. İşğal faktı beynəlxalq təşkilatların beynəlxalq hüquqa əsaslanan qətnamələrinin pozulması deməkdir və status-kvonun qəbuledilməzliyi beynəlxalq təşkilatlar tərəfindən də vurğulanır. Bu, həm də Azərbaycanın beynəlxalq aləmdəki xarici siyasətinin, habelə güclü diplomatiyasının göstəricisidir. Təbii ki, dünyaya yalnız təhlükəsizlik baxımından deyil, həm də multikultural dəyərlərin qorunması və inkişaf etdirilməsi baxımından töhfələr verən Azərbaycan dövləti bu vasitə ilə müxtəlif nöqtələrdə yaşanan gərginliklərin aradan qaldırılması üçün səylərini göstərməkdədir".

Qeyd edək ki, martın 14-də VII Qlobal Bakı Forumu öz işinə başlayıb. Martın 16-na qədər davam edəcək forum Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilir.

Mövzusu "Dünyanın yeni xarici siyasəti" olan VII Qlobal Bakı Forumunda dünyanın 55 ölkəsindən 500-dən artıq nümayəndə, o cümlədən bir sıra ölkələrin hazırkı dövlət və hökumət başçıları, nüfuzlu siyasi, ictimai xadimlər iştirak edirlər.

Forumda dünyanı narahat edən qlobal siyasi və iqtisadi problemlər, müasir beynəlxalq münasibətlərin müxtəlif aspektləri ilə bağlı müzakirələr aparılır.

# *Türkiyənin üç mübarizə istiqaməti:*
# daxili və xarici siyasətin kəsişməsində

**Türkiyədə mart ayının 31-də keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı olaraq daxili siyasi proseslərin inkişaf dinamikası keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Siyasi qüvvələr təbliğatlarını gücləndiriblər. Hakim Ədalət və İnkişaf Partiyası (AKP) ilə müxalifətdən olan Milliyyətçi Hərəkat Partiyası (MHP) "Cümhur ittifaqı"nı yaradıblar. Cümhuriyyət Xalq Partiyası (CHP) başda olmaqla bir neçə partiya "Millət ittifaqı" formalaşdırıblar.**



Türkiyə siyasi dairələrində sonunculara obrazlı olaraq "zillət ittifaqı" da deyilir. Hər bir halda, iki qüvvə arasında mübarizə getdikcə daha da kəskinləşir. Bunun fonunda Türkiyə-ABŞ və Türkiyə-Rusiya münasibətlərinin yenidən aktuallaşması maraq doğurur. Əlavə olaraq, Türkiyə terrorla mübarizəsini bütün gücü ilə davam etdirir. Vurğulanan məqamlar bir yerdə Türkiyənin regional əhəmiyyətini artırmaqla yanaşı, qarşıda həll olunmalı məsələlərin mövcudluğunu da göstərir. Həmin məqamların geosiyasi analizi üzərində dayanmaq ehtiyacını duyuruq.

### Dəyişən situasiya: Ankara üçün həyati məsələlər

Türkiyədə bələdiyyə seçkiləri yaxınlaşdıqca, daxildə siyasi proseslər intensivləşir. Eyni zamanda, Türkiyə ətrafında geosiyasi dinamikanın yeniləşdiyi hiss olunur. Ekspertlər bu iki tendensiya nəticəsində Ankaranın nə kimi vəziyyətlə üzləşə biləcəyi ilə bağlı fikirlər söyləyirlər. Doğrudan da, qardaş ölkə üçün mürəkkəb bir durum yaranıb. Faktiki olaraq, Türkiyə üç cəbhədə tarixi mücadilə verir.

Birinci mübarizə cəbhəsi uzun illərdir ki, Qərblə çox yaxın siyasi, iqtisadi və hərbi əlaqələrdə olan Türkiyənin indi bu kursun nöqsanlı olduğunu anlaması ilə bağlıdır. Bununla əlaqəli ABŞ və Avropadan müəyyən təzyiqlər olur. Daha çox Amerika təhdid etməyə çalışır. Avropa İttifaqı ilə də əvvəlki zamanlarda olduğu kimi müzakirələr aparılmır. Hətta Avropa Parlamenti müzakirələrin təxirə salınması haqqında da qərar qəbul edib. Ayrıca, Fransa və Almaniya ilə bir sıra geosiyasi problemlər ortaya çıxıb.

Türkiyə üçün ikinci mübarizə cəbhəsi ətraf ölkələrdən terror təhlükəsinin hələ də qalmasıdır. Xüsusilə Suriya və İraqda türklərə qarşı hazırlanmış silahlı qruplar mövcuddur. Onlarla savaş qaçılmazdır. Bunun fonunda regionda yerləşən bir sıra dövlətlərin uzaqmənzilli raketlərə sahib olması narahatlıq yaradır. Mütəxəssislərin qənaətinə görə, bəzi qonşu dövlətlər İstanbulu belə vura biləcək raket silahlarına malikdirlər. Bunu neytrallaşdırmaq üçün Türkiyə terrorla mübarizə ilə raket təhlükəsinə qarşı silahlar əldə etmək istiqamətində səylərini birləşdirməyə məcburdur. Bu isə meydana Rusiya faktorunu çıxarır ki, geniş mənada götürdükdə, heç də asan məsələ deyil, çünki Türkiyə NATO üzvüdür və indiyə qədər əsasən amerikan silahları alıb. İndi Vaşinqton nə ölkənin hava hücumundan müdafiə edilməsi üçün "Patriot" raket sistemlərini verir, nə raket hazırlamaq texnologiyasını bölüşür, nə də Türkiyənin Rusiyadan "S-400" zenit-raket komplekslərini alması ilə barışır. Faktiki olaraq, "strateji müttəfiq" Amerika Türkiyəni havadan müdafiəsiz buraxmağa çalışır.

Türkiyənin üçüncü mübarizə cəbhəsi daxili siyasi mühiti sağlamlaşdırmaqla ölkənin suverenliyini təmin etmək və sürətli inkişafına nail olmaqdan ibarətdir. Bu, əslində, daha önəmli bir istiqamətdir. Çünki Türkiyə dövlət kimi həm idarətmənі təkmilləşdirməlidir, həm də sağlam iqtisadi əsaslarla inkişafını sürətləndirib, dünyada söz sahiblərindən birinə çevrilməlidir. Ekspertlərin proqnozlarına görə, Türkiyə 2023-cü ildə dünyanın 10 ən böyük iqtisadiyyatından biri olmalıdır.

Əslində, bu üç istiqamət bir-biri ilə sıx bağlıdır. Və real olaraq Türkiyənin regionda və dünyada geosiyasi mövqeyini müəyyənləşdirir. Bu səbəbdən hər bir istiqamət aktualdır, onlardan hər hansı birinə ikincidərəcəli məsələ kimi baxmaq doğru deyil. Bu aspektdən yanaşdıqda, Türkiyə-Qərb dövlətləri münasibətlərinin geosiyasi kontekstdə daha aktual olduğunu deyə bilərik.

Doğrudan da, konkret olaraq, Amerika və Fransa Türkiyənin əleyhinə addımlar atmaqdadırlar. ABŞ rəhbərliyi Ankaranı təhdid edərək Rusiyadan "S-400" müdafiə sistemlərini almamağı tələb edir. Müxtəlif bəhanələr gətirilir. O cümlədən "S-400" sistemlərinin NATO və "F-35" qırıcıları üçün təhlükə törətdiyi iddia edilir. Bu barədə hətta ABŞ-ın yüksək rütbəli zabitləri fikir bildirirlər. Əslində isə mütəxəssislərə görə, bu, əsassız bir bəhanədir. Çünki ABŞ Norveçə artıq "F-35"ləri verib və Rusiya radarları onları rahatca izləyə bilirlər. Əgər ruslardan təhlükə varsa, Tükiyəsiz də onlar "F-35"ləri öyrənə bilərlər. Konkret olaraq, Yaxın Şərq istiqamətində Rusiya Afrikaya qədər hava sahəsinə nüfuz edə bilir. Suriyada onun bir neçə hərbi bazası vardır. Onlardan İsraildə və Yunanıstanda olan "F-35" qırıcılarını izləmək problem deyil. Deməli, Türkiyəyə qarşı bir bəhanə işə salırlar. Məqsəd nədir?

### Müstəqillik və suverenlik: geosiyasi savaşın işığında

Məqsəd ABŞ-ın qlobal silahlanma yarışında mövqeyini tədricən Rusiya və Çinə verməsi ilə bağlıdır. Əgər NATO-nun ikinci böyük gücü olan Türkiyə əsas olaraq rus silahları alsa, onda ABŞ-ın bazarı daha da kiçilir. Vaşinqton bununla razılaşmır, lakin Türkiyənin təhlükəsizliyinə də saygısız yanaşır. Yəni ancaq onu qane edən şərtlər daxilində Ankaranın müdafiə gücünü artırmasını kobud şəkildə tələb edir. Türkiyə isə buna sərt rədd cavabı verir və bu, həmişə belə olacaq. Amerika Səudiyyə Ərəbistanı kimi ölkələrlə Türkiyəni səhv salıb? Bunu Ankara inamla Vaşinqtona anlatmaqdadır.

Qərbin digər nüfuzlu ölkəsi Fransa isə "erməni soyqırımı" haqqında əsassız qərar qəbul etməklə yanlış mövqe tutub. Emmanuel Makron Türkiyə Prezidentini müzakirələrə çağırır, lakin Türkiyə rəhbərliyi buna getmir. Çünki bu məsələdə müzakirə olunacaq bir məqam yoxdur. Fransanın başlıca problemi Yaxın Şərqdə ABŞ-ı əvəz etməklə bağlıdır. Bu məsələdə onun əsas rəqibi Türkiyədir. Həmin səbəbdən Paris beynəlxalq hüquqa zidd və ədalətsiz qərarlar qəbul edir. Bu isə, heç şübhəsiz, Türkiyə-Aİ münasibətlərinə zərbə vurur.

Bu proseslərin fonunda Türkiyə-Rusiya münasibətləri də aktuallıq kəsb edir. Son dövrlərdə Ankara ilə Moskvanın əməkdaşlığının strateji səviyyəyə yüksəldiyindən bəhs edirlər. Həqiqətən, iki ölkə arasında əlaqələr sürətlə inkişaf edir. Rusiya Türkiyə ilə iqtisadi-ticari sferadan başqa, hərbi-müdafiə sahəsində də əməkdaşlığı inkişaf etdirir. İki böyük dövlət arasında çox sayda müqavilə imzalanıb. Onların daha da artması gözlənilir. Suriyada Ankara-Moskva əməkdaşlığının verdiyi bəhrələr də göz qabağındadır. Ekspertlərin rəyinə görə, əməkdaşlıq daha da inkişaf edəcək. Hərbi sahədə də yeni addımlar atıla bilər. Yaxın zamanlarda iki ölkənin rəhbərləri yüksək səviyyəli strateji tərəfdaşlıq məsələsini növbəti dəfə müzakirə edəcəklər və sənədlərin imzalanması gözlənilir. Deməli, Türkiyə artıq tam müstəqil siyasət yeridir və öz milli maraqlarına uyğun addımlar atır.

Bunların fonunda Türkiyənin terrorla mübarizəni daha da gücləndirəcəyi qənaəti yaranır. Prezident Rəcəb Tayyib Ərdoğan son çıxışlarının birində bir daha bəyan edib ki, Suriyanın şimalı terrorçulardan tamamilə təmizlənəcək və burada Türkiyənin maraqlarına uyğun təhlükəsizlik zolağı yaradılacaq. Bunun üçün Ankara hərbi əməliyyatlar keçirməyə hazırdır. Ölkə rəhbərliyi uyğun zamanı gözləyir. Ölkə daxilində isə terrorçuların demək olar ki, bütün qaynaqları qurudulub. Onlar artıq hansısa aksiya həyata keçirə bilmirlər. Üstəlik, türk ordusu ölkə xaricində terrorçularla mübarizə aparır. PKK və FETÖ çökdürülür. Konkret ifadə etsək, Türkiyə terrorla mübarizədə uğurlar əldə edir və bu, onun beynəlxalq nüfuzunu daha da artırır.

Yuxarıda vurğuladığımız məqamların işığında Türkiyənin daxili inkişafının nə dərəcədə önəmli olduğu aydın görünür. Bu baxımdan qarşıda duran seçki də strateji əhəmiyyət kəsb edir. Hazırda siyasi qüvvələr arasında gərgin mübarizə gedir. Bu mübarizənin nəticəsindən asılı olaraq Türkiyə ya müstəqil və milli inkişaf xəttini davam etdirəcək, ya da öncəki mərhələlərdə olduğu kimi Qərbin təsiri altında mövcud olmağa çalışacaq. Bunlardan hansı xəttin qalib gəlməsindən asılı olaraq Türkiyə apardığı mübarizə istiqamətlərində mövqeyini konkretləşdirəcək.

Əlbəttə, Türkiyədə milli inkişaf tərəfdarlarının qalib gəlməsi daha uyğundur və hətta bundan başqa yol yoxdur. Türk dövlətləri üçün də bu variant sərfəlidir. Türkiyə nə qədər güclü olsa, digər türk dövlətləri də bir o qədər güclü olar. Eynilə Azərbaycanın uğuru Türkiyənin uğuru olduğu kimi, Türkiyənin də uğuru Azərbaycanın uğurudur.

Müstəqil və suveren dövlət olub, regionda və dünyada sülh uğrunda daha səmərəli mübarizə aparmaq Bakı və Ankaranın ortaq maraqlarıdır. Bu dövlətlər kimsəyə zərər verməz. Əksinə, ədalətsizliyə və haqsızlığa qarşı mübarizə aparırlar. Bu baxımdan Türkiyənin daha da güclənməsi və müstəqil siyasət yeritməsi bütün regionun xeyrinədir, əməkdaşlığa daha geniş imkanların yaranması deməkdir.

**Newtimes.az**

# Dağlar qartalı



Dağlar diyarının dağ vüqarlı oğlu Lətif həyatı dərk edən gündən bütün əşqini, məhəbbətini vətəninə, xalqına verir. O, orta məktəbi bitirəndə yüksək əxlaqı, böyük ürəyi ilə elobanı özünə valeh edir. Nəcib, xeyirxah arzu və amalla gələcəyə qədəm qoyan Lətif bir il halal zəhmətdən yapışır. Sadəlik, yaxşılıq, doğruluq bütün fəaliyyətinin mayasında durur. Bu müddət ərzində dünyaya göz açdığı Züvüç kəndində ülfətli, iradəli, mənəviyyatlı gənc kimi fəal mövqe sahibi olur. Özünün cəmiyyət üçün dəyərli, lazımlı olduğunu biləndə daha da doğma torpağa ürəkdən bağlanır. Elində yaxşı günün sirdaşı, dar günün qardaşı olur. İnsanlarda əsl övlad məhəbbət görür və özünə qarşı bu ürək sevgisini hər yerdə, həmişə ucadan-uca tutur...

Hər bir qeyrətli Vətən övladı kimi ermənilərin Qarabağda yaratdığı qanlı-qadalı günlər Lətif Xeyrulla oğlu Ağayevi də narahat edir. 1992-ci ildə Milli Ordu sıralarına hərbi xidmətə çağırılır. Üç ay Hacıqabul rayonunda yerləşən Daxili Qoşunların hissəsində təlim keçir. Sonra birbaşa döyüş bölgəsinə gedir. Ən təhlükəli nöqtələrdə düşmənə qan uddurur. Erməni dığalarına qarşı amansızlığı ilə tanınır. Cəsurluğu, igidliyi hesabına döyüşçü yoldaşlarının nüfuz və hörmətini qazanır. Ağdam, Ağdərə uğrunda gedən döyüşlərdə Azərbaycan millətinin başını zaman-zaman uca edə biləcək hünər göstərir. Bütün bunlara görə dostları onu "Dağlar qartalı" deyə çağırırlar.

Hər zaman Vətən torpağı uğrunda canından keçməyə hazır olan Lətif müqəddəs şəhidlik zirvəsinə Ağdərə döyüşündə ucalır. Belə ki, 1993-cü il martın 9-da ürəyi düşmən gülləsinə hədəf olur.

Bu gün artıq qeyrətli Vətən oğlunun ölümündən 26 il keçir. Leriklilər özlərinin Vətən sevdalı övladını bir an belə unutmur, Lətifi xatırlamaqla onun kimi doğma yurduna, elinə qeyrətdən səngər qala olurlar.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# "NƏSİMİ İLİ":

# Azərbaycanın zəngin tarixi-mədəni irsinin təbliğinə böyük töhfə



Keçmişini unutmayan, bu günü ilə qürur duyan, gələcəyə böyük inamla baxan xalqlar daim tarixin sərt sınaqlarından üzüağ çıxır, davamlı inkişafı ilə diqqət mərkəzində olur. Azərbaycan xalqı bu gün təsadüfən dünyanın 10 xoşbəxt ölkəsi sırasında yer almayıb. Zəngin tarixə, mədəniyyətə, ədəbiyyata, milli mənəvi dəyərlərə malik olan xalqımız bütün dövrlərdə tarixinə sahib çıxmış, onu parlaq səhifələri ilə daha da zənginləşdirməyə səy göstərmişdir. Müasir Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövrünə nəzər salsaq, bu mühüm məqamın şahidi olarıq. O, daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxararaq, bu gün hər sahədə təcrübəsi nümunə olan, beynəlxalq maliyyə qurumlarının hesabatlarında birinciliyini qoruyan ölkəmiz üçün möhkəm baza formalaşdırıb. Nəzərə alsaq ki, hər bir xalqın varlığı, milli kimliyi ilk növbədə milli mənəvi dəyərlərində ehtiva olunur, bu halda ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ilk görüşünü məhz ziyalılarla keçirməsinin də nə qədər böyük əhəmiyyətə malik, bu günümüzə və gələcəyimizə hesablanmış mühüm addım olduğunu daha dərindən dərk edə bilərik.

Ümummilli Lider tariximizə sahib çıxmağı, tariximizin saxtalaşdırılmasına yol verməməyi qarşıya mühüm vəzifə kimi qoymuşdur. Onun milli-mənəvi, dini dəyərlərimizin, dilimizin qorunması, tariximizin öyrənilməsi və gələcək nəsillərə çatdırılması yönümündə atdığı davamlı addımların miqyası genişdir. Dahi şəxsiyyət, eyni zamanda, gənclərə bu çağırışı edirdi ki, tariximizi yaxşı öyrənin, dilimizi, milli mənəvi dəyərlərimizi qoruyun. Ulu Öndərin 2001-ci il 18 iyun tarixli "Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", 2001-ci il 9 avqust tarixli "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanları, eyni zamanda milli mənəvi dəyərlərimizin qorunmasına xidmət edən 2001-ci il 13 avqust bəyanatı da deyilənlərin təsdiqidir. Gənc nəslin milli ruhda tərbiyə olunmasının prioritetliyi bütün dövrlərdə atılan addımlardan aydın görünür.

Son 15 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev 2011-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında bu kimi məsələlərə ayrı-ayrılıqda diqqət yönəldərək konkret tapşırıqlarını vermişdir. "Müstəqillikdən əvvəl bizi millət kimi qoruyub saxlayan milli dəyərlərimiz, milli ənənələrimiz, ana dilimiz, ədəbiyyatımız, musiqimiz olub" söyləyən dövlətimizin başçısı qeyd etmişdir ki, bu sahəyə dövlət tərəfindən daim diqqət göstərilir:

"Ana dilimizə hörmət və qayğı daimi olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz - Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir." Cənab İlham Əliyevin ötən il imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı da məhz bu məqsədə xidmət edir.

Sirr deyil ki, müasir Azərbaycan dili mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malikdir. Bununla yanaşı, dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər geniş yayılmışdır. Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi də inkaredilməz həqiqətlərdir. Bu gerçəkliklər dövlətimizin başçısının məlum fərmanında da öz əksini tapıb ki, mövcud sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin olmaması dil pozuntularının azaldılması və aradan qaldırılması istiqamətində təsirli tədbirlər görməyə imkan vermir. Məhz bu problemlərin həlli məqsədilə imzalanan sənədə əsasən dövlət dilinin tətbiqinə nəzarət, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edən, dövlət büdcəsindən maliyyələşən "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" publik hüquqi şəxs yaradıldı.

Dövlətimizin başçısı AMEA-nın illik ümumi yığıncağında ədəbiyyat üzrə araşdırmaların da davam etdirilməsinin vacibliyini diqqətə çatdırmışdır: "Çünki ədəbiyyatımız dünya ədəbiyyatının inkişafında çox böyük rol oynamışdır. Biz haqlı olaraq bu barədə qürur hissi ilə danışa bilərik." Cənab İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin "Nəsimi ili" elan edilməsində də məqsəd Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini təbliğ etmək, gənc nəslə çatdırmaqdır. Əvvəldə də qeyd etdiyimiz kimi, bu ənənələrin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Məhz onun mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır. Dahi klassiklərimiz Ü.Hacıbəylinin, M.Maqomayevin, S.Vurğunun, C.Cabbarlının, M.S.Ordubadinin, Aşıq Ələsgərin yubileyləri məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə keçirilib, bəzilərinin ev-muzeyləri yaradılıb. Hazırda həmin ev-muzeylərində Azərbaycan xalqının dahi şəxsiyyətlərinin zəngin irsi və yaradıcılığı geniş tədqiq və təbliğ edilir. Dövlətimizin başçısı İlham Əliyevin 2019-cu il "Nəsimi ili" elan etməsi Ulu Öndərin bu istiqamətdə gördüyü işlərin uğurlu davamıdır. Azərbaycan poetik dilinin inkişafına böyük təsiri olan İmadəddin Nəsimi öz yaradıcılığı ilə mübarizliyi, sülhü, tolerantlığı və multikulturalizmi təbliğ edib. Onun bədii yaradıcılığının Azərbaycan dilinin tarixi inkişafının öyrənilməsində, ədəbiyyatının təkmilləşməsində müstəsna rolu var. Ölkə Prezidentinin məlum Sərəncamı dahi şairin yaradıcılığının bütün istiqamətlərinə işıq salır. Ulu öndər Heydər Əliyev dünya təcrübəsinə istinadən bildirirdi ki, yubileylərin keçirilməsi bir tərəfdən yubilyarın xalq, ölkə, dünya qarşısında xidmətlərini bir daha təbliğ və nümayiş etdirmək, digər tərəfdən müasir nəslin ona bəslədiyi hörmət və ehtiramı bildirmək deməkdir. İmadəddin Nəsiminin adı həqiqət naminə, fikir azadlığı yolunda qəhrəmanlığın rəmzi kimi əbədiləşib, əsrlərdən bəri Şərq xalqlarının yaddaşında yaşamaqdadır. 650 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması Azərbaycanın zəngin tarixi-mədəni irsinin təbliğinə çox böyük töhfədir.

Tariximizin öyrənilməsi, indiki və gələcək nəslə çatdırılması da prioritet məsələlərdəndir. "Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Çünki bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, təhrif olunur.

"Azərbaycan xalqı aciz deyil, onun qəhrəmanlıqla dolu keçmişi var" söyləyən ulu öndər Heydər Əliyevin bu çağırışı bütün dövrlər üçün öz aktuallığını qorumalıdır: "Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın."

**Yeganə Əliyeva,**
***"İki sahil"***

---

*"Nadanlıq ən böyük təhlükədir.*

**Hz. Əli (ə.s)**

*"Nadanlar arasında haqqı bəyan edən hər kimsə həlak olar.*

**Hz. Əli (ə.s)**

*"...indi müstəqil Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq öz xalqının, millətinin qədim zamanlardan indiyədək olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə, o, həqiqətən vətənpərvər ola bilməz. Əgər bunu bilməsə, o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə, o öz millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz!.."*

**Ümummilli lider Heydər Əliyev**

*"...Mənim çalışdığım budur ki, müasir Azərbaycan gəncliyi V.Şekspri ingiliscə, L.Tolstoyu rusca və Nizami Gəncəvini azərbaycanca oxusunlar... Onda dövlətimizin müstəqilliyi daha möhkəm və davamlı olacaqdır..."*

**Ümummilli lider Heydər Əliyev**

*"...Bizim gənc nəslimiz milli ruhda tərbiyə olunmalıdır. Ancaq bu halda Azərbaycan əbədi müstəqillik yolu ilə gedə bilər..."*

**Prezident İlham Əliyev**

## Gənclər, sözüm sizədir!

Müasir texnika əsrindəyik biz
Oxuyub yazırıq kitab, qələmsiz...
Ayrıldıq "Əxlaqi-nasir"imizdən,
Köhnəldi ruhumuz mütaliəsiz!

* * *

Ədəbiyyat ruhu formalaşdırır,
Milli ruh yaradır Vətən sevgisi.
Öz dilin bilməyən yüz dil bilsə də
Xalqına yaramaz onun bilgisi.

* * *

Nizami, Fizuli milli ruh verir,
Tolstoy, Şekspir zənginləşdirir.
Milli ruhsuz olan zənginliklərin,
Səni yadlaşdırır, özgələşdirir.

* * *

Azərbaycan gənci, mütaliə et!
Öyrən keçmişini, tarixini sən...
Vətənin uğrunda mübarizədə,
Elmlə düşmənə qalib gələrsən!

* * *

Baxın, öz kökünə balta vuranlar,
Harda təhsil alıb, kimlərdir onlar?
"Aldıqları təhsil" müqabilində,
Vətənə xəyanət yolun tutublar.

* * *

Bilməsən kimlərlə, necə vuruşub,
Ulu babaların, peyğəmbərlərin...
Necə gəlib çıxam bu xoş günə sən,
Qədrini bilməzsən Ulu Öndərin!

* * *

Nadanlıq ən böyük təhlükədir, məhz
Nadanlıq da doğur savadsızlıqdan!
Savadsız insan da özün tanımaz
Nadan tək qurtulmaz düşmən torundan!

* * *

Əgər düşmən səni tərifləyirsə,
Deməк, səhv etmisən, dön geri bax sən!..
Çaqqalları sənə hürdürürlərsə,
Deməli, çəkmisən düşmənə dağ sən!

* * *

Oddan od törəyər, deyib atalar...
Heydər oğlu İlham Vətən oğludur!
Sarsılmaz gücünü xalqından alır,
Çünki onun yolu öndər yoludur!

* * *

Balaca ölkədə rəhbər olsa da,
Dünya liderləri sırasındadır!
O, Tanrının bizə verdiyi paydır...
Mələk tək xalqının xilasındadır!

* * *

Dünyaya günəş tək doğan ölkəmiz,
Düşmən qüvvələrin hədəfindədir!..
O doğan günəşin əbədiliyi
Xalqın, məhz, onunla birliyindədir.
Gənclər, sözüm sizədir!

**Həsən Şirinov**

# Sərmayədarları Azərbaycana cəlb edən hansı amillərdir?

## İNVESTİSİYA MÜHİTİNİN YAXŞILAŞMASINA GÖRƏ DÜNYADA 35-ci, ASİYADA 3-cü, MDB-də 1-ci YERİ TUTMAQ BÖYÜK İQTİSADİ UĞURDUR

**Bu gün Azərbaycan dövlətinin investisiya mühitinin daha da şəffaflaşması və genişlənməsi üçün dünyanın ən qabaqcıl təcrübələrinə istinad etməklə xarici investisiyanın əhatə dairəsinin genişlənməsi və onun şaxələndirilməsi üçün “açıq qapı” siyasəti yürüdür.**

Qeyd edək ki, normal investisiya mühitinin formalaşması üçün ilk növbədə Azərbaycan dövlətinin qanunvericilik bazası zənginləşdirilir. Yəni, ölkəmizdə investorların hüquq və mənafelərinin qorunması, onların mülkiyyətinin toxunulmazlığı, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılması əsas prinsip kimi dəyərləndirilir. Bu mənada, İqtisadiyyat Nazirliyi yanında Apelyasiya şuralarının təşkili, “İnvestisiya fəaliyyəti haqqında”, “Xarici investisiyaların qorunması haqqında”, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının qanunları və bir sıra normativ sənədlər məhz investorların mənafeyinə xidmət edir.

Bundan başqa, Azərbaycan Prezidentinin “Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında” 19 oktyabr 2015-ci il tarixli Fərmanına əsasən lisenziyaların “ASAN xidmət” mərkəzləri vasitəsilə verilməsinə başlanılmışdır.

Eyni zamanda, ölkə başçısının 21 dekabr 2015-ci il tarixli “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında” Fərmanına uyğun olaraq lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, 2018-ci ildə isə bu rəqəm 16-ya endirilmişdi.

Burada müddətli və müddətsiz lisenziyaların rüsum haqları 2 dəfəyədək, hətta regionlar üzrə 4 dəfəyədək azaldılıb. Eyni zamanda, lisenziya verən dövlət orqanlarının sayı 23-dən 4-ə, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə endirilmiş, lisenziya verilməsi üçün tələb olunan prosedurlar isə daha da sadələşdirilmişdir.

Dövlətimiz investorların maraq və mənafeyinin qorunması prosedurlarının sadələşdirilməsi ilə kifayətlənməyərək, bununla bərabər onlara gömrük və vergi sistemində də ciddi güzəştlər tətbiq etmişdir. Belə ki, Azərbaycan Prezidentinin 2016-cı il 18 yanvar tarixli Fərmanı ilə “İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası” təsdiq edilməklə hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq olaraq mənfəət və gəlirin 50 faizinin vergisini, müvafiq əmlakına görə əmlak vergisini və mülkiyyətində və ya istifadəsində olan torpaqlara görə torpaq vergisini, həmçinin onların idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular üzrə idxalda əlavə dəyər vergisini ödəməkdən 7 il müddətinə azad edilmişlər.



Eyni zamanda, “Gömrük tarifi haqqında” Qanunda edilmiş dəyişikliklərə əsasən, investisiya təşviqi sənədinə sahib olmuş hüquqi və fiziki şəxslər, o cümlədən sənaye parklarının rezidentləri tərəfindən texnika və qurğuların idxalı 7 il müddətinə idxal rüsumlarından azad edilmişlər.

Bundan başqa, “Qeyri-neft ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” Prezident Fərmanına əsasən, qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac gömrük bəyannaməsində nəzərdə tutulan dəyərin 3 faizi həcmində ixrac təşviqi ödənilir.

Gömrük və vergi orqanlarında tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, gömrük orqanlarına əvvəlcədən elektron formada qısa idxal bəyannaməsini təqdim etmək yolu ilə malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz” və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sisteminin yaradılması həyata keçirilmişdir.

Məhz bu kimi innovativ islahatların nəticəsidir ki, beynəlxalq təşkilatların hesabatlarında sahibkarlığa dəstək və sərmayə mühitinin yaxşılaşdırılması indeksinə görə xeyli irəliləmişik. Yəni, Dünya Bankının “Doing Business 2018” hesabatında 8 pillə irəliləyən Azərbaycan 190 ölkə arasında 57-ci yerə yüksəlib, Avropa və Mərkəzi Asiyada islahat aparan 3 ölkədən biri olub. Həmçinin Dünya İqtisadi Forumu tərəfindən nəşr olunan və rəqabətqabiliyyətlilik üzrə ən geniş qiymətləndirmə hesab olunan “Qlobal Rəqabətlilik Hesabatı”nda ölkəmizin mövqeyi ötənil daha 2 pillə yaxşılaşaraq 35-ci yerə yüksəlib. Ən başlıcası isə, bu istiqamətdə ölkəmiz 2009-cu ildən MDB məkanındakı liderliyini əldən vermir.

✍ **Elçin Zaman,**
***“İki sahil”***

---

### YAPON ŞİRKƏTİ İNDONEZİYADA HASİLATA BAŞLAYACAQ



Yaponiyanın “Japex” neft kəşfiyyatı şirkəti İndoneziyada “Kangean” blokunda “TSB” qaz kompleksində “Sirasun” və “Batur” qaz yataqlarında da hasilata başlayıb.

“Japex” 2012-ci ildən “Kangean” blokunda işlərə başlayıb.

“Sirasun” və “Batur” yataqlarından yerli müştərilərə sabit şəkildə uzun müddət təbii qaz ötürüləcək.

Layihədə “Japex”in şəriki 25% payla “Mitsubishi” şirkətidir.

### 34 MİLYARD DOLLAR SƏRMAYƏYƏ EHTİYAC VAR



Rumıniyanın enerji sektorunda enerji, neft, qaz və mədən sahələrinə və digər əlaqəli infrastruktura 2030-cu ilədək 34 milyard dollar investisiya tələb olunur. Ölkənin yeni enerji strategiyasının hazırlanmış qaralama versiyasında belə göstərilib.

Orada bildirilir ki, artan enerji tələbatını təmin etmək üçün köhnəlmiş emal zavodlarının yeniləri ilə əvəz olunması vacibdir.

Rumıniya neft idxal etməsinə və qaz tələbatının 10 %-ni digər dövlətlərdən almasına baxmayaraq, Avropa Birliyinin enerji cəhətdən ən təminatlı ölkələrindən biri hesab edilir.

Hazırda Rumıniyanın enerji nazirliyinin 2019-2030-cu illər üçün hazırladığı enerji strategiyası baxılmaq üçün ölkə hökumətinə təqdim olunub.

---

# *Politoloq:* Bakı Forumu mühüm beynəlxalq platformaya çevrilib

Xəbər verildiyi kimi, martın 14-də Azərbaycanın paytaxtında “Dünyanın yeni xarici siyasəti” mövzusunda VII Qlobal Bakı Forumu işə başlayıb. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən və üç gün davam edəcək bu mötəbər tədbirə 55 ölkədən 500-dən artıq nümayəndə qatılıb. Forumda o cümlədən bir sıra ölkələrin hazırkı dövlət və hökumət başçıları, nüfuzlu siyasi, ictimai xadimlər iştirak edirlər. Bakı Forumu çərçivəsində keçiriləcək 10 sessiyada qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək.

Azərbaycanın artıq 7-ci ildir ki, ev sahibliyi etdiyi Qlobal Bakı Forumunun əhəmiyyəti haqqında danışan politoloq Fikrət Sadıqov qəzetimizə açıqlamasında bildirdi ki, paytaxtımız bir sıra beynəlxalq təşkilatların forumlarının, konfranslarının və digər tədbirlərinin həm təşəbbüscüsünə, həm də mərkəzinə çevrilib: “Bu gün bütün dünyada Azərbaycanla hesablaşırlar. Bu da ölkəmizin nüfuzunun, reytinqinin qalxması və regionda kifayət qədər güclü bir dövlətə çevrilməsi deməkdir. Dünya birliyi Azərbaycanın maraqlarına hörmətlə yanaşır. Paytaxtımızda VII Qlobal Bakı Forumunun keçirilməsi də bunun bariz sübutudur. Bakı Forumu geniş siyasi və humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir tədbirə çevrilib”.

F.Sadıqov söylədi ki, Qlobal Bakı Forumu Azərbaycanda mütəmadi olaraq keçirilən tədbirlərdən biridir: “Məlumdur ki, ölkəmiz son 15 ildə təkcə siyasi sahədə deyil, iqtisadiyyat, mədəniyyət və sosial sahələrdə də bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edib. Ümumiyyətlə, bu tip tədbirlərin hansı ölkədə keçirilməsinə qərar verilərkən oradakı iqtisadi və siyasi sabitlik əsas götürülür. Ölkəmizdəki mövcud sabitlik imkan verir ki, Azərbaycan dünya üçün əhəmiyyətli olan tədbirlərə ev sahibliyi etsin. Bütün dünya ölkələrinin təmsilçiləri Bakı Forumunda iştirak etməkdə maraqlıdırlar. Dünyanın nüfuzlu siyasi xadimləri, rəsmi şəxslər VII Qlobal Bakı Forumunda iştirak edirlər. Forumun panellərində müzakirəyə çıxarılan bütün məsələlər dünya üçün olduqca aktualdır. Bu Forumun Bakıda keçirilməsi Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, eyni zamanda, ölkəmizdə mövcud olan multikultural, tolerant dəyərlərin dünyaya aşılanması baxımından böyük əhəmiyyət kəsb edir. Hesab edirəm ki, paytaxtımızda keçirilən VII Bakı Qlobal Forumu daha məhsuldar və pozitiv məqamlarla yadda qalacaq”.

Politoloq qeyd etdi ki, Qlobal Bakı Forumu XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavab axtarmaq, humanitar əməkdaşlıqla bağlı mühüm məsələlərə dair dialoqlar, fikir mübadilələri aparmaq üçün nüfuzlu elmi-siyasi platformadır: “Artıq 7-ci dəfə keçirilən Forum gözəl ənənəyə çevrilib. Forum çərçivəsində aparılan müzakirələr siyasi əməkdaşlığın daha da dərinləşməsinə xidmət edəcək. Əsrlər boyu Azərbaycanda çoxkonfessiyalı cəmiyyət formalaşıb, müstəqillik illərində bu müsbət meyillər daha da güclənib. Həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvü olan Azərbaycan beynəlxalq əməkdaşlığa hər zaman öz töhfəsini verib və bu sahədə səylərini bundan sonra da davam etdirəcək”.



✍ **Cavid Əkbərov,**
***“İki sahil”***

# Dövlət qaçqın və məcburi köçkünlərə böyük qayğı göstərir

## Milli Məclisin deputatı Elman Məmmədovun www.yap.org.az saytına müsahibəsi

*- Elman müəllim, ATƏT-in Minsk qrupunun həmsədrləri bu günlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bəyanat veriblər. Bu bəyanata münasibətiniz necədir?*

- Azərbaycan dövlətinin və cəmiyyətinin mövqeyi belədir ki, həmsədrlərin fəaliyyəti, regiona səfərləri nəticə verməlidir. ATƏT-in Minsk qrupu həmsədrlərinin sülh prosesini irəli aparmaq təşəbbüsləri müsbət qiymətləndirilə bilər. Amma bu təşəbbüslər ədalətə söykənməli və beynəlxalq hüquq normalarına əsaslanmalıdır.

Bilirsiniz ki, işğalçı Ermənistan Dağlıq Qarabağ məsələsinin həllində maraqlı deyil. Bu dövlət işğalçı siyasətini davam etdirmək istəyir. Buna baxmayaraq, Minsk qrupu işğalçını öz adı ilə çağırsa, məcburi köçkün olan insanların öz doğma yurdlarına qaytarılması tələbini irəli sürsə, Ermənistanın geri çəkilməsi şübhəsizdir. Çünki bu dövlət bütün cəhətlərdən iflasa uğrayıb. Azərbaycan tərəfi isə danışıqlar naminə bu prosesdə iştirak etmək niyyətində deyil və bu mövqe həmsədrlərə də məlumdur. Ona görə də dövlətimizin həmsədrlərdən nəticəyə hesablanan fəaliyyət tələb etməsi tamamilə düzgün mövqedir.

Həmsədrlərin son bəyanatına gəlincə, burada bir sıra məqamlar var. Bəyanatda vurğulanan bəzi məqamlar əvvəlki bəyanatların təkrarıdır. Yeni məqam isə ondan ibarətdir ki, bəyanatda danışıqların formatının dəyişməz olduğu qeyd edilir. Hansı ki, Ermənistanın baş naziri Nikol Paşinyan deyirdi ki, danışıqlar prosesində Dağlıq Qarabağ erməniləri tərəf kimi iştirak etməlidir.

Minsk qrupunun həmsədrlərinin bu bəyanatı Ermənistana verilən bir mesajdır. Həmsədrlərin mövqeyi Paşinyanın fikirlərinin qeyri-ciddi olduğunu göstərdi. Prezident İlham Əliyev Minsk qrupunun həmsədrlərini qəbul edərkən ölkəmizin mövqeyini onların diqqətinə çatdırmışdı. Münaqişənin həlli üzrə danışıqlar Ermənistan və Azərbaycan arasında aparılır. Danışıqların formatı dəyişilməz olaraq qalır. Ölkəmizin işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin danışıqlara cəlb edilməsi və formatın dəyişdirilməsi cəhdləri qəbuledilməzdir.

Amma bir məsələ də var ki, sülh danışıqları nəticə verməli, Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır. Torpaqları işğaldan azad etmək Azərbaycan xalqının haqqıdır. Çünki bu torpaqların sahibləri öz yurdlarına qayıtmalıdırlar. Amma bu gün onlar qaçqın və məcburi köçkün vəziyyətində yaşayırlar.

*-Azərbaycanda qaçqın və məcburi köçkünlərə yüksək dövlət qayğısı göstərilir. Bu barədə nə deyə bilərsiniz?*

- Məlumdur ki, Azərbaycan ötən illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük nailiyyətlər qazanıb. Ölkəmizin maliyyə imkanlarının güclənməsi istər regionların sosial-iqtisadi inkişafı, istərsə də insanların so-



sial rifah halının daha da yaxşılaşdırılması istiqamətində layihələrin reallaşdırılmasına da imkan verib. Cənab Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır.

Dövlətimizin başçısının müəyyənləşdirdiyi bu strateji kursa uyğun olaraq respublikamızda qayğıya ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənirlər. Bu sırada da qaçqın və məcburi köçkünlər, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələri ön sırada dayanırlar. Çünki qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli daim dövlətin, şəxsən Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Son 15 ildə ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq qaçqın və məcburi köçkünlərin problemlərinin həlli məqsədilə müxtəlif proqramlar reallaşdırılıb.

Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Son illərdə qaçqınlar və məcburi köçkünlər üçün bütün zəruri infrastruktura təchiz olunmuş qəsəbələr salınıb, çoxmərtəbəli binalar inşa olunub. Qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və ondan istifadə olunur.

*- Azərbaycan Prezidentinin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətlərin artırılması ilə bağlı Sərəncamı da cəmiyyətimizdə yüksək qiymətləndirilir...*

- Azərbaycan Prezidentinin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətlərin artırılması ilə bağlı Sərəncamına əsasən məcburi köçkünlərə ödənilən vəsaitin həcmi 50 faiz artırılıb. Bilirsiniz ki, 2017-ci ilin yanvar ayının 1-dən etibarən məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərə vahid aylıq müavinət ödənilir. Bu vəsait onların kommunal xidmətlərinin xərcinin ödənilməsi məqsədilə dövlət tərəfindən əvəzsiz olaraq verilir.

2017-ci ilin əvvəlində bu rəqəm 36 manat, 2018-ci ildə 40 manat, son dəyişikliklərdən sonra isə bu rəqəm 50 faiz artırılaraq 60 manata çatdırılıb. Bununla da, məcburi köçkün ailələrinin hər bir üzvünə kommunal xərclərin ödənilməsi üçün dövlət tərəfindən 60 manat vəsait ödəniləcək. Bu, o deməkdir ki, əgər ailədə 4 nəfər ailə üzvü varsa, onlar 240 manat dövlət büdcəsindən aylıq olaraq vəsait əldə etmək imkanı qazanacaq. Əvvəllər bu rəqəm 160 manat idisə, aprel ayında bu rəqəm 240 manat olacaq.

Birdəfəlik aylıq müavinətin artırılması məcburi köçkünlərin sosial təminatı baxımından çox vacibdir. Bu, məcburi köçkün ailələrinə dəstək kimi qiymətləndirilməlidir. Artımlar ailə üzvlərinin sayı çox olan məcburi köçkünlərə dövlət büdcəsindən daha çox vəsait əldə etmək imkanı verəcək. Bu kontekstdə son addım Azərbaycanda həyata keçirilən sosial islahatların bir elementi kimi qiymətləndirilməlidir. Müavinətlərin artırılması həssas qrup olan məcburi köçkünlərin sosial təminatının daha yaxşılaşmasına dəstəkdir. Məcburi köçkünlər dövlət başçısının bu qərarını yüksək dəyərləndirir. Bu insanlar inanırlar ki, cənab Prezidentin qətiyyətli siyasəti nəticəsində doğma torpaqlarına qayıdacaqlar.

*Metyu Brayza:*

## Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar formatının dəyişdirilməsi ədalətsiz olardı



Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların formatının dəyişdirilməsi ədalətsiz olardı. Bunu Trend-ə ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk qrupunun keçmiş həmsədri Metyu Brayza deyib.

O qeyd edib ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin son bəyanatında Ermənistanın Baş naziri Nikol Paşinyanın vasitəçilik prosesi formatının dəyişdirilməsi barədə müraciəti qəbul edilməyib: "Həmsədrlərin bəyanatı tərəfləri vicdanlı danışıqları ən yüksək siyasi səviyyədə daha çox davam etdirməyə, münaqişənin nizamlanması üçün mümkün çərçivə sazişinin "Əsas prinsiplərini" qəbul etməyə çağırır. Minsk qrupu formatının dəyişdirilməsi ədalətsiz olardı".

Daha sonra M.Brayza əlavə edib ki, son bəyanat ATƏT-in və Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan rəhbərliklərinə çərçivə sazişinin müəyyən olunmasında kömək göstərdiyini nümayiş etdirir: "Minsk qrupunun bu bəyanatında həmsədrlər Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyanın görüşünü alqışlayır. Ona görə də həmsədrlərin son bəyanatında qeyri-adi və ya yeni bir şey yoxdur".

Minsk qrupunun keçmiş həmsədri əlavə edib ki, Azərbaycan və Ermənistan rəhbərləri həmsədrlərin "Əsas prinsiplərə" sadiq olmaq çağırışına əməl etsə, qarşılıqlı etimad münasibətlərini inkişaf etdirsə, xüsusilə də öz vətəndaşlarını sülhə hazırlamaqda davam etsələr, danışıqlarda irəliləyiş daha çox nəzərə çarpacaq: "Amma hələlik iki ölkə rəhbərliyinin qarşılıqlı etimad səviyyəsini bərpa edib-etməyəcəyi və bu irəliləyiş üçün vacib çətin siyasi kompromislərə gedib-gedə bilməyəcəkləri məlum deyil. Bunun üçün ABŞ, Fransa və Rusiya prezidentləri tərəfindən təşviq bu prosesə yardım edə bilər".

## Atəşkəs 26 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.



Müdafiə Nazirliyindən verilən məlumata görə, Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Kəngərli, Sarıcalı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Azərsu" ASC-də qanvermə aksiyası



**Ölkə Prezidentinin Sərəncamı ilə təsdiqlənmiş "Hemofiliya və talassemiyadan əziyyət çəkən uşaqlara qayğı" Dövlət Proqramının icrası tədbirləri çərçivəsində ölkəmizdə mühüm layihələr həyata keçirilir. Qan bankının yaradılması, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təminatı üçün könüllü donor xidmətinin inkişafı məqsədilə qanvermə aksiyaları təşkil olunur.**

"Azərsu" Açıq Səhmdar Cəmiyyətində (ASC) irsi qan xəstəliklərindən əziyyət çəkən xəstələrə kömək məqsədi daşıyan, minlərlə insan üçün həyati əhəmiyyət kəsb edən bu könüllü humanitar aksiyanın keçirilməsi artıq ənənə halını alıb. Növbəti qanvermə aksiyasında "Azərsu" ASC-nin idarə və müəssisələrində çalışan əməkdaşlar fəal iştirak ediblər.

B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən hər bir donorun sağlamlığı aksiyadan əvvəl yoxlanılıb. Müayinə nəticəsində sağlamlığı qan götürməyə imkan verən şəxslər müəyyənləşdirilib. Ümumilikdə aksiyada "Azərsu" ASC-nin 200-dək əməkdaşı iştirak edib. Donorlar qan xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün könüllü qan verməyin xeyirxah və savab iş olduğunu diqqətə çatdırıb, belə aksiyalarda yaxından iştirak etməyin vətəndaşlıq borcu olduğunu qeyd ediblər.

B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun əməkdaşları bildiriblər ki, götürülən qan nümunələri laboratoriyada hərtərəfli müayinə edildikdən sonra onlardan talassemiyalı, hemofiliyalı və digər irsi qan xəstələrinin müalicəsində istifadə olunacaq.

✍ **Orxan Vahidoğlu, *"İki sahil"***

# Bu görüş mədəniyyət tariximizə qızıl hərflərlə yazılacaq

***Bu gün Azərbaycanda yeni mədəniyyət müəssisələri, konsert salonları inşa edilir, teatrlarımız, muzeylərimiz, kitabxanalarımız təmir olunur, sənət adamlarına böyük qayğı göstərilir. Martın 1-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşü və bu tədbirdən sonra atılan addımlar bir daha sübut edir ki, dövlətimizin bu sahəyə diqqət və qayğısı prioritet istiqamətlərdən biridir. Həmin görüş, eləcə də görüşdən sonra görülən işlər mədəniyyət və incəsənət xadimlərinin yaddaşına necə həkk olunub? Bu suallа bir neçə tanınmış sənətkara müraciət etdik.***

**Əməkdar artist, Prezident mükafatçısı, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyoru Kazım Abdullayev:**



- Həmin görüş məndə də xoş təəssürat oyatdı. Bilirsinizmi, bu, çox önəmli görüş idi. Orada səsləndirilən hər bir təklif ürəyimcə oldu. Onlardan biri haqqında danışmaq istəyirəm. Məsələn, Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının sədr müavini, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyoru Hacı İsmayılov bildirdi ki, Ulu Öndər dəfələrlə bizim teatrda olub, tamaşalardan sonra səhnə arxasında yaradıcı heyətlə görüşüb. Bu görüşlər yaradıcı heyətə böyük yaradıcılıq stimulu verib. Odur ki, həmkarım Hacı İsmayılov Prezident İlham Əliyevi də teatrımıza dəvət etdi.

Şübhəsiz, dövlətimizin başçısı bu arzumuzu da reallaşdıracaq və hazırda repertuarımızda olan tamaşalardan birini izləyəcək, eləcə də tamaşadan sonra aktyorlarla, rejissorlarla söhbət edib öz fikirlərini bildirəcək. O günü səbirsizliklə gözləyirik.

Yeri gəlmişkən, həmin görüşdən sonra Prezidentimiz teatrların inkişafı ilə bağlı Sərəncam imzaladı. Üstəlik, dövlət büdcəsindən maliyyə yardımı alan teatr və konsert müəssisələrində çalışan işçilərin aylıq vəzifə maaşları orta hesabla 50 faiz artırıldı.

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dosenti, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev:**



- Şübhəsiz, ölkəmizdə mədəniyyətin, incəsənətin təbliğində, memarlığın inkişafında, eləcə də ədəbi-ictimai fikrin formalaşmasında yaradıcı kollektivlərin rolu əvəzsizdir. Elə bu mühüm amilləri nəzərə alan Prezident İlham Əliyev həmin görüşdən bir neçə gün keçmiş "Yaradıcılıq ittifaqları və birliklərinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam da imzaladı. Həmin sənədə əsasən, Azərbaycan Yazıçılar Birliyinə, Azərbaycan Bəstəkarlar İttifaqına, Azərbaycan Rəssamlar İttifaqına, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqına, Azərbaycan Memarlar İttifaqına, Azərbaycan Teatr Xadimləri İttifaqına və Azərbaycan Aşıqlar Birliyinə də vəsait ayrıldı. Hesab edirəm ki, bu Sərəncam yaradıcılıq ittifaqlarının və birliklərinin gələcək fəaliyyətləri ni stimullaşdırmaq üçün geniş imkanlar açacaq. Buna görə dövlət başçımıza bir daha təşəkkürümü bildirirəm.

Təbii ki, bu kimi addımlar martın 1-də keçirilən həmin görüşün belə demək mümkündürsə, məhsuludur. Bu mənada mədəniyyət və incəsənət xadimləri ilə keçirilən görüşü Azərbaycanın mədəniyyət tarixinə qızıl hərflərlə yazılacaq bir hadisə kimi dəyərləndirirəm.

**Sənətşünaslıq doktoru, Azərbaycan Milli Konservatoriyasının professoru Abbasqulu Nəcəfzadə:**

- Əslində belə görüşlər ölkə başçısının xalqa nə qədər yaxın olduğunu bir daha göstərir. Bəli, cənab Prezident ölkəmiz, həyata keçirilən siyasətimiz, həmçinin üzləşdikləri problemlər haqqında məhz vətəndaşlarımızın dilindən eşitməyə üstünlük verir. Bununla da dövlətimizin başçısı respublikamızda xalq-iqtidar birliyini əyani şəkildə nümayiş etdirir. Görüşdə cənab Prezidentin qaldırılan məsələlərin müsbət həll edilməsinə necə münasibət bildirdiyinin şahidi olduq.

Bir alim kimi məni narahat edən bir məsələdən də söz açmaq istəyirəm. Cənab İlham Əliyev çıxışında bildirdi ki, 2004-cü ildən etibarən klassik əsərlərimiz, bədii ədəbiyyat latın qrafikalı Azərbaycan əlifbası ilə yenidən nəşr olunub. Təbii, bu, çox gözəl bir işdir. Amma müşahidələrimə əsasən, qeyd etmək istəyirəm ki, həmin bədii ədəbiyyatın bəzilərində problemlər var. Məsələn, XVII əsrin görkəmli Azərbaycan şairi, Füzuli ədəbi məktəbinin görkəmli davamçısı Qövsi Təbrizinin şeirlərindən bəzi misralar çıxarılıb. Böyük şairimiz klassik ədəbiyyatda az təsadüf edilən musiqar adlı çalğı alətimizi vəsf edib, amma yeni nəşrdə bu yoxdur. Odur ki, bununla bağlı 1958-ci ildəki əski nəşrə müraciət etmək məcburiyyətində oluruq. Bu da Ali Attestasiya Komissiyasının əsasnaməsinə ziddir. Çünki elmi işlər yazılarkən son 10-15 il kitablarına üstünlük verilir. Yəni demək istəyirəm ki, Prezidentin göstərişləri qüsursuz yerinə yetirilməlidir.



Digər tərəfdən, böyük türkoloq alim, akademik Məmməd Arifin də əsərləri 1968-ci ildən sonra işıq üzü görməyib. Niyə M.Arifin əsərləri latın qrafikalı Azərbaycan əlifbası ilə nəşr olunmur? Məgər bununla bağlı ayrıca Sərəncam olmalıdır?

**Kinorejissor, ssenarist Elşən Zeynallı:**



- Bu gün möhtərəm Prezidentimiz İlham Əliyev milli kinematoqrafiyanın inkişafına da böyük qayğı göstərir. Bunun nəticəsidir ki, son illər dövlət sifarişi ilə çəkilmiş filmlərimiz dünyanın nüfuzlu festivallarının mükafatlarını qazanıb.

Martın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə bütün sənət adamlarına ruh yüksəkliyi verdi.

Unutmayaq ki, mədəniyyətsiz heç bir ölkə inkişaf edə, eləcə də dünya miqyasında tanına bilməz. Çünki millətin ruhu, yaşantıları, milli məfkurəsi onun mədəniyyətində təzahür edir. Digər tərəfdən, Şərqlə Qərbin qovuşuğunda yerləşən və bu səbəbdən hər iki tərəfin mədəniyyətinin elementlərini özündə birləşdirmiş mədəniyyətimizin təbliği milli tanıtıma, dövlətçiliyə, diplomatiyaya xidmət edir. Onu da qeyd etmək yerinə düşərdi ki, son illər milli mədəniyyətimizin dünyada təbliği istiqamətində aparılan məqsədyönlü siyasət ölkəmizin beynəlxalq miqyasda daha yaxından tanınmasında əhəmiyyətli rol oynayır. Bu məsələdə kinonun xüsusi yeri var. Zənnimcə, martın 1-də Prezident İlham Əliyev "Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncam imzalamaqla milli kinematoqrafiyamızın yeni mərhələyə qədəm qoymasına da öz növbəti töhfəsini verdi.

✍ **Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Heydər Əliyev adına Neft Emalı Zavodu

**"Heydər Əliyev adına Neft Emalı Zavodunun mexanika sahəsi üzrə avadanlıqlara təmir və texniki xidmət işlərinin göstərilməsi" üzrə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (17001TX-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi(ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).
* Müsabiqə təklifinin təminatı.
* Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 29.03.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təminatı:***

Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyasının etibarlılıq müddəti müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 20 bank günü olmalıdır.

Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası LOT 3 üzrə - 5000 AZN (beş min manat) olmaq şərtilə, 16.04.2019-cu il , Bakı vaxtı ilə saat: 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Əks halda iddiaçının müsabiqə təklifi olan zərf açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 1surəti olmaqla 16.04.2019-cu il, Bakı vaxtı ilə saat 10.00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya dilində əldə etmək istəyənlər
* LOT -1üzrə- 236 manat
* LOT-2 üzrə - 59 manat
* LOT-3 üzrə - 236 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***V. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 8 ay ərzində zavod tərəfindən verilmiş sifarişlər əsasında yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ 1060(indeksnömrəsi);
Bakı şəhəri (yerləşdiyi şəhər);
Nizami rayonu (yerləşdiyi inzibati rayon və qəsəbə);
O.Vəliyev küç 1 (yerləşdiyi küçə və ya prospekt);
Zavodun HİK inzibati binası (yerləşdiyi bina, mərtəbə).

**Əlaqələndirici şəxs:**
Zaur Vəliyev (soyadı və adı).
Əsaslı tikinti şöbəsinin mühəndisi (struktur bölmənin və vəzifənin adı)
521-00-00 (17-819) (əlaqələndirici şəxsin karporativ telefon nömrəsi)
521-23-03 (əlaqələndirici şəxsin korporativ faks nömrəsi)
Zaurs.veliyev@socar.az (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)
Təklif və şikayətləriniz olduğu hallarda bu elektron ünvana müraciət edə bilərsiniz: isa.dadashli@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 16.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:30-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

## ERMƏNİSTANIN DƏYİŞMƏYƏN MƏNZƏRƏSİ:

# Narazı cəmiyyət və Paşinyanın dəvəquşu pozası

**Bu yaxınlarda hakimiyyətə gəlməsinin bir ili tamam olacaq Ermənistanın baş naziri Nikol Paşinyana qarşı ölkəsində artıq çox böyük narazı elektorat kütləsi formalaşıb. İşğalçı ölkənin mətbuatında baş nazirin "fəaliyyəti", daha doğrusu, fəaliyyətsizliyi kəskin tənqidlərin hədəfinə çevrilib.**



Bir neçə ay əvvəl Paşinyanı öyərkən "ağzına çullu dovşan sığışmayan" "armenianreport" saytının eksperti T.Arşakyan indi böyük təəssüf və hiddət hissi ilə hökumət rəhbərini "ağ yuyub qara sərir". "Heç nə görmürəm, heç nə eşitmirəm: Paşinyan xalqdan üz döndərir" sərlövhəli yazıda ekspertin Ermənistanın yeni hakimiyyətinə qarşı sərt fikirləri öz əksini tapıb: "İndi hər tərəfdən tənqidə məruz qalan Paşinyan hökuməti haqqında cəmi yarım il əvvəl, hətta düşünmək mümkün deyildi ki, narazı xalq kütləsi bir gün ona qarşı çıxacaq. Paytaxtın mərkəzindəki kafenin sökülməsinə görə keçirilən mitinqdə iştirakçılar və polislər arasındakı ciddi və qanlı toqquşmalar cəmiyyət və Paşinyan hökuməti arasında ilk ciddi qarşıdurma idi".

Daha sonra müəllif ötən ilin aprel ayında keçirilən mitinqlərdə Paşinyanın Ermənistanda sosial durumu yaxşılaşdıracağı ilə bağlı verdiyi vədləri reallaşdırmadığına görə hazırkı hökuməti ittiham edib: "Ondan başlayaq ki, Paşinyan hökumətinin ilk və ən böyük vədlərindən biri işsizliyin aradan qaldırılması olsa da, bu problemin öz həllini tapması üçün hazırkı hakimiyyət heç bir tədbir görməyi bacarmadı. Əksinə, hökumətin "islahatları" nəticəsində daha minlərlə insan işindən atıldı və Ermənistandakı aclar və işsizlər ordusuna qoşuldu. Belə şəraitdə, bəlkə də onlarla ailənin çörəkpulu qazandığı Milli Opera və Balet Teatrının binasının yaxınlığında kafenin sökülməsi çox böyük səhv idi".

Ekspert yazısında hakimiyyəti insanların şəxsi mülkiyyətinə qanunsuz müdaxilə etməkdə, problemləri zor yolu ilə həll etməkdə qınayıb: "Paşinyan hökuməti faktiki olaraq "canımız necə istəyirsə, elə də hərəkət edirik" prinsipləri ilə ölkəni idarə edir. Ona görə də hakimiyyətin bu addımı da cəmiyyət tərəfindən kəskin qınaqla qarşılanır".

Analitik yazır ki, Nikol Paşinyan rejiminin polisləri bundan əvvəlki Koçaryan və Sarkisyan despotizmini təmsil edən zorakı polislərdən heç nə ilə fərqlənmir.

Bütün bunlar o nəticəyə gəlməyə əsas verir ki, Ermənistanda dəyişən sadəcə fiqurlardır, çürük sistem olduğu kimi qalıb. Bununla da Paşinyan hökuməti öz xalqına vaxtaşırı tarixi təkrar etdirməklə "keçmişi unutmağa imkan vermir". Müəllif daha sonra qeyd edir: "Polisin, dolayısı ilə hakimiyyətin zorakılığı bizə keçmiş əyyamları xatırlatdı. Paşinyandan əvvəl də Koçaryan və Sarkisyan rejiminin polislərinə "mitinqi dağıt" əmri veriləndə "kimsəni sağ ələ keçirməyin" kimi başa düşülürdü... Öz haqqını müdafiə edən adamları Paşinyan rejiminin polis qüvvəsi rezin dəyənəklə qəddarcasına çırpanda, yerlə sürüyəndə, zorakılıqla polis şöbələrinə götürəndə biz Ermənistanda əslində heç nəyin dəyişmədiyinə bir daha şahid olduq".

Müəllifin sözlərindən də anlaşıldığı kimi, artıq ermənilərə aydın olub ki, saxta demokratiya görüntüsü sadəcə Paşinyan hakimiyyət kreslosunda yerini bərkidənə qədər idi.

Şərhçi ölkədəki antidemokratik mühitdən, zorakılıqdan və səfalətdən danışmaqla yanaşı, Ermənistanın yeni hakimiyyətini xalqın adından təhdid edib: "Paşinyan unutmamalıdır ki, onun əsas təhlükəsi respublikaçılar və güc strukturlarında təmsil olunan coxsaylı "qüvvələr" deyil, daha çox bütövlükdə narazı cəmiyyətdir. Görünür, o məhz etiraz edən kütləni yaddan çıxarıb. Onu da yaddan çıxarıb ki, məhz narazı əhali hazırda beşəlli qamarlayıb oturduğu vəzifə kreslosunu əvvəlki siyasi sələfi Sarkisyandan alıb ona bəxş edib".

Yazı müəllifi dəfələrlə xatırladıb ki, Ermənistan əhalisi artıq cana doyub, xalq "qaynayır": "Belə görünür ki, Paşinyan bütün bunların fərqində deyil, yaxud da özünü elə aparır ki, nə heç nəyi görmür, nə də heç nəyi eşitmir. Ancaq "başını quma soxub, quyruğundan xəbərsiz dəvəquşu" pozası Paşinyana yaxşı heç nə vəd etmir. Xalq Paşinyana etimad göstərib mandat verib ki, əhalinin vəziyyətini yaxşılaşdırsın. Ancaq hələ ki, ortada gözəgörünən əhəmiyyətli heç nə yoxdur".

Ekspert sonda Paşinyana son xəbərdarlığı edib: "Xatırlayırsınızsa, bir dəfə hökumətin hansısa toplantısından sonra Paşinyan jurnalistlərə demişdi ki, cəmiyyətin dəstəyi olduğu müddətcə bunu ölkənin inkişafına yönəldəcəyəm. Ancaq xalqından üz çevirən Paşinyan artıq cəmiyyətin dəstəyini itirdiyinin fərqində deyil..."

Bütün bu yazılanlar və Ermənistanın yeni hakimiyyətinin birbirinin ardınca həm xarici, həm də daxili siyasətdəki "islahatlar" adı ilə gerçəkləşdirdiyi rüsvayçılıqlar bir daha təsdiq edir ki, yaxın zamanlarda Paşinyana da "yol görünür"...

✍ **Sevinc Abdullayeva,**
***"İki sahil"***



# *İlham Məmmədov:* Muzdlu xainlərin özbaşınalığına və antimilli fəaliyyətinə son qoyulmalıdır

**Bu gün həyatı internetsiz təsəvvür etmək mümkün deyil. İnternet məkanının isə ən məşhur layihələri sosial şəbəkələrdir. Əvvəllər daha çox vaxt keçirmə, əyləncə kimi istifadə edilən sosial şəbəkələrdən bu gün daha ciddi işlərə imzalar atılır. Ancaq təəssüflər olsun ki, dünyanın bu texnoloji nailiyyətindən ölkəmizdə sui-istifadə edənlər də az deyil.**

Milli Məclisin deputatı İlham Məmmədov İkisahil TV-yə açıqlamasında bildirdi ki, ölkədə heç bir uğurlara nail olmayan, müxtəlif səbəblərdən Avropa ölkələrinə gedən, orada qeyri-leqal yollarla yerləşən bir qrup insanlar var ki, sosial şəbəkələr üzərindən "xalq qəhrəmanlarına" çevriliblər. Görüntü yaratmağa çalışırlar ki, guya bu insanları Vətən, millət düşündürür, sanki onlar bu problemlərin yükü altındadırlar. Araşdıranda görürsən ki, bu insanlardan nəinki qohum-əqrəbası, heç öz doğma ata-anası bir xeyir görməyib. İndi birdən-birə bu tiplər insan hüquqlarının müdafiəçilərinə çevriliblər.

Bunun da bir neçə səbəbləri var. Bu gün nəinki Avropada, hətta dünyada Azərbaycan çox güclü inkişafa malik bir ölkə kimi tanınır. Məhz bu səbəbdən də Avropada yaşayan, yaxud yaşamaq istəyən insanlar orada oturum ala bilmirlər. Avropa dövlətləri ölkəmizin iqtisadi gücü ilə tanış olduğu üçün Azərbaycan vətəndaşlarına nəinki miqrant kimi yaşamaq icazəsi verir, hətta yaşamaq statusu verdikləri insanları da deport edərək geri qaytarırlar. Çünki ölkəmiz inkişafda olan ölkələrin siyahısındadır. Bu səbəbdən də oradan qayıtmaq istəməyən bu "qəhrəmancığazlar"ımız da mühacir dəllalları ilə əlbir olaraq orada siyasi oturum almaq istəyirlər. Guya əqidələrinə görə təqib olunurlar. Mühacir dəllalları da beşon nəfər toplayıb həmin tiplərin aksiyalarda iştirakı ilə bağlı biriki şəkil çəkdirirlər. Bu məlunlardan bəziləri ölkədən çıxmamışdan öncə, hətta qanunu pozaraq həbsə də girirlər ki, özlərini "siyasi məhbus" kimi təqdim etsinlər, təqib olunmuş şəxs kimi orada yaşamaq hüququ alsınlar. Onlara kömək edən dəllalar da bu tipləri Avropada olan ermənipərəst qüvvələrlə tanış edir. Beləliklə də onlar ölkəmiz əleyhinə antitəbliğat aparanların maşası olmağa razı olurlar. Ölkəmiz əleyhinə əks-təbliğatla məşğul olan bu ləyaqətsiz insanlar sosial şəbəkələr vasitəsilə, ağıllarına gələn şər-böhtanı səsləndirirlər. Onların əsas vəzifəsi ermənilərin mənafeyinə xidmət edən materiallar yaymaqdır.

Təəssüfedici haldır ki, bu ləyaqətsiz insanlar fikirləşmirlər ki, o şəbəkələrdə yaydıqları çıxışlara bizim uşaqlarımız, analarımız, bacılarımız baxırlar. Hədyan söyüşlərlə, qeyri-etik çıxışlarla insanların bir çoxunun əsəblərinə təsir edirlər. Ölkəmizin vətəndaşlarını təhqir edirlər. Təbii ki, bütün bu təhqirlərə, şər və böhtanlara görə bu Vətən xainləri üçün qanun çərçivəsində ölçü götürülməlidir. Bu muzdlu xainlərin özbaşınalığına və antifəaliyyətinə son qoyulmalıdır. Tində, küncdə, bucaqda əlinə bir telefon alıb ağzına gələni danışmaq mübarizə üsulu deyil.

İ.Məmmədov bildirdi ki, şərəfsiz insanlara bildirmək istəyirəm ki, tərbiyəsiz ifadələrlə canlı yayım etmək mübarizə üsulu yox, muzdla həyata keçirilən şərəfsizlikdir. Mübarizə siyasi yolla, sivil qaydada həyata keçirilir. Dünyanın hər yerində müxalifət də var, siyasi mübarizə də. Ölkəmizdən kənarda yaşayan mühacirət quldurları sanki söyüş terminalogiyası ilə siyasətin yeni formasını əmələ gətiriblər. Bu üsul, o insanların özü kimi çox iyrəncdir. Bu iyrənclər təkcə dövlətin rəsmi şəxslərini hədəfə almayıblar. Qrant uğrunda mübarizədə, pulla bağlı mövqeləri çəpləşəndə biri-birlərini də hədyan sözlərlə təhqir etməkdən çəkinmirlər.

Milli Məclisin deputatı bildirdi ki, bu iyrənc məxluqlara bəyan etmək istəyirəm ki, "yel qayadan heç nə apara bilməz". Xalqımız sizin kimi şərəfsizlərin nə özlərini, nə də hədyan danışıqlarını ciddiyə almır. Necə deyərlər, "it hürər, karvan keçər". Meydan "qəhrəmancığazları"nın bu günü də, keçmişi də hər kəsə yaxşı bəllidir. Elə əvvəldən də bu məlunlar nəinki efirdən kənarda, hətta efirdə də özlərini apara bilmirdilər. Biri-birilərini aşağılayıcı sözlərlə təhqir etməkdən əlavə, hətta təpik və şillədən də istifadə edirdilər. Azərbaycan gəncliyinə bildirmək istəyirəm ki, bu insanların xisləti budur. Yəni onlar bu gün belə deyillər. Keçmişləri də belə olub, bu günləri də. Necə deyərlər, "qozbeli qəbir düzəldər".

✍ **Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

# Dünyanın ən bahalı şəkilləri



**Piter Likom: "Fantom" (6,5 milyon dollar)**

1999-cu ildə Piter Likom tərəfindən "fantom" adı verilmiş bu şəkil 6,5 milyon dəyərində qiymətləndirilib. Hələlik bu şəkil dünya tarixində ən bahalı şəkil hesab olunur. Piter Lik bu şəkli Arizona ştatında Antilop kanyonunda (dərin dar dərə) olarkən çəkib.



**Andreas Qurski: "Reyn-II" (4,33 milyon dollar)**

Alman müəllif Andreas Qurski 1999-cu ildə çəkdiyi şəklə "Reyn-II" adı verilib. Bu foto işinin qiyməti insanı heyrətə gətirir: 4,33 milyon dollar. Məşhur fotorəssam Qurskinin kolleksiyasında daha bir neçə foto milyon dollarlara satılıb. Şəkildə Almaniyada yerləşən Reyn çayı əks olunub. Bu, "Reyn" seriyasından olan bir şəkil olub. Şəkil 2011-ci ildə "Christie's" hərracında satışa çıxarılıb. İlk sahibi Monika Şpryut adına Köln qalereyası olub, sonra isə naməlum şəxs tərəfindən alınıb.



**Sindi Şerman: "№ 96" (3,89 milyon dollar)**

Amerikadan olan ekstravaqant fotorəssam Sindi Şerman səhnə şəkillərini xüsusi texnika ilə hazırlayıb. Onun ən bahalı və məşhur "№ 96" fotoşəkili 1981-ci ildə çəkilib. Şəkil 3 890 min dollara əldə olunub. Şəkildə narıncı saç və geyimdə olan bir qız təsvir olunub. Özünü rəssam - performanist adlandıran Sindi Şerman fotoya xüsusi məna verir. Şəkil 2011-ci ildə "Christie's" hərracında satışa çıxarılmışdı.



**Ceff Uoll: "Ölü əsgərlər danışır" (3,66 milyon dollar)**

"Ölü əsgərlər danışır" şəkili əslində heç də adi şəkil deyil. Bu Ceff Uoll tərəfindən yaradılmış fotokollajdır. 1992-ci ildə bu şəkil hərracda 3,66 milyon dollara satılıb. Çox real görünən foto əslində tərtib olunmuş şəkil idi. Qrimlənən və xüsusi geyindirilmiş personajlar ilə şəkil studiya şəraitində çəkilib.



**Riçard Prins "Kovboy" (3,4 milyon dollar)**

2001-2007-ci illərdə Riçard Prins "Marlboro" reklamı üçün şəkil çəkir və adını "Kovboy" qoyur. 2007-ci ildə "Kovboy" "Christie's" hərracında 3,4 milyon dollara satılır.



**Andreas Qruski "99 çent" (3,3 milyon dollar)**

Andreas Qurskinin əsərlərindən biri, daha doğrusu ikisi. Bu iki foto adi bir mağazanın interyerini əks etdirir. Hansı ki, orada hər şey 99 sentə satılıb. Bu adi görünən şəkil 2007-ci ildə 3,3 milyon dollara satılıb.



**Dmitri Medvedev: "Tobolsk Kreml" (1,7 milyon dollar)**

"Tobolsk Kreml" fotosu xeyriyyəçilik məqsədi ilə hərracda satışa çıxarılıb. Bu şəkili 2009-cu ildə 1,7 milyon dollara satılıb. Bu şəkil 2009-cu ildə eks-prezident Dmitri Medvedev tərəfindən ekskursiya zamanı səmadan çəkilmişdir.



**Riçard Avedon: "Dovima və fil" (1,15 milyon dollar)**

1955-ci ildə sərgilərin birində Riçard Avedon özünün "Dovima və fil" şəklini nümayiş etdirmişdi. 2010-cu ildə "Christie's" hərracında 1,15 milyon dollara satılmışdı.

***Bəs siz necə, bu şəkilləri əldə etmək üçün bu qədər pul verərdiniz?***

✍ **Könül Cavid, *"İki sahil"***



# Aqrar sektorun inkişafında yeni mərhələ

**Ölkə iqtisadiyyatının şaxələndirilməsi strategiyasının əsas istiqamətlərindən biri kimi aqrar sektorun inkişafı respublikamızda ərzaq təhlükəsizliyinin təmin edilməsinə, ixracın maksimum dərəcədə artmasına, kənd təsərrüfatının ölkəyə böyük valyuta gətirən sahəyə çevrilməsinə, regionların simasının əsaslı surətdə dəyişməsinə və kənd əhalisinin güzəranının əhəmiyyətli dərəcədə yaxşılaşmasına böyük töhfələr verir. Son on beş ildə həyata keçirilən islahatlar nəticəsində və görülən işlərin yekunu olaraq kənd təsərrüfatının inkişafında kifayət qədər artım olub.**

Azərbaycanda həyata keçirilən irimiqyaslı layihələr və davamlı islahatlar kənd təsərrüfatının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına rəvac verib. Bu sahədə köklü dəyişikliklər baş verib, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşıb. Normativ-hüquqi baza getdikcə təkmilləşdirilir, idarəetmədə səmərəliliyin və şəffaflığın artırılması üçün elektron kənd təsərrüfatı sistemi tətbiq edilməkdədir. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının uğurlu icrası, fermerlərə maliyyə və texniki dəstəyin göstərilməsi, sahibkarlığın inkişafı, bölgələrdə infrastruktur layihələrinin həyata keçirilməsi regionlarda yeni iş yerlərinin yaradılmasına, işsizliyin aradan qaldırılmasına və ərzaq təhlükəsizliyinin təmin olunmasına böyük töhfələr verib.

Kiçik sahibkarlığın inkişafı sayəsində yeni iş yerləri yaradılır və regionlarda istehsal olunan kənd təsərrüfatı və digər ərzaq məhsullarının vahid brend adı altında daxili və xarici bazarlara çıxarılmasına şərait yaranır, ölkəyə valyuta axını güclənir. Bundan başqa, qeyri-neft sektorunun aparıcı bölməsi olan aqrar sənayenin inkişafı istiqamətində uğurlu addımlar atılır. Bu məqsədlə aqrar sektorun innovativ meyarlara uyğun qurulması, o cümlədən aqroparkların yaradılması sahəsində irimiqyaslı layihələr həyata keçirilir. Ölkə başçısının müvafiq Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin həyata keçirilməsini təmin etmək üçün ciddi addımlar atılır.

Hazırda ölkəmizdə əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Aqrar sektorun istər ixrac, istərsə də məşğulluq sahəsində böyük potensialından getdikcə daha səmərəli istifadə olunur. Bu sıraya torpaqlardan səmərəli istifadə, ekoloji təmiz məhsulların istehsalı, ixracın şaxələndirilməsi, "Made in Azerbaijan" brendi ilə xarici bazarlara çıxış kimi amillər müasir aqrar sənaye kompleksinin aydın mənzərəsini yaradır. Pambıqçılığın, tütünçülüyün, baramaçılığın və fındıqçılığın inkişafı istiqamətində atılan addımlar, ölkə başçısının bu sahələrin inkişafı ilə bağlı müvafiq Fərman və sərəncamları aqrar sahədə yüksək nailiyyətlər əldə edilməsində mühüm amilə çevrilib.

Prezident İlham Əliyev Goranboy rayonunda "Region Agropark"ın açılışındakı nitqində bildirib ki, bütövlükdə bu gün Azərbaycanda aqroparkların yaradılması geniş vüsət alıb və bu müəssisələr ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunmasına böyük töhfələr verməkdədir: "Nəzərdə tutulan 45 aqroparkdan 4-ü artıq istifadəyə verilib: Yalama, Şəmkir, Cəlilabad və Goranboy rayonunda. Beləliklə, aqroparkların yaradılması və fəaliyyəti nəticəsində ərzaq təhlükəsizliyi məsələləri öz həllini tapacaq, işsizliyin azaldılması ilə bağlı əlavə addımlar atılacaq, yerli istehsal inkişaf edəcək, ixrac imkanlarımız genişlənəcək. Çünki burada yetişdiriləcək məhsullar ixracyönümlü məhsullardır. Ölkəmizdə kənd təsərrüfatı ilə bağlı siyasətimiz uğurla icra ediləcəkdir. Kənd təsərrüfatına böyük diqqət göstərilir. Azərbaycanda kənd təsərrüfatı prioritet sahələrdən biridir. Bundan sonra biz bu siyasəti ancaq ən müasir texnologiyalar və elmi əsaslar üzərində aparacağıq".

Görülən tədbirlərin, həyata keçirilən irimiqyaslı layihələrin və davamlı islahatların nəticəsində bu gün ölkəmizdə aqrar sektorun inkişafı əhalinin əsas kənd təsərrüfatı məhsullarına olan tələbatını artıqlaması ilə ödəməyə imkan verir.

✍ **Zahid Rza, *"İki sahil"***

# "Bakcell" və INNOLAND Azərbaycanın ilk blokçeyn hackathon yarışmasını keçirib

***"Bakcell" şirkəti, İNNOLAND Inkubasiya və Akselerasiya Mərkəzi və "Waves" Platforması Bakıda ilk dəfə olaraq "Blokçeyn inteqrasiyası üzrə hackathon" yarışması keçirib.***



Blokçeyn sahəsində Azərbaycanda ilk dəfə keçirilmiş hackathon sayəsində yerli startap və developerlər bu texnologiyadan öz layihələrində daha geniş istifadənin yollarını öyrəniblər. Yarış iştirakçıları blokçeyn ilə token əməliyyatları üzrə mərkəzləşdirilməmiş qlobal platforma olan "Waves" Platformasından istifadə edərək müxtəlif tapşırıqları yerinə yetiriblər.

Qeyd edək ki tədbirdə iştirak etmək üçün müraciət etmiş 52 nəfər arasından seçilmiş 4 komanda (ümumilikdə 13 iştirakçı) yarışıb. "MadBots" və "OfficeGuys" komandaları bütün tapşırıqları uğurla yerinə yetirərək qalib elan ediliblər.

Yarışmanın ümumi hədiyyə fondu (500 Waves tokeni) iki qalib komanda arasında bölünüb. Həmçinin, qaliblər "Waves" şirkətindən qrant almaq üçün müraciət etmək imkanını qazanıblar.

Hachathon yarışmasının sonunda "Waves" Platformasının baş əməliyyat direktoru Dmitriy Suxamerov iştirakçılarla görüş keçirib və öz tövsiyələrini bildirib. O deyib ki, qalib komandalar öz fəaliyyətlərini uğurla davam etdirərlərsə, "Waves" gələcəkdə onlara texnologiya və marketinq sahələrində dəstək göstərə bilər.

Xatırladaq ki, keçən ilin sonunda "Bakcell" şirkəti ilə İNNOLAND Inkubasiya və Akselerasiya Mərkəzi arasında tərəfdaşlıq müqaviləsi imzalanıb. Bu tərəfdaşlıq Azərbaycanda startap mədəniyyətinin formalaşdırılması, bu hərəkatın geniş vüsət alması, innovativ təşəbbüskarlıq ruhunun və startap ekosisteminin inkişaf etdirilməsi, mövcud startapların dəstəklənməsi, ölkəmizdə innovativ təşəbbüslərin mövcud iqtisadi proseslərə tətbiqinə şəraitin yaradılması, müxtəlif kəşf və ixtiraların işlənib-hazırlanmasına dəstək və innovasiyaların inkişafına əsaslanan digər tədbirlərin görülməsi istiqamətində böyük əhəmiyyət kəsb edir.

İnnovasiyalar sahəsində özünü doğrultmuş lider olan "Bakcell" şirkəti daim yerli startapların inkişafı, təhsil, elm və texnologiya sahəsində həyata keçirilən layihələrə öz dəstəyini əsirgəmir.

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Kompleks Qazma İşləri Tresti

**TDS-11SA və TDS-8SA markalı Top Drayverlərin ehtiyat hissələrinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (№ 26017-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifinin təminatı;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 12.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dillərində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin elektron surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 19.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqə təklifinin təminatı:***

Müsabiqə təklifinin təminatı, bank qarantiyası formasında iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə, 19.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Müvafiq təminatı təqdim edilməyən təklif rədd ediləcəkdir.

Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə sorğu verməlidir.

***IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu əldə etmək istəyənlər əlaqələndirici şəxsə iştirak haqqının ödənilməsi barədə bank sənədini və müraciət məktubunu (elektron və ya çap) təqdim etməklə əsas şərtlər toplusunu (elektron və ya çap) Azərbaycan, ingilis və ya rus dilində əldə edə bilərlər.
* Qeyd olunmuş sənədlər elanın I paraqrafında göstərilmiş tarixədək iş günü ərazində saat 09:00-dan 17:30-a kimi təqdim və qəbul edilə bilər.
* İştirak haqqı 177 manat (ƏDV ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutadır və Satınalan təşkilatın aşağıdakı bank hesabına ödənilməlidir:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***V. Təminatlar:***

* Müsabiqə təklifinin təminatı iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə təminat tələb olunur.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunacaqdır.

***VI. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ1033, Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105.
SOCAR, Kompleks Qazma İşləri Tresti

**Əlaqələndirici şəxs:**

Hüseynov Anar.
Maddi-texniki təchizat və marketinq şöbəsi, şöbə rəisinin müavini
Telefon: (+99 412) 521-31-59
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 19.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Qaz İxrac" İdarəsi

**Rezin şarlara olan tələbatı təmin etmək məqsədilə açıq satınalma müsabiqəsi 22006-19 elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 09.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 16.04.2019-cu il, Bakı vaxtı ilə saat 11.00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV ilə birlikdə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 30 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1025;
Bakı şəhəri;
Xətai rayonu;
Rövşən Əliyev 19.
Əlaqələndirici şəxs:
Vüqar İbrahimov (soyadı və adı).
Satınalmaların təşkili şöbəsinin mühəndisi (struktur bölmənin və vəzifənin adı)
+ (994)012 521 07 00 (22106) (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
Mob: +(994)50 842 21 06
vuqar.ibrahimov@socar.az (əlaqələndirici şəxsin karporativ elektron ünvanı)

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 16.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləbiləcək:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Qaz İxrac" İdarəsinin Satınalmalar qrupu**

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**"Azneft" İB-nin "28 May" NQÇİ-nin "Neft Daşları"nda NİH və NS-nin Əmtəə Çənlər Parkında 3 ədəd yeni 3000 m3 həcmli neft çənlərinin tikinitisi" (Sifariş №11573) obyekti üzrə 3 ədəd 3000 m3 həcmli neft çənlərinin yan divarlarının zavod şəraitində hazırlanması işlərinin satın alınmasını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25001-T-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət: (forma əlavə olunur);

* İştirak haqqının ödənilməsi barədə bank sənədi: (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);

* Müsabiqə təklifi: Bağlı zərfdə (3 nüsxə,1 əsli,2 surəti).

Müsabiqə təklifinin qüvvədə qalmasına dair bank təminatı: 8000 manat (ƏDV-siz)

Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyasının etibarlılıq müddəti müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü olmalıdır.

Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası müsabiqə təklifinin 3%-i həcmində olmaq şərtilə, 15.04.2019-cu il , Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Əks halda iddiaçının müsabiqə təklifi olan zərf açılmadan geri qaytarılacaqdır.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 08.04.2019-cu il (ən geci müsabiqə təkliflərinin təqdim olunmasının son tarixindən 7 iş günü əvvəl), Bakı vaxtı ilə saat: 16:30-a qədər Azərbaycan dilində (tələb olunan əcnəbi dil) Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 15.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 236 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN 9900003871
Müştəri Xidməti Deportamenti,
Kod:805250,
Müxbir hesabı: AZ03NABZ01350100000000002944
VÖEN 9900001881
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 iş günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***

___1018________ (indeksnömrəsi);
_____Bakı_______ (yerləşdiyi şəhər);
Xətai rayonu_____(yerləşdiyi inzibati rayon və qəsəbə);
2922-ci məhəllə Zığ yolu küçəsi "41C"(yerləşdiyi küçə və ya prospekt);
"Neftqaztikinti" Trestinin inzibati binası(yerləşdiyi bina, mərtəbə).

**Əlaqələndirici şəxs:**
Yavər İbrahimov(soyadı və adı).
LİOŞ şöbə rəisi(struktur bölmənin və vəzifənin adı)
(994 12) 5210760 (mobil 0508425060) (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
yaver.ibrahimov@socar.az (əlaqələndirici şəxsin karporativ elektron ünvanı)

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 15.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**Müxtəlif ölçülü polad borulara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi üzrə müraciətlərin son tarixinin,həmçinin təklif zərflərinin açılış tarixinin müddətinin uzadılmasını elan edir. (25044-19)**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;

* İştirak haqqının ödənilməsi barədə bank sənədi;

* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 26.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 02.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 590 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin yerinə yetirilməsi qrafik üzrə tələb olunacaq.

**Bank təminatı:**

İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-dək məbləğindən aşağı olmamalıdır.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Anar İsmayilov
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin böyük mühəndisi
Tel: +994 12 521-07-67
Tel: +994 50 292 80 85
Tel: +994 55 234 84 85
Elektron ünvan: anar.k.ismayilov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 02.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**

NEFT TARİXİMİZ...

## Azərbaycan neft sənayesinin yaranmasında milli, rus və xarici kapitalın rolu

# Azərbaycan milli kapitalının görkəmli nümayəndələri

⇨ Əvvəli ötən sayda

### AĞA ŞƏMSİ ƏSƏDULLAYEV

Azərbaycan neft sənayesinin inkişaf tarixində özünəməxsus yer tutan məşhur şəxslərindən biri də Ağa Şəmsi Əsədullayevdir. 1840-cı ildə Bakının Əmircan kəndində yoxsul kəndli ailəsində dünyaya göz açan Ağa Şəmsi Əsədullayev hələ uşaq ikən rus sahibkarı V.Kokorevin neft mədənlərində əmək fəaliyyətinə başlayır. 1890-cı ildə o, neftli torpaq sahəsi alır və 1893-cü ildə öz şəxsi "Şəmsi Əsədullayev" adlı şirkətini təsis edir. Bu zaman onun artıq 50 yaşı var idi.

1908-1912-ci illərdə Ş.Əsədullayevin şirkəti il ərzində 6-8 mln pud neft hasil etmişdi. Öz əmək fəaliyyətinə adi fəhləliklə başlayan A.Ş.Əsədullayev artıq 1910-cu ildə Bakıda və Rusiya imperiyası ərazisində ən zəngin neft sahibkarlarından biri idi. Bu dövrdə A.Ş.Əsədullayevə məxsus 37 neft mədənindən 17-si fasiləsiz neft verirdi. Onu da qeyd etmək lazımdır ki, A.Ş.Əsədullayev öz uğurları ilə çox vaxt rus və xarici kapital nümayəndələrini məyus edirdi.

Belə ki, Xəzər dənizində Nobel qardaşları tərəfindən dünyada ilk neftdaşıyan tanker - "Zərdüşt" ("Zoroastr"-43) tankerinin Xəzər dənizinə buraxılmasından sonra A.Ş.Əsədullayev "A" hərfi ilə başlayan üç neftdaşıyan tanker- "Asiya", "Afrika" və "Amerika" tankerlərini tikdirərək Xəzər dənizinə buraxdı. Bundan əlavə, o, Nobel qardaşlarından sonra öz müəssisələrində neft kəmərləri sistemini tətbiq etmişdi. Bu neft kəmərlərinin ümumi uzunluğu 12,5 verst təşkil edirdi. Bakı neft sənayeçilərinin XXXII qurultayında A.Ş.Əsədullayevin şirkəti neft hasilatının həcminə görə 10 səs toplayaraq Bakıda fəaliyyət göstərən on ən iri şirkətlər sırasına daxil olmuşdur.

Qeyd etmək lazımdır ki, A.Ş.Əsədullayevin həyat yolu heç də göründüyü qədər sadə olmamışdır. Çəkdiyi bütün əziyyətlərə və sərf etdiyi zəhmətə baxmayaraq A.Ş.Əsədullayevin şirkəti 1910-cu ildə iflas olmaq dərəcəsinə çatır. Əslində vəziyyətin bu hala gəlib çıxması ona qarşı daima həsəd aparan çirkin niyyətli bir qrup şəxsin qurduğu tələnin nəticəsi idi. O, şirkətini xilas etmək üçün bütün sərvətini ortaya qoysa da, heç nə kömək etmir. Məhz belə bir böhranlı vəziyyətdə ona kömək əlini qadası A.M.Nağıyev uzadır. Əslində A.M.Nağıyev tərəfindən atılan addım nə qədər qəribə görünsə də, qohumluq əlaqəsi ilə bağlı deyildi. Belə ki, A.M.Nağıyev özü A.Ş.Əsədullayevin çox ağıllı və müdrik bir iş adamı olduğunu bilərək düşdüyü bu ağır, böhranlı vəziyyətdən çıxmaqda ona kömək etmiş və öz addımında heç də yanılmamışdı. A.M.Nağıyevin yardımından sonra Ş.Əsədullayev çox qısa bir müddət ərzində öz əvvəlki sahibkar nüfuzunu bərpa edə bilmişdi.

Qeyd etmək lazımdır ki, 1913-cü ildə Rusiyada Romanovlar sülaləsinin hakimiyyətə gəlməsinin 300 illik yubileyi münasibəti ilə çap olunmuş "Romanovlar çar evinin 300 illiyi" adlı yubiley nəşrinin "Ticarət və sənaye" fəslində 8 azərbaycanlı iş adamının adları çəkilir ki, onların arasında A.Ş.Əsədullayevin də adı vardır. A.Ş.Əsədullayev 1913-cü il aprel ayının 21-də Yalta şəhərində naməlum şəraitdə vəfat etmiş və dəfn olunmuşdur. Bakıda onun dəfn mərasimində çıxış edən Bakı şəhər Dumasının üzvü Mehdibəy Hacınski "Quran-i-Kərim"ə istinad edərək belə bir ifadə işlətmişdi: "Ölüm haqdır və hər kəs buna məhkumdur. Lakin insan ölərkən özündən sonra ad qoymalıdır. O, sərvətlə ölçülmür. Çox varlılar ölür və bir müddətdən sonra onlar unudulur. Lakin Şəmsi Əsədullayev kimi insanların adları hər bir müsəlmanın yaddaşında əbədi olaraq yaşayacaqdır".

### İSABƏY HACINSKİ

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan neft sənayesində xüsusi yeri olan sahibkarlardan biri də İsabəy Hacınskidir. Çox qəribə və faciəli taleyə malik olan bu insan Bakının ən tanınmış kübar şəxslərindən idi. Bakının Ramanı, Sabunçu, Balaxanı və Bibiheybət kəndləri ərazilərində yerləşən neftli torpaqlar, Qara şəhərdəki kerosin zavodu və Xəzər dənizinin şərqində yerləşən neftlə zəngin Çələkən adası İsabəy Hacınskiyə məxsus idi. Bundan əlavə, o, Quba qəzasında 150 desyatin, Rusiyanın Nevinnokursk şəhəri yaxınlığında 210 desyatin torpaq sahələrinin sahibi idi. İsabəy Hacınski çox nüfuzlu və fəal bir insan idi. O Avropa ölkələrinə 28 dəfə səfər etmiş və bu ölkələrin müxtəlif şirkətləri ilə ticarət əlaqələri yaratmışdı.

İ. Hacınski çox böyük vətənpərvər idi. O, öz vəsaiti hesabına Bakıda ilk, ən böyük kişi gimnaziyasını tikdirmişdi. Bundan əlavə, Avropa və Rusiyanın ali təhsil ocaqlarında təhsil alan 25 tələbənin təqaüdünü öz vəsaiti hesabına ödəyirdi.

1920-ci ildə XI Qızıl Ordu Bakını işğal edərkən İsabəy Hacınski də bir çox varlılar kimi bolşevik əsgərlərin əmlakına olan hücumlarına məruz qalmışdı. Onun şəhərin indiki Neftçilər prospektində yerləşən məşhur sarayına soxulan əsgərlər evdə olan bütün qiymətli daş-qaşları müsadirə edirlər. Baş verən hadisəni təmkinlə izləyən İ. Hacınski ertəsi gün yeni hakimiyyət orqanları başçısının yanına gəlir və "siz hamısını götürməmisiniz" deyərək 1,5 kq ağırlığında qızıl sikkələrlə bəzədilmiş pul kisəsini (kiseti) komissarın masasının üstünə atır. Yaranmış bu ağır vəziyyətdən məharətlə istifadə edən ermənilər bir neçə məşhur azərbaycanlını girov götürürlər və onların məhv edilməsi təhlükəsi yaranır. Vəziyyətin ağırlığını anlayan İ.Hacınski öz həyatını böyük təhlükə altına ataraq daşnaklarla danışıqlara yollanır. Aparılan danışıqlar çox gərgin keçir və girovlar azad edilir, lakin İ. Hacınski bu hadisədən sonra infarkt keçirir və 12 gündən sonra vəfat edir.



### AŞURBƏYOVLAR AİLƏSİ

Neft sənayesinin coşqun inkişafı dövründə Bakıda meydana çıxan neft maqnatları haqqında danışarkən onların hamısının təhsilsiz olduğunu və ya kasıb ailələrdən çıxdığını iddia etmək düzgün olmazdı. Neft sənayeçilərinin və xeyriyyəçilərinin müəyyən hissəsi adlı-sanlı kübar ailələrə mənsub idi. Aşurbəyovlar, Səfərəliyevlər, Hacınskilər məhz belə ailələrdəndirlər.

Bakıda bir çox nəsillərin nümayəndələri arasında indi də yaxşı tanınan məşhur Aşurbəyovlar ailəsi həm sahibkarlıq, həm də xeyriyyəçilik sahəsində 1747-ci (bu tarixi dəqiqləşdirmək) ildən bəri geniş fəaliyyət göstərmişdir. O, zadəgan ailələr arasında ən varlı və kübar ailə sayılırdı.

Hazırda Bakıda mövcud olan dörd böyük məsciddən ikisini Aşurbəyovlar tikdirmişlər. Onlardan biri - Təzə Pir məscidi şəhərin ən böyük dini mərkəzidir. Məscid neft sahibkarının dul qadını Nabat xanım Aşurbəyovanın puluna ucaldılmışdır. O, ən yaxşı memarları bu işə cəlb etmişdi. Dəvət olunanlar arasında Bakı şəhərində doğulub Sankt-Peterburqda təhsil almış Zivər bəy Əhmədbəyov da vardı.

Məscidin tikintisi 1905-ci ildən 1914-cü ilədək, təqribən on il davam etdi. Təəssüf ki, Nabat xanım məscidin açılışını görmədi. Bu xeyriyyəçi qadın 117 yaşında vəfat etdi. Məscidin tikintisini onun oğlu, varlı sahibkar və xeyriyyəçi Hacı Abbasqulu Rzayev başa çatdırdı.

### § 3. Azərbaycan neft sənayesi I Dünya müharibəsi illərində (1914-1918)

Məlumdur ki, I Dünya müharibəsinin başlanmasının əsas səbəblərindən biri də dünyanın yenidən bölüşdürülməsi planlarında neftin həlledici yer tutması idi. İki hərbi-siyasi qruplaşmanın hazırladığı bu planlarda həmin dövrdə neftlə zəngin İraq (Mosul), İran və Azərbaycan torpaqlarının işğalı ən başlıca məqsəd idi. Qeyd etmək lazımdır ki, hər iki hərbi-siyasi bloka daxil olan ölkələrin neft şirkətləri Azərbaycan neft sənayesində təmsil olunmuşdular. Qeyd etmək lazımdır ki, 1914-cü ildə Bakı neft mədənlərindən hasil edilən neftin ümumi həcmi 7,970 mln ton olmuşdu. I Dünya müharibəsinin əvvəlində (1914-cü il) Azərbaycan neft sənayesində 4 iri şirkət - "Branobel", ingilis-holland transmilli tresti "Royal Dutch/Shell", rus baş neft korporasiyası "Oyl" (İri rus və xarici banklar tərəfindən 1912-ci ildə yaradılmış və 20-yə qədər şirkəti, o cümlədən, "Moskva-Qafqaz ticarət cəmiyyəti", "Xəzər ortaqlığı", "Rus neft sənayesi cəmiyyəti", "Abşeron neft sənayesi cəmiyyəti" və sairəni özündə birləşdirmişdi) və "Neft maliyyə-neft yoldaşlığı" (ortaqlığı)" (Əsası 1883-cü ildə Sankt-Peterburqda P.İ.Qubonin tərəfindən qoyulmuşdu). Bakıda isə "Bakı Neft cəmiyyəti" ("Neft", "Balaxanı-Zabrat Neft cəmiyyəti" və digər şirkətləri özündə birləşdirirdi) üstünlük təşkil edirdi. Ümumiyyətlə, I Dünya müharibəsi ərəfəsində Bakıda neft sənayesinə qoyulan xarici kapitalın 37%-i Böyük Britaniya kapitalına məxsus idi.

1917-ci ildə Bakı neft sənaye işinə qoyulmuş xarici valyutanın ümumi məbləği 111 mln. rubl təşkil edirdi. 1917-ci ildə Rusiyada neftçıxarmanın 60%-i və neft məhsulları satışının 75%-i xarici şirkətlərin əlində cəmlənmişdi.

Lakin I Dünya müharibəsinin başlanması Rusiyanın (o cümlədən Bakının) neft inhisarçıları ilə Avropanın və ABŞ-ın neft inhisarçıları arasında əvvəllər mövcud olan əlaqələrdə gərginliyə və sonradan onların kəsilməsinə gətirib çıxardı ki, bu da Rusiyanın neft sənayesində yenidən qruplaşmaya səbəb oldu.

I Dünya müharibəsinin başlanması və Rusiyanın bu müharibəyə qatılması neft sənayesinə də öz təsirini göstərdi. Bir tərəfdən neftə və neft məhsullarına olan tələbat artdı, digər tərəfdən isə onların ixracı xeyli məhdudlaşdı. 1914-cü ilin qışında Xəzərin şimalında gəmilər üçün naviqasiyanın bağlanması ərəfəsində Bakı neft rayonunda 101,9 mln. pud (1669 min ton) neft (bundan 37 mln pud xam neft) və neft məhsulları yığılıb qalmışdı. 1917-ci ildə burada yığılıb qalmış xam neftin həcmi artaraq artıq 43,4 mln. puda çatmışdı.

1915-ci ilin payızında Rusiyada neft böhranı həddsiz dərəcəyə çatdı və daxili bazarda neftin və neft məhsullarının qiyməti kəskin surətdə artdı. Qiymətləri tənzimləmək istiqamətində hökumətin həyata keçirmək istədiyi bütün tədbirlər neft inhisarçıları tərəfindən ciddi müqavimətlə rastlaşırdı. 1914-1917-ci illər ərzində olan neft böhranının əsas səbəblərindən biri müharibə şəraitində nəqliyyatın işinin pozulması ilə əlaqədar neft və neft məhsullarının daşınmasında yaranmış ciddi çətinliklər idi. "Qornozavodskoe delo" məcmuəsinin 1917-ci ildə nəşr olunan nömrələrindən birində gedən məqalədə deyilirdi: "Azərbaycandan neft çıxarılması təkcə onun hasilatı hesabına deyil, həm də böyük ehtiyatlar bahasına başa gəlirdi. Bakı neft rayonunda bütün neft məhsullarının ehtiyatı 1915-ci ildə 90,1 mln. pud, 1916-cı ildə 86,8 mln. pud, 1917-ci ildə 81 mln. pud təşkil edirdi".

Beləliklə, müharibəyə qoşulmuş dövlətlər arasında ən etibarlı, ən zəngin neft yataqlarına malik olan Rusiya da "neft böhranı" yaşadı və bu da yaxınlaşmaqda olan fəlakətin (çar rejiminin devrilməsinin) ilk əlamətləri idi.

Bu illərdə Rusiyada qaz istehsalı da gah artır, gah da azalırdı və ümumiyyətlə, onun istehsalı ABŞ-dan yüz dəfələrlə geri qalırdı. Belə ki, əgər 1916-cı ildə Rusiyada istehsal olunan qazın həcmi 111,300 mln. kub metr (ondan da 74 mln. kub metr Bakı rayonunun payına düşürdü) olmuşdusa, ABŞ-da bu rəqəm 15 mlrd. kub metr təşkil etmişdi.

Bu dövrdə Xəzər bölgəsi, xüsusən burada çox mühüm hərbi-strateji mövqe tutan Azərbaycan, dünyanın aparıcı dövlətlərinin coğrafi - strateji rəqabət hədəfinə çevrilmişdi. Bütün Avroasiya məkanında mühüm coğrafi-siyasi düyün nöqtəsi olan Xəzər bölgəsi hərbi-siyasi hadisələrə və dünya iqtisadiyyatına ciddi təsir göstərirdi. Hələ I Dünya müharibəsi başlamazdan çox əvvəl "neft Napoleonu" adlandırılmış H.Deterdinq çox uzaqgörənliklə demişdi ki, "... ordu, donanma, bütün qızıl və dünyanın cəmi xalqları neft sahiblərinin qarşısında acizdirlər. Bu qiymətli qara mayesiz avtomobillər və motosikllər, gəmilər, tanklar və uçaqlar (təyyarələr) kimə lazımdır?".

Britaniya hərbi nümayəndəliyinin Hindistan, Əfqanıstan və Xəzər dənizinin şərq əyalətləri üzrə rəhbəri Vilfrid Malleson 1918-1919 illərdə baş verənləri təhlil edərək yazırdı ki, Almaniya "təchizat cəhətdən əldən düşmüşdü... Rumıniya neft mədənlərinin dağılması onu bu sonuncu xammal mənbəyindən də məhrum etmişdi... Bakıda və Xəzər hövzəsinin digər yerlərində tükənməz neft ehtiyatları tapılıbdır... Almaniya öz baxışlarını yalnız Şərqə çevirib ki, öz ehtiyatlarını bərpa etsin". Lakin alman ordusu qərb cəbhəsində batıb qalmışdı ki, bu da Berlinə bu bölgədə olan çox vacib neft maraqlarını həyata keçirməyə imkan vermirdi.

Beləliklə, böyük dövlətlərin bütün bu siyasi-coğrafi məqsədlərinin həyata keçirilməsinin açarı Qafqazın və Xəzər hövzəsinin ən böyük sənaye və neft mərkəzi olan, o dövrdə Rusiyanın 75%, dünyanın isə 15% neftini verən Azərbaycan neft sənayesində idi. 1916-cı ildə Bakıda neft şirkətlərinin sayı 104-ə çatdı.

⇨ Ardı var

Cəbi Bəhramov
AMEA A.A.Bakıxanov adına
Tarix İnstitutunun
elmi işlər üzrə direktor
müavini, t.ü.f.d., dosent



# Lakeylərin aqibəti bu cür olur

Vəli İlyasov

Azərbaycan hüquq mühafizə orqanlarının həbs etdikləri Fəxrəddin Abbasov 1956-cı il dekabrın 25-də Lerik rayonunun Bılabənd kəndində anadan olub. Bu adam öz yurduna, millətinə və milliyyətinə xor baxan nadürüstlüyü ilə soydaşlarının nifrətini qazanmışdı.

Fəxrəddin Abbasov firavan həyat sürür, başından böyük iddialarla yaşayırdı. Onu yolundan azmağa vadar edən də elə həmin iddiaları oldu, nəticədə isə rəzil xalq düşməninə çevrildi. 1993-cü ildən Azərbaycanda separatçılıq fəaliyyəti ilə məşğul olurdu. Özünə "ideoloq" seçdiyi bədnam Əlikram Hümbətova qoşularaq Azərbaycanı parçalamaq yolu tutmuşdu. Hətta o, Azərbaycana düşmən kəsilən qatı separatçı, "Talış-Muğan Respublikası" yaratmağa çalışan üzdəniraq polkovnik Əlikram Hümbətov tərəfindən qondarma qurumun "parlamentinin spikeri" təyin edilmişdi. Əlikram Hümbətov komandirlik etdiyi briqadanı döyüşdən çıxararaq Lənkərana gətirəndən dərhal sonra Fəxrəddin və digərlərinin fəal iştirakı ilə bölgəni parçalayıb Azərbaycandan ayırmaq kimi bir iyrənc plana rəvac verdi. Əslində bu planın müəllifləri onlar deyildi. Planlar xaricdə cızılmışdı. Əlikramla Fəxrəddin yalnız icraçı lakeylər idi. Lakin plan pozuldu, ümummilli liderimiz Heydər Əliyevin bir çağırışı ilə cənub bölgəsinin bütün ziyalıları, ağsaqqalları və əhali ayağa qalxaraq bu Vətən xainlərini süpürüb atdı.

Vətənə xəyanəti aşkara çıxandan sonra Rusiyaya qaçan Fəxrəddin Abbasov uzun müddət idi ki, Azərbaycan dövlətçiliyi əleyhinə təxribat xarakterli çıxışlar edirdi. Həmin çıxış və addımlar həbs edilənə qədər davam etməkdə idi. Milli kimliyini və ləyaqətini itirmiş Fəxrəddin Abbasov tez-tez İrəvana, həttа Azərbaycanın işğal altında olan Xankəndi şəhərinə səfərlər edirdi. Ermənistanda isə həmişə onu xüsusi təmtəraqla qarşılayırdılar. O da ermənilərə məxsus mətbuat orqanlarında Azərbaycana qarşı çıxışlar səsləndirirdi. Dəfələrlə İrəvanda separatçı tədbirlərə qatılan Fəxrəddin Abbasov düşmənin maraqlarına uyğun addımlar atır və ölkəmizə qara yaxmaqla məşğul olurdu. Bundan başqa, onun Ermənistan xüsusi xidmət orqanları ilə əməkdaşlıq etdiyi də bildirilir.

Yada salaq ki, separatçı xain 1973-1978-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsini bitirib, uzun müddət elmi kommunizm, daha sonra politologiya fənnini tədris edib. Hətta 2005-ci ildəki parlament seçkiləri ərəfəsində Azərbaycana gəlib, öz namizədliyini irəli sürsə də, millət vəkili seçilə bilməyib. Həmin vaxt Azərbaycan əleyhinə apardığı təbliğata və qanunsuz fəaliyyətə baxmayaraq, onun sərbəst olaraq ölkəyə gəlib-getməsinə heç bir maneə yaradılmayıb. Bu faktları göz önünə gətirəndə F.Abbasovun talışların hüquqlarının tapdalanması haqqında səsləndirdiyi fikirlərin yalan, düşmən qüvvələr tərəfindən hazırlanmış təxribat xarakterləri iddialar olduğu üzə çıxır.

Görünür, onun necə təhlükəli və çörək yediyi qaba tüpürən nadan olduğunu Rusiya tərəfi də anlayıb. Belə ki, separatçı 2014-cü ildə müraciət etsə də, ona Rusiya vətəndaşlığı verilməyib.

Daim tolerant dəyərlərin mövcud olduğu Azərbaycanda nəinki talışlar, digət millətlərin nümayəndələri də mehriban dostluq prinsipləri əsasında rahat, bərabərhüquqlu və azad yaşayırlar. Talışların Azərbaycan dövlətini necə sevdiyini təkcə Qarabağ münaqişəsində onların göstərdiyi şücaətlər də sübut edir. Təbii ki, qaniçən Ermənistan rejiminin çaldığı zurnaya oynayan bu nadan heç bir halda doğma talış xalqının nümayəndəsi ola bilməz. O, daim üzərində "erməni maşası" damğası ilə yaşayacaq. Əgər bu ləkə ilə həyatda qalmağa yaşamaq demək olarsa...

Görəsən, bu gün işıqlı dünyaya dəmir barmaqlıqlar arxasından baxan Fəxrəddin Abbasov anlayırmı ki, Yer üzündə Vətənə xəyanət etməkdən də betər rəzalət yoxdur. Bu yaşa qədər anlamayıbsa, bundan sonra çətin ki, anlasın. Deməli, "qozbeli qəbir düzəldər" kəlamını nahaq deməyiblər.

# PAŞİNYANIN TƏXRİBATLARI: danışıqlar prosesini dalana aparır

**Qlobal miqyasda geosiyasi vəziyyətin yenidən mürəkkəbləşməsi regional münaqişələrin həlli məsələsini daha da aktuallaşdırır. Ukrayna, Gürcüstan və Azərbaycan üçün bunun əhəmiyyəti danılmazdır. Bu üç keçmiş sovet respublikası ərazi bütövlüklərini bərpa etmək uğrunda gərgin mübarizə aparırlar. Azərbaycan daha mürəkkəb şəraitdə inamla mübarizəsinə davam edir.**



Çünki Ukrayna və Gürcüstanın ərazi bütövlüyü ilə bağlı bir sıra beynəlxalq təşkilatlar və böyük dövlətlər daha açıq və konkret danışırlarsa, Ermənistanın təcavüzkarlığını elə də qabartmırlar. Hətta siyasi və diplomatik aspektlərdə ona dəstək verənlər də var. Hərbi və maliyyə yardımları göstərilir. Hələ heç bir işğalçı ölkəyə bu cür arxa duran olmayıb. İndi Nikol Paşinyan "şıltaqlıq" edərək, yeni təxribatlara əl atır. O, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə qanunsuz və icazəsiz səfər edərək, orada iclas keçirir. Adını da "Ermənistan və Arsaxın təhlükəsizlik şuralarının ortaq toplantısı" qoyur. Beynəlxalq hüquq normalarına tam zidd olan bu təxribatçı davranışa ATƏT-in Minsk qrupunun həmsədrləri heç bir münasibət bildirmirlər. Nəticədə, regionda təhlükəsizliyə yeni ciddi təhdidlər meydana gəlir. Bu məqam üzərində geniş dayanmaq gərəkdir.

### "Strateji məsləhətləşmələr": Ermənistan rəhbərliyi beynəlxalq hüquqa qarşı

Erməni siyasi şüurunun atrofiyalarını izləmək həmişə maraqlıdır. Çünki əsrlərdir ki, erməni beyni Alsheymer xəstəliyindən əziyyət çəkir və hazırda özünün yeni, daha absurd mərhələsinə qədəm qoyub. İndi erməni cəmiyyətində tarixi yaddaş pozğunluğu, intellektual fəaliyyətdə tənəzzül və nəticədə, total ağıl çatışmazlığı inkişaf edir. Bu əlamətləri daha çox Ermənistan rəhbərliyinin atdığı addımlarda və ekspert dairələrinin "analizləri"ndə görmək mümkündür. Erməni rəhbərliyinin ağıl zəifliyi əlamətlərindən biri, marionet media qurumlarına göstəriş verərək Ermənistanla Rusiyanın yola getmədiyi görüntüsü yaratmağa və paralel olaraq Rusiyanın Azərbaycana Dağlıq Qarabağ məsələsində ciddi yardım etdiyi təsəvvürü formalaşdırmağa çalışmaqda özünü göstərir. Əsrlərdir kənar qüvvələrin oyuncağı və köləsi olan bir kütlə indi primitiv üsullarla başqalarına tələ qurmağa çalışır. Hesab edir ki, Qarabağdakı savaşda o qalib gəlib və hamı buna inanır. Qəribədir ki, bu psixi xəstəlik indi də Ermənistan rəhbərliyində davam edir, özü də hökumət başçısının öz havadarlarına baş çəkməsindən sonra daha da şiddətlənir.

"Küçə-meydan demokratı"nın İran və Almaniyaya səfərindən sonra atdığı addımlar erməni siyasi şüurunda anormallığın daha da yüksəldiyinə dəlalət edir. N.Paşinyan Dağlıq Qarabağdakı erməni terror təşkilatının yerləşdiyi binaya gələrək "strateji məsləhətləşmələr" aparıb. Guya "Arsax Respublikası" ilə "Ermənistan Respublikası"nın təhlükəsizlik şuraları birgə iclas keçirib, "tarixi" qərarlar çıxarıblar. Erməni oyuncaq KİV-ləri yazır ki, "Arsax hökuməti" Ermənistan rəhbərliyinə onun adından danışmaq mandatını verməyib. Və Azərbaycan tərəfi bundan "çox narahat olub". Hətta Azərbaycanın xarici işlər naziri Moskvaya zəng vuraraq, ermənilərdən "şikayət" edib.

Bu cəfəng cızma-qaralar üzərində dayanmamaq daha faydalı olardı. Lakin bir sıra məqamlar var ki, onları hörmətli oxucu aydın bilməlidir. Hər şeydən öncə, Ermənistan siyasi və ekspert dairələrinin dedikləri hansısa "Arsax Respublikası" yoxdur. Real olanı havadarlarının aktiv və həlledici dəstəyi ilə erməni quldur və vəhşi silahlı dəstələrinin Azərbaycan torpaqlarının bir hissəsini işğal etməsidir. Bu, beynəlxalq təşkilatların sənədlərində də aydın vurğulanıb. Məsələn, BMT-nin məlum dörd qətnaməsində açıq yazılıb ki, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından çıxmalıdır. Aİ və NATO-nun da qəbul etdiyi sənədlərdə ölkələrin ərazi bütövlüyünün təmin olunması məsələsi birmənalı qoyulub. Konkret olaraq, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlarda qəbul edilən sənədlərin, ATƏT-in Minsk qrupu həmsədrlərinin ifadələrinin ana xəttini ərazi bütövlüyü təşkil edir.

Bütün bunlara baxmayaraq, erməni siyasi dairələri həyasız və məsuliyyətsizcəsinə iddia edirlər ki, millətlərin təyini-müqəddərat hüququ daha önəmlidir. Hətta bu günlərdə Ermənistana səfər edən Gürcüstan Prezidenti Salome Zurabişvilinin öz müqəddəratını təyinetməyə münasibət bildirməməsini "siyasi qorxaqlıq" kimi qələmə verirlər. Bunun fonunda Gürcüstanın ərazi bütövlüyünü beynəlxalq təşkilatların dəstəklədiyini də yazırlar. Deməli, erməni intellektual reallığı o dərəcədə dolaşıb ki, adi həqiqəti belə dərk edə bilmir: Gürcüstan kimi, Azərbaycan dövlətinin də ərazi bütövlüyü təmin edilməlidir. Əgər bunu hansısa beynəlxalq təşkilat qəbul etmirsə, beynəlxalq hüquq normalarını və BMT-nin Nizamnaməsini yaxşı öyrənməlidir. Yox, əgər kimlərsə yenə ikili standartlar siyasətinə və diplomatik ibarələrə üstünlük verirsə, sonunu özü düşünsün. Çünki nə Azərbaycan, nə də beynəlxalq ictimaiyyət əvvəlki deyil. Azərbaycan bütün sahələrdə Ermənistandan qat-qat güclüdür. Azərbaycan Ordusu çox qısa müddətdə erməni silahlı dəstələrini darmadağın etmək qüdrətindədir. Bunu 2016-cı il Aprel döyüşlərində və Naxçıvan əməliyyatında erməni hərbi dairələri aydın gördülər. İndi də hansısa Vanesyanın Dağlıq Qarabağda hansısa erməni qrupunu ziyarət etməsi heç nəyi dəyişmir - erməni ordusu Azərbaycan Ordusunun zərbələri altında sabun köpüyü kimi partlayacaq!

### Regiona təhlükə: daha riskli vəziyyətə doğru...

Beynəlxalq ictimaiyyətin mövqeyinə gəldikdə isə, artıq dünya "5-dən böyük (BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvü), birdən də (ABŞ) xeyli böyük" olduğunu anlayıb. Yeni geosiyasi qüvvələr meydana çıxır. Və onlar heç də erməni yalanlarına uymaqda və onları işğal siyasətində dəstəkləməkdə maraqlı deyillər. Baxın, son illər Rusiya-Türkiyə münasibətləri hansı səviyyəyə yüksəlib! İran-Türkiyə və İran-Azərbaycan münasibətlərində hansı irəliləyişlər baş verib! ABŞ hansı sürətlə dünyada nüfuzunu itirir! Bütün bunlar beynəlxalq aləmdə hüququn təmin edilməsi zərurətini ortaya qoyur. Gec və ya tez heç bir böyük dövlət ermənilərin iddialarına görə ədalətsiz və ikili yanaşmalara uyğun addım atmaq istəməyəcək. Onda Ermənistanın hansı gülünc və aciz vəziyyətə düşəcəyini təsəvvür etmək çətin deyil. O həqiqət anında erməni ordusunun zəifliyi və gücsüzlüyü bütün çılpaqlığı ilə dünyaya məlum olacaq. İllərdir günahsız azərbaycanlı əsirlərə işgəncələr verən quldur ermənilərə işlətdikləri cinayətlərin cəzasını hüququn tam gücü ilə kəsənlər tapılacaq. Buna kimsənin şübhəsi olmasın! O cümlədən təhlükəsizlik şuraları adı altında Xankəndidə toplanıb xısın-xısın danışan bir qrup erməni anlamalıdır ki, vaxt gələcək bu kimi hərəkətlərin cəzasını alacaqlar. N.Paşinyan bir tərəfdən müharibə olmasın deyib, yalvarır, o biri tərəfdən isə qanunsuz və təxribatçı hərəkətlər edərək vəziyyəti daha da gərginləşdirir. Belə görünür ki, ona müəyyən qüvvələr təminat verməyə çalışırlar ki, hərəkətləri cəzasız qalacaq. Ancaq burada onlar bir məqamı unudurlar.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini tənzimləməli olan ATƏT-in Minsk qrupu vardır. Əgər bu qrup passiv qalmaqda davam edərsə və bunun fonunda Ermənistan tərəfi təxribatçı addımlarını atarsa, Azərbaycanın bunlara müstəqil reaksiya vermək hüququ vardır. Bir tərəfdən, Minsk qrupu vəzifəsinin öhdəsindən gəlmədiyinə görə, aciz duruma düşəcək, digər tərəfdən isə Ermənistan aqressiv hərəkətlərinə davam etdiyinə görə, hərbi zərbə alacaq. Deməli, faktiki olaraq, Ermənistan hökuməti həm münaqişənin həlli prosesini, həm də bütövlükdə regionu geosiyasi aspektdə dalana sürükləyir. Bunun qarşısını onun havadarları almasalar, özləri də ziyan görəcəklər.

Bununla yanaşı, Ermənistan rəhbərliyi açıq surətdə danışıqları dalana yönəltməyə çalışır. Bir tərəfdən onlar həm erməni terrorçu və separatçılarını danışıqlar masasına oturtmağa cəhd göstərir, digər tərəfdən isə Minsk qrupunun həmsədrlərini şantaj etməyə çalışırlar. Anlamaq lazımdır ki, Amerika Üsamə Ben Ladenlə, Rusiya terrorçu hesab etdiyi insanlarla, Fransa da Parisdə terror törədən adamlarla danışmadığı kimi, Azərbaycan da minlərlə insanı qətlə yetirən erməni terrorçularla bir masa arxasında oturmaz. İŞİD-lə kim danışıq apardı? Və yaxud "Cəbhət ən-Nusra" ilə kim danışır? Üstəlik, adı çəkilən terror qrupları kimsənin torpağını işğal etməyib. Onlar öz torpaqlarında savaşırlar. Ermənistan silahlı qüvvələri isə quldurcasına Azərbaycan torpaqlarına başqalarının böyük köməyi ilə soxulub soyqırımı törədiblər. Xocalı soyqırımı vəhşiliyinə görə əsrin terrorudur. Bu əməllərin sahibləri ilə Azərbaycan hakimiyyəti müzakirə aparmalıdırmı?

Digər tərəfdən, reallıqdır ki, Xankəndidəki adamlar sadəcə oyuncaqdırlar. Onların böyük ağaları xarici ölkələrdədir, kiçik ağaları isə İrəvanda. İkiqat kölə nədən danışa bilər? Heç nədən. Bu səbəbdən də Ermənistan rəhbərliyinin atdığı hər bir addım əslində münaqişənin sülh yolu ilə həllinin qarşısını almağa hesablanıb. Azərbaycan bu cür təxribatların nə demək olduğunu çox yaxşı bilir. Rəsmi İrəvan ağlını başına toparlamasa, ona da başa düşdüyü dildən həmin həqiqəti anladacaqlar.

Beləliklə, N.Paşinyanın Dağlıq Qarabağa qanunsuz səfəri, əslində, növbəti təxribatdan başqa bir şey deyil. Bu kimi addımlar real vəziyyəti müsbətə doğru dəyişə bilməz. Təbii ki, Azərbaycan da kimlərlə danışmalı olduğunu yaxşı bilir. Əgər qarşı tərəf susarsa və ya ara qarışdırmağa davam edərsə, Bakının alternativ üsula əl atmaq hüququnu heç kəs əlindən ala bilməz!

Newtimes.az

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR)*

## “Neftqaztikinti” Tresti

**Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin “Azneft” İstehsalat Birliyinin “28 May” NQÇİ-nin obyektlərində nəzarət ölçü cihazlarının və avtomatika vasitələrinin quraşdırılması tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25029-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci hər üç LOT üzrə 04.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri hər üç LOT üzrə bir əsli və bir surəti olmaqla 11.04.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər LOT1 və LOT2 üzrə 118 AZN (ƏDV-ilə), LOT3 üzrə 536 AZN (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsini hər üç LOT üzrə 90 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.
**Bank zəmanəti:** LOT3-üzrə.
İddiaçının LOT3 üçün müsabiqənin təklifi üzrə bank zəmanəti 20500 AZN məbləğində tələb olunur.
Bank təminatı ayrı zərfdə təqdim edilməlidir və bank zəmanəti təqdim etməyən iddiaçının təklif zərfləri açılmayacaqdır.
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.
İddiaçının LOT3 üçün Satınalma müqaviləsi vergilər daxil olmaqla, müqavilənin yerinə yetirilməsi zəmanəti satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, “Neftqaztikinti” Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.
**Əlaqələndirici şəxs:**
Anar İsmayılov
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin böyük mühəndisi
Tel: +994 50 842 51 20
Elektron ünvan: anar.k.ismayilov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı hər üç LOT üzrə 11.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə LOT1 saat 11:30-da, LOT2 saat 12:00-da, LOT3 saat 12:30 elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Neftqaztikinti” Trestinin Satınalmalar qrupu**



## “Umid Babek Operating Company” Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialı

**“Ümid” yatağı 1 saylı Stasionar Dəniz Özülündə paslanmaz koroblarn və tikinti-quraşdırma işlərinin satınalınması olan tələbatını təmin etmək məqsədi ilə Açıq Müsabiqə (KO-001/2019) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında imzalanmış və möhürlənmiş müraciət ən geci 10 Aprel 2019-cu il, Bakı vaxtı ilə saat: 10:00-a qədər Azərbaycan və İngilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi 1 (bir) əsli və 2 (iki) olmaqla 15 aprel 2019-cu il, Bakı vaxtı ilə saat 14:00-da Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 236 (İki yüz otuz altı) manat (ƏDV daxil) məbləğdə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Voen: 1503807961
Bank: ASC “Xalq” Bankının Baş filialı, VÖEN: 2000296061,
M/h AZ24NABZ01350100000000067944, Kod: 501026, SWIFT: HAJCAZ 22
H/h AZ65HAJCHCNAZN10000098111001 - AZN
H/h: AZ25HAJCHCNUSD10000098111002 - USD
H/h: AZ29HAJCHCNEUR10000098111003 - AVRO

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təklifin təminatı:***
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin icrasına işlərə başlandıqdan sonra 2 ay ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ 1029, Bakı, H.Əliyev prosp., 121, SOCAR Tower, 8-ci mərtəbə
**Əlaqələndirici şəxs:** Ümüd Cəfərov
**Əlaqələndirici şəxsin vəzifəsi:** “Umid Babek Operating Company” Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialının Satınalma üzrə mütəxəssisi
Tel: (+994 12) 521 00 00 (27369)
Mob: (+994 50) 558 00 07
E-mail: tenders@socar-umid.com

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.ikisahil.az www.azerweb.com www.socar.az

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 15 aprel 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 14:00-da, elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı e-maildən əldə edilə biləcək:
tenders@socar-umid.com

**“Umid Babek Operating Company” Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialının Satınalmalar qrupu.**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!
iki sahil Son səhifə
24
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 51 (7306) / Şənbə, 16 mart 2019-cu il

# Ağ çayın hansı faydaları var?

**Bu gün o qədər də tanınmayan və az istifadə olunan ağ çay kamellia sinensis bitkisinin yarpaqlarının tam yetişmədən yığılması ilə hazırlanır. Yarpaqları tam yetişmədiyi üçün ağ görünüşü olur. Ağ çay adını bu görünüşünə görə alıb. Ağ çayın bir çox növü var. Növlər aromasına, tumurcuq sayına və yarpaqlarına görə fərqlənir.**

Ağ çayın populyarlığının ən vacib amili onun artıq çəkidən qurtulmaq üçün faydalı olmasıdır. Lakin artıq çəki atma prosesindən başqa bir çox digər faydaları da var.



### Ağ çayın faydaları

-Ağ çay insanın yaddaşını möhkəmləndirir. Unutqanlıq üçün mükəmməldir.

- Gün ərzində yorğunluğu aradan qaldırır.

-Ürəyin sağlamlığını qoruyur. Cinsi sağlamlıq baxımından da çox faydaları vardır.

-Antioksidant tərkiblidir və dərinin aşınmasının qarşısını alır. Dəri sağlamlığı üçün çox təsirli bir bitkidir.

-Qan təzyiqini normallaşdırır və xolesterolu azaldır.

-Diş sağlamlığı üçün çox təsirlidir.

-Ağ çay yaşıl və qara çaydan daha çox antioksidant tərkiblidir. Güclü antioksidant tərkibi ilə orqanizmin sərbəst radikallarını yox edir.

-İmmunitet sistemini gücləndirir. Bu xəstəliklərə qarşı qoruyucu təsir göstərir.

-Kofein nisbəti yaşıl və qara çayla müqayisədə çox aşağıdır.

-Sümük quruluşunu gücləndirir. Romatoid artrit və revmatik xəstəliklərə müsbət təsir göstərir.

-Ağ çay zərərli yağ hüceyrələrini məhv edir və yeni yağ hüceyrələrinin meydana gəlməsinə maneə törədir. Digər çay növlərinə nisbətən zərərli yağları yoxedici maddələrlə daha zəngindir.

-Daha az emal olunma prosesinə məruz qaldığı üçün ağ çay kateşin adlı maddə ilə daha zəngindir. Kateşin maddəsinin beyin inkişafı və xərçəng hüceyrələrinin meydana gəlməsinin qarşısının alınmasında bir çox təsirləri var.

Bəs bu qədər faydalarını saydığımız ağ çayın zərəri varmı? Təbii ki, hər şeyin artığı ziyandır. Ağ çayın da həddindən artıq istifadə olunmasının bəzi riskləri var.

### Ağ çayın zərərləri

Biz ağ çaydakı kofein miqdarının qara və yaşıl çayla müqayisədə az olduğunu qeyd etdik. Lakin az da olsa tərkibində kafein ehtiva edir. Kafein isə normadan artıq ürək döyüntüsünə, narahatlıq və yuxusuzluğa səbəb olur. Bu səbəbdən də ağ çayı gün ərzində normal dozada istehlak etməkdə fayda var. Ekspertlər deyirlər ki, gündə maksimum 2 stəkan ağ çay içilməsi zərər vermir.

Ağ çayın tərkibində olan flavonoid maddəsi orqanizmdə dəmirin miqdarını artıra bilər. Buna görə də, ağ çayı yeməkdən əvvəl içmək məsləhət görülür. Həmçinin əgər həkiminiz dəmir çatışmazlığı səbəbi ilə sizə qəbul etməyiniz üçün dərman yazıbsa, bu dərmanlarla birlikdə ağ çay içməməyə diqqət göstərin.

**Röya Rasimqızı,**
***"İki sahil"***

# Telefonla yatmağın təhlükəsi aşkarlandı



Yuxuya getməzdən qabaq smartfon və ya planşetdə sosial şəbəkəni oxumaq sağlam yuxunun ən böyük düşmənidir. Yatmazdan qabaq elektron cihazlarla təmasdan imtina, yüngül qida qəbulu, uşaqla birgə yuxuya getmə isə əksinə, sağlam və keyfiyyətli istirahətin qarantıdır.

Milli.Az xəbər verir ki, bunu Con Hopkins Universitetinin Tibb Məktəbinin professoru Vsevolod Polotski deyib.

"Yuxu pozuntusu insanların uzun müddət sosial şəbəkələrdə vaxt keçirməsi ucbatından baş verir, belə ki, daimi şüalanma orqanizmin bioloji saatına mənfi təsir göstərir", - V.Polotski bildirib.

Onun sözlərinə görə, sosial şəbəkədə ola-ola yuxuya getmək, natamam yuxu, yuxu fazasının pozulması, yuxusuzluq kimi problemlərin ortaya çıxmasına səbəb olub.

"Böyüklər günə azı yeddi saat yatmalıdırlar. Çarpayıda elektron cihazlardan, o cümlədən "iPhone" və ya "iPhad", televizor və digər qadjetlərdən istifadə etməməlidirlər. Bundan başqa, yatmazdan əvvəl ağır qidalar qəbul etmək və ya intensiv şəkildə idmanla məşğul olmaq olmaz", - alim sağlam yuxu üçün tələb olunan şərtləri açıqlayıb.

# Həftənin ən yaxşı oyunçusu



Çempionlar Liqasında bu həftənin ən yaxşı futbolçusu müəyyənləşib.

Milli.Az xəbər verir ki, UEFA-nın rəsmi saytında azarkeşlər arasında keçirilən səsvermənin nəticəsinə əsasən, "Yuventus"un hücumçusu Kriştianu Ronaldu ən yaxşı seçilib.

Portuqaliyalı oyunçu səsvermədə Lionel Messi ("Barselona"), Sadio Mane ("Liverpul") və Leroy Saneni ("Mançester Siti") qabaqlayıb.

Qeyd edək ki, Ronaldu 1/8 finalın "Atletiko" ilə cavab görüşündə (3:0) het-trikə imza atıb.

# Ən dəqiq tərcümə proqramları hansılardır?

**Xarici dildə olan yazıları tərcümə etmək üçün xüsusi proqramlar mövcuddur. İnternet vasitəsilə fəaliyyət göstərən bu proqramlar faydalı olduğu üçün də çox aktualdır.**

Bəzi tərcümə proqramları isə istifadəçiləri məmnun etmir. Bunun səbəbi isə verilən mətnin tam dəqiq tərcümə olunmamasıdır. Cümlələrin mənasında, sözlərin ardıcıllığında, qarşılığında müəyyən səhvlər olur. Nəticədə həmin proqramlara müraciət sayı azalır.

Bəs dil öyrənmək, mətn tərcümə etmək üçün hansı proqramlar əlverişlidir?

Tərcümə proqramlarının sayı çox olsa da, doğru və dəqiq tərcümə edənləri azdır. Araşdırma nəticəsində ən əlverişli olan proqramları sizə təqdim edirik:




*Google tərcümə (Google translate)*
*Yandex tərcümə (Yandex translate)*
*Bing tərcüməçi (Bing translator)*
*Dilmanc (Dilmanc)*
*Poliqlot(Polyglot)*
*Linqvo (Lingvo)*
*Promt (Promt)*
*Sistran (Systran)*
*Sokrat( Sokrat)*
*Macik Qudi (Magic Gooddy)*

Bu proqramlar kompyuter və telefonlarda çox asan fəaliyyət göstərir. İnternetsiz işləmirlər. Həm dünya dillərinə, həm də dünya dillərindən tərcümə edir. Cümlə və ya söz formasında da daxil edə bilərsiniz. Hərf, söz və həcm məhdudiyyəti yoxdur.

Lakin daha effektli tərcümə istəyirsinizsə, o zaman mətni hissə-hissə yazsanız daha yaxşı olar. Tərcümə proqramları mətni dildən-dilə çevirməklə yanaşı, müxtəlif dilləri öyrənməkdə də kömək edir. Cümlə qurmaq, söz ehtiyatını artırmaq qabiliyyətinə müsbət təsir olur.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

### ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Texniki şöbəsinin rəisi Əhməd Hüseynova, həyat yoldaşı
**Sevil Hüseynovanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi İdarənin Texniki şöbəsinin rəisi Əhməd Hüseynova, həyat yoldaşı
**Sevil xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Baş ofisinin İnsan Resursları Departamentinin kollektivi SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun direktor müavini Arif Qədirova, bacısı
**Mənzər xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB38030019443700306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 16.03.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8287
İndeks: 0151, Sifariş: 923

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "AzadInform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.